**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİNƏ DAİR

## H E S A B A T

**(2020-ci il üzrə)**

**Bakı – 2021**

Bu hesabatda BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin funksiyalarını yerinə yetirən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2020-ci il üzrə həyata keçirdiyi fəaliyyət, irəli sürülən təklif və tövsiyələr yer almışdır.

Müvəkkilin Milli Preventiv Mexanizm funksiyalarının həyata keçirilməsi prosesində BMT-nin İşgəncələrin Qarşısının Alınması üzrə Komitəsinin (CAT), İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitənin (SPT) və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT), Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin (CEDAW), Uşaq Hüquqları üzrə Komitənin (CRC), Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Komitənin (CRPD), habelə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə (UPR) İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş təklif və tövsiyələri nəzərə alınmışdır.

Başçəkmələrin nəticəsi olaraq təhlillər əsasında hazırlanmış məlumatlar, statistik göstəricilər, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu hesabata əlavə edilmişdir.

## MÜNDƏRİCAT

**Ön söz**.....................................................................................4
Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar......................................5

**BÖLMƏ 1. FAKÜLTATİV PROTOKOLA UYĞUN MİLLİ PREVENTİV MEXANİZMİN MANDATI**........................................7
1.1. Fakültativ Protokolun tələbləri...........................................................7
1.2. Milli qanunvericilik.............................................................................8
1.3. Milli Preventiv Mexanizmin fəaliyyət istiqamətləri..........................9

**BÖLMƏ 2. MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR**.............................................11
2.1 Preventiv başçəkmələrin təşkili........................................................11
2.1.1. Plan üzrə başçəkmələr.....................................................................11
2.1.2. Plandankənar başçəkmələr.............................................................12
2.2. Başçəkmələrin həyata keçirilməsi...................................................12
2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri..............................................14
2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri...........27
2.2.3. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri..........................37
2.2.4. Müdafiə Nazirliyinin müəssisəsi.....................................................38
2.2.5. Səhiyyə Nazirliyinin müəssisələri..................................................39
2.2.6. Təhsil Nazirliyinin müəssisələri......................................................44
2.2.7. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri....47
2.2.8. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri..........................49

**BÖLMƏ 3. HÜQUQİ TƏHLİL**..........................................................53

**BÖLMƏ 4. HÜQUQİ MAARİFLƏNDİRMƏ**....................................78

**BÖLMƏ 5. İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**...................................................................................81

**BÖLMƏ 6. TƏKLİF VƏ TÖVSİYƏLƏR**..........................................83

Əlavə 1..........................................................................................87

Əlavə 2..........................................................................................89

# ÖN SÖZ

Azərbaycan Respublikası 2 dekabr 2008-ci ildə BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunu ratifikasiya etmiş və ölkə Prezidentinin 13 yanvar 2009-cu il tarixli Sərəncamı əsasında Protokolda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin (MPM) funksiyalarını həyata keçirən təsisat qismində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir.

Müvəkkil Fakültativ Protoklolun məqsədlərinə uyğun olaraq ilin yekunları əsasında öz hesabatını hazırlayaraq təqdim edir ki, bu hesabatda da MPM funsiyalarının icrası istiqamətidə görülən işlər yer almışdır.

2020-ci il üzrə hesabatda hərbi əməliyyatlar və qlobal pandemiya dövründə MPM funksiyalarının icrası xüsusiyyətləri ayrıca təhlil edilmişdir.

Dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, hüquq müdafiəçiləri, vəkillər, kütləvi-informasiya vasitələri, beynəlxalq təşkilatlar, xarici ölkələrin Milli İnsan Hüquqları Təsisatları, yerli və beynəlxalq ekspertlərlə olan əlaqələri Müvəkkilin MPM qismində fəaliyyətinin də inkişafına, uğurlu və konstruktiv əməkdaşlıq əlaqələrinin qurulmasına, faydalı müzakirələr, treninqlər və təcrübə mübadilələrinin (ənənəvi və onlayn) təşkilinə imkan vermişdir.

Hesabat Azərbaycan MPM-nin 2020-ci il üzrə fəaliyyətini əhatə etməklə, görülmüş işlər, preventiv başçəkmələr və onların nəticələri, verilmiş təklif və tövsiyələr və onların icrası vəziyyəti, eləcə də MPM-in həyata keçirdiyi hüquqi maarifləndirmə və digər fəaliyyət istiqamətlərinə dair tədbirləri özündə əks etdirir.

İnanırıq ki, hesabatda qaldırdığımız məsələlələr, verdiyimiz təklif və tövsiyələr milli və beynəlxalq qanunvericiliyin tələblərinə uyğun şəkildə ölkə təcrübəsinin və müvafiq istiqamətlər üzrə fəaliyyətin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

Hesabatla əlaqədar göndəriləcək təkliflərə görə əvvəlcədən təşəkkür edirik.

**Səbinə Əliyeva**
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

# MƏTNDƏ İSTİFADƏ OLUNMUŞ ANLAYIŞLAR VƏ İXTİSARLAR

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması

**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs

**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etmə hüququ olmadan saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer

**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı

**AİHM** – Avropa İnsan Hüquqları Məhkəməsi

**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**BİT**- Bakı İstintaq Təcridxanası

**CÇM** – Cəzaçəkmə müəssisəsi

**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

**DTX** – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**ƏN** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

**FP** – "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu

**İHAK** – İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya

**İHOSM** – İnzibati həbs olunanların saxlanma Mərkəzi

**İXM** – Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi

**İQA** – BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (SPT)

**İQAK** – Avropa Şurasının İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Komitəsi (CPT)

**İQK**– BMT-nin İşgəncələrin Qarşısının Alınması Komitəsi (CAT)

**İşgəncə** – İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza

**İT** – İstintaq təcridxanası

**KİV** – Kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu

**Konvensiya** – BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası”

**MN** – Azərbaycan Respublikasının Müdafiə Nazirliyi

**MPQ** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrup

**MPM** – BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm

**MSY** – müvəqqəti saxlama yeri

**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**PX** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti

**RPİ** – Rayon polis idarəsi

**RPŞ** – Rayon polis şöbəsi

**SN** – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

**Şöbə** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi

**ŞRPŞ** – Şəhər rayon polis şöbəsi

**TƏBİB** – “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxs

**TN** – Azərbaycan Respublikasının Təhsil Nazirliyi

# BÖLMƏ 1.

# FAKÜLTATİV PROTOKOLA UYĞUN MİLLİ PREVENTİV MEXANİZMİN MANDATI

## 1.1. Fakültativ Protokolun tələbləri

2020-ci ildə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyasının Fakültativ Protokolunda (FP) nəzərdə tutulmuş milli preventiv mexanizmin (MPM) funksiyalarını yerinə yetirən təsisat kimi fəaliyyətini davam etdirmişdir.

Məlum olduğu kimi, FP-nin əsas məqsədi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir. FP konstruktiv dialoqun vacibliyini vurğulayır və tənzimlənən münasibətlərə reaksiyaya əsaslanan münasibət deyil, preventiv – qarşısını alma münasibətinin göstərilməsini təsbit edir. FP-nin innovativliyi, həm də onun hər hansı yeni hüquq və ya standartı, yaxud pozulmuş hüquqların bərpasını deyil, mövcud standartın, yəni işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını əks etdirməsində təzahür edir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır (buraya BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (İQA) və MPM-lər daxildir). Beynəlxalq səviyyədə yaradılmış İQA BMT-nin yeni nəsil saziş qurumudur.

FP-nin 17-ci maddəsinin tələblərinə görə hər bir iştirakçı dövlət tərəfindən protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq dəstəklənməli, təyin və ya təsis edilməli olan MPM azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin milli səviyyədə müntəzəm monitorinqlər aparır. MPM-lərin mandatı ən azı aşağıdakıları əhatə edir:

- azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələlərə müntəzəm olaraq baxılması;

- BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi və işgəncələrin qarşısının alınması;

- qüvvədə olan qanunvericilik aktlarına və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

Göstərilən mandatın uğurla həyata keçirilməsi üçün, MPM-lərin yaradılması zamanı onların funksional müstəqilliyinin, habelə işçi heyətinin müstəqilliyinin təmin olunması əsas şərtdir.

FP həmçinin MPM-lərin aşağıdakı əsas hüquqlarını təsbit edir:

- azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onlarla rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında, həmçinin azadlıqdan məhrum etmə yerlərinin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;

- bütün azadlıqdan məhrum etmə yerlərinə maneəsiz daxil omaq;

- azadlıqdan məhrum edilmiş şəxslərlə və ya müvafiq məlumat verə biləcək istənilən şəxslə fərdi söhbətlər aparmaq;

- baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək;

- İQA ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək.

## 1.2. Milli qanunvericilik

Azərbaycan Respublikası tərəfindən FP 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli qanunla ratifikasiya edilmişdir.

Müvafiq qanunun dərc edilməsindən etibarən – 15 yanvar 2009-cu il tarixdən FP Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə FP-də nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir.

Konstitusiya Qanununa edilən əlavə və dəyişikliklərlə Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqilliyi FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, həmçinin Müvəkkilin MPM qismində fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Aparatda şəffaf prosedurlar əsasında Milli Preventiv Qrupun (MPQ-nin) yaradılması, onun üzvlərinə dair tələblər, habelə onların hüquqları və toxunulmazlığının təminatları kimi məsələlər təsbit edilmişdir.

Konstitusiya Qanununa əsasən, milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkil və MPQ üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə (CÇM), qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə

və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır. Müvəkkilin, səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ da adı çəkilən qanunda müəyyən edilmişdir.

Ötən müddət ərzində Müvəkkilin MPM qismində fəaliyyətinin effektiv təşkili məqsədilə qanunvericilik aktları təkmilləşdirilmiş, Müvəkkilin və MPQ üzvlərinin yuxarıda göstərilən səlahiyyətləri barədə müddəalar müvafiq qaydada normativ hüquqi aktlarda təsbit edilmişdir.

Müvəkkilin FP-yə uyğun olaraq MPM qismində funksiyalarının səmərəli həyata keçirilməsinin təmin edilməsi məqsədilə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş, habelə İQK (CAT), İQA (SPT) İQAK-ın (CPT) təklif və tövsiyələri də nəzərə alınmışdır.

## 1.3. Milli Preventiv Mexanizmin fəaliyyət istiqamətləri

MPM-nin fəaliyyəti aşağıdakı dörd əsas istiqamət üzrə həyata keçirilən tədbirlərdən ibarətdir:

- Preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;
- Hüquqi təhlil – həyata keçirilən fəaliyyətin, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;
- Hüquqi maarifləndirmə – işgəncələrin qarşısının alınması işinin təşviqi məqsədi ilə Aparatın əməkdaşları, MPQ üzvləri, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin işçiləri, eləcə də belə yerlərdə saxlanılan şəxslər, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün hüquqi maarifləndirmə tədbirlərinin təşkil olunması, müvafiq əyani vəsaitlərin hazırlanıb paylanılması;
- İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq – yerli, regional və beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkə MPM-ləri ilə informasiya

mübadiləsinin aparılmasının, həyata keçirilən tədbirlərdə qarşılıqlı iştirakın, həmçinin birgə tədbirlərin təşkilinin təmin olunması, habelə MPM-in fəaliyyətinin KİV-də işıqlandırılmasının təşkili.

# BÖLMƏ 2.

# MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR

## 2.1. Preventiv başçəkmələrin təşkili

Fakültativ Protokolun 20-ci maddəsinin “a” bəndinə əsasən, Milli Preventiv Mexanizmlərin öz mandatını yerinə yetirə bilməsi məqsədilə, iştirakçı dövlətlər Fakültativ Protokolun 4-cü maddəsinin tətbiqi üçün şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrin və orada saxlanılanların sayı, yerləşdiyi yer haqqında istənilən məlumatı təqdim etməyi öhdələrinə götürürlər.

Bu məlumatlar Müvəkkilin sorğusu əsasında müvafiq dövlət orqanlarından alınır və həmin sorğular üzrə daxil olmuş məlumatlar əsasında hazırlanmış illik plana uyğun olaraq başçəkmələr həyata keçirilir. Zərurət yarandıqda, ilin sonunda müvafiq orqanlarla dəqiqləşdirmələr aparılaraq növbəti il üçün məlumatlar yenilənir.

Preventiv başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilir və bunları plan üzrə başçəkmələr və plandankənar başçəkmələr olmaqla iki qrupa bölmək olar.

### 2.1.1. Plan üzrə başçəkmələr

Plan üzrə başçəkmələr Müvəkkil tərəfindən təsdiq olunan illik plan əsasında həyata keçirilir. İllik planın layihəsi hər ilin sonunda növbəti il üçün MPQ üzvlərinin iştirakı ilə keçirilən iclasda müzakirə olunur, nəticələr protokollaşdırılır, qəbul edilmiş plan təsdiq olunmaq üçün Müvəkkilə təqdim edilir. Planın açıqlanmaması başçəkmələrin effektivliyi baxımından çox əhəmiyyətlidir. Bu səbəbdən onun məxfiliyi MPQ-nin üzvləri tərəfindən təmin olunur.

Bu və ya digər müəssisənin plana hansı ardıcıllıqla daxil edilməsi, həmçinin müəssisəyə təkrar başçəkmələrin təyin edilməsi həmin müəssisənin rejiminin xüsusiyyəti, ötən illərdə şərait və rəftarla əlaqədar qeydə alınmış hallar, ərazi uyğunluğu, eləcə də Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin təhlili nəticəsində MPQ-yə verilmiş məlumatlar kimi amillər nəzərə alınmaqla aparılır.

Başçəkmənin həyata keçirilməsi üçün sərf olunan vaxt isə müəssisənin həcmindən, orada saxlanılan şəxslərin sayından, rejim və digər xüsusiyyətlərindən, eləcə də başçəkməyə cəlb olunmuş MPQ üzvlərinin sayından asılı olaraq dəyişir.

### 2.1.2. Plandankənar başçəkmələr

Plandankənar başçəkmələr əsas etibarilə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM-ə bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbət zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatların və Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin, Qaynar Xəttinə (Çağrı Mərkəzinə) daxil olmuş müraciətlərin təhlili, MPQ-yə verilmiş məlumatların araşdırılması, kütləvi informasiya vasitələrində rast gəlinən və MPM-i maraqlandıran informasiyaların yerində yoxlanılması, habelə Müvəkkilin təşəbbüsü ilə həyata keçirilir.

## 2.2. Başçəkmələrin həyata keçirilməsi

Başçəkmələrin effektivliyinin təmin olunması üç əsas mərhələnin əhatə olunmasını tələb edir. Bunlar nəzərə alınaraq Azərbaycan MPM-i tərəfindən başçəkmələr aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

- başçəkməyə hazırlıq;
- başçəkmənin həyata keçirilməsi;
- başçəkmədən sonrakı tədbirlər.

Başçəkməyə hazırlıq adətən iki iş gününədək davam etməklə zəruri məlumatların toplanılması; başçəkmənin məqsədlərinin müəyyən edilməsi; başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsindən ibarət olur.

Hazırlıq zamanı, zəruri məlumatların toplanılması prosesində əvvəlki başçəkmələrdə əldə edilmiş və ya digər mənbələrdən alınmış məlumatlar, Müvəkkilin ünvanına daxil olmuş müraciətlər, KİV-lərdən, sosial şəbəkələrdən alınmış məlumatlar, habelə bəşçəkmənin həyata keçiriləcəyi müəssisənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar və beynəlxalq standartlar təhlil edilir.

Başçəkmənin məqsədləri saxlanılma şəraitinin və rəftarın ümumən qiymətləndirilməsindən; saxlanılma şəraiti və rəftarla bağlı konkret halların öyrənilməsindən (məsələn, intizam cəzalarının həyata keçirilməsi, tibbi xidmətin keyfiyyəti və s.); əvvəlki başçəkmələr zamanı aşkar olunmuş halların aradan qaldırılıb-qaldırılmamasının, habelə verilmiş təklif və tövsiyələrin icrası vəziyyətinin yoxlanılmasından; xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirilməsindən və digər tədbirlərdən ibarət olmaqla müəyyən edilir.

Başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsi zamanı qrup üzvlərinin sayı, ixtisası, cinsi və s. amillər nəzərə alınmaqla başçəkmə qrupunun tərkibi formalaşdırılır, başçəkmənin məqsədindən asılı olaraq başçəkmə və müsahibə suallarının siyahısı, məhkumlarla söhbətin protokollaşdırılması üçün blank formaları, sorğu anketləri və s. hazırlanır.

Başçəkmənin həyata keçirilməsi özündə bir neçə mərhələni ehtiva edir:

Əvvəlcə müəssisənin rəhbərliyi ilə ilkin söhbət aparılır, söhbət zamanı qrup üzvləri özlərini təqdim edir, başçəkmənin məqsədi barədə onu məlumatlandırırlar. Daha sonra müəssisə barədə ümumi məlumat alınır.

Müəssisənin rəhbərliyi ilə ilkin söhbətdən sonra müəssisənin binalarına baş çəkilir. Bu zaman müəssisədə saxlanma şəraiti – müəssisənin binasının, kamera və ya otaqların vəziyyəti, ölçüsü, tutumu, faktiki yerləşmə, işıqlandırma, ventilyasiya, mebel təchizatı, şəxsi gigiyena və sanitariya şəraiti, qidalanma məsələləri qiymətləndirilir; tibbi xidmətlərin təmin olunması vəziyyəti, və s. araşdırılır.

Daha sonra sənədlərə baxış keçirilir, saxlanılan şəxslərlə kollektiv və ya təkbətək, konfidensial şəkildə söhbət aparılır. Saxlanılan şəxslərlə kollektiv söhbətlərin aparılması əsas etibarilə başçəkmənin məqsədindən asılıdır. Vəziyyətdən asılı olaraq söhbətlərin hansı şəkildə aparılmasını MPQ üzvləri başçəkmə yerində müəyyən edə, yaxud ilkin razılaşmaya düzəliş edə bilər.

Müəssisə əməkdaşları ilə söhbət də başçəkmənin vacib məsələlərindəndir. MPQ üzvləri başçəkmə həyata keçirərkən saxlanılan şəxslərə görə cavabdehlik daşıyan müəssisə əməkdaşlarının rəftar baxımından yanaşmalarını qiymətləndirmək məqsədi ilə onlarla müsahibələr təşkil edirlər. Bəzi hallarda müəssisələrin personalı ilə söhbətlə yanaşı onlar üçün nəzərdə tutulmuş xüsusi sorğu anketlərindən də istifadə olunur.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun söhbət aparılaraq MPQ tərəfindən aşkar edilmiş hallarla bağlı məlumat verilir. Yerində aradan qaldırıla biləcək məsələlər onun diqqətinə çatdırılır və müvafiq tövsiyələr verilir. Eyni zamanda nəticələrlə bağlı müvafiq orqanın rəhbərliyinə müraciət ediləcəyi bildirilir.

Başçəkmədən sonrakı tədbirlər Azərbaycan MPM-nin qənaətinə görə başçəkmənin bilavasitə özündən daha əhəmiyyətlidir. Çünki MPM-in fəaliyyətinin məqsədi yalnız müvafiq yerlərə başçəkmədən ibarət deyil, müxtəlif müəssisələrdə saxlanılan şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmiş prosesi təşkil etməkdir.

Məhz ona görə də başçəkmədən sonra onun nəticələrinə dair hesabat tərtib edilir, rəftar və şəraitin yaxşılaşdırılması üçün tövsiyələr hazırlanaraq müvafiq qurumlara göndərilir.

Adətən MPQ-nin zəruri hesab etdiyi hallarda başçəkmədən sonrakı yaxın dövr ərzində müəssisə ilə əlaqədar verilmiş tövsiyələrin icrası vəziyyətinin

yerində yoxlanılması məqsədi ilə təkrar başçəkmə günü təyin edilir və müvafiq olaraq həyata keçirilir.

### 2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm (MPM) fəaliyyəti çərçivəsində müvəqqəti saxlama yerlərinə, polis bölmələrinə planlı və plandankənar olmaqla *61* başçəkmə həyata keçirilmişdir. Bu müəssisələrdə saxlanılan şəxslərlə fərdi söhbətlər aparılmış, onların saxlanma şəraiti qiymətləndirilmiş, saxlanıldıqları müddət ərzində, habelə tutularkən pis rəftara məruz qalıb-qalmamaları araşdırılmışdır.

Müvəkkil və onun MPQ üzvləri tərəfindən rayon (şəhər) polis orqanlarının rəhbərliyi və şəxsi heyəti ilə görüşlər keçirilmiş, onlarla hüquqi maarifləndirmə işi aparılmış, insan hüquq və azadlıqlarının təmin olunmasına xüsusi diqqət yetirilməsinin vacibliyi diqqətə çatdırılmış, bu sahədə əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Daxili İşlər Nazirliyinin rayon-şəhər polis idarə və şöbələrinin Müvəqqəti saxlama yerlərində saxlanma şəraitinin müasir standartlara uyğunlaşdırılması, maddi-texniki bazanın yenidən qurulması və təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirildiyi müşahidə edilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) MPM çərçivəsində *Naftalan şəhər Polis Şöbəsinin (RPŞ) Müvəqqəti Saxlama Yerinə* (MSY) əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Müvəkkilin iştirak etdiyi başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, saxlanılan şəxslərin daxili intizam qaydalarına və beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində müəssisənin kameralarına, mətbəxə, istintaq, tibb, ibadət otaqlarına, gəzinti sahəsinə baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma, sovqat qəbulu, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması ilə bağlı həmin müəssisədə saxlanılan inzibati qaydada həbs edilmiş şəxs Müvəkkil tərəfindən fərdi qəbul olunmuş, hüquqlarının təmin olunması vəziyyəti yerində araşdırılmışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə söhbət aparılmış, saxlanılan şəxslərin müvəqqəti saxlama yerinə qəbulu zamanı COVID-19 pandemiyası əleyhinə tibbi müayinədən keçirilməsinə riayət olunması və

dezinfeksiyaedici vasitələrlə təmin edilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

*MSY-nin rəisi ilə söhbət əsnasında müəyyən edilmişdir ki, müəssisəyə gətirilən şəxslərin tibbi müayinəsi zamanı tibb işçisinin yanında polislər iştirak edir. Halbuki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 aprel 2013-cü il tarixli Qərarı ilə təsdiq edilmiş "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi yardım göstərilməsi, habelə onların tibbi müəssisələrdə saxlanılması Qaydaları"nın 2.8-ci bəndinə əsasən tibbi işçisi tibbi müayinələri digər şəxslərin iştirakı olmadan (təhlükəsizlik tədbirləri istisna olmaqla) aparır.*

Qeyd olunanlar nəzərə alınaraq müəssisənin rəisinə tibbi müayinələrin konfidensiallığının qanunvericiliyə uyğun olaraq təmin olunması tövsiyə edilmiş, əməkdaşlara "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu barədə geniş məlumat verilmiş, tutulmuş və həbs edilmiş şəxslərin hüquq və vəzifələri, daxili intizam qaydaları barədə maarifləndirmə işi aparılmışdır.

Ombudsmanın MPM mandatı çərçivəsində *Binəqədi rayon Polis İdarəsinin Müvəqqəti Saxlama Yerinə* əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Ombudsman haqqında Konstitusiya Qanunu əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, saxlanılan şəxslərin daxili intizam qaydalarına və beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində müəssisənin kameralarına, mətbəxə, istintaq, tibb, ibadət otaqlarına, gəzinti sahəsinə baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma, sovqat qəbulu, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

*Binəqədi rayon Polis İdarəsinin 6-cı Polis Bölməsinə* əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilən başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, saxlanılan şəxslərin daxili intizam qaydalarına və beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində müəssisənin saxlama yerinə və ərazisinə baxış keçirilmiş, bir nəfər saxlanılan şəxsin olduğu müəyyən edilmişdir. Həmin şəxs rəftardan və saxlanma şəraitindən hər hansı şikayət etməmişdir.

Müəyyən olunmuşdur ki, bölməyə gətirilən şəxslər məhkəmə qərarından sonra müvafiq müəssisəyə köçürülməzdən öncə bölmədə koronavirus testindən keçirilir və cavablar gələnə qədər həmin bölmədə saxlanılır. Bu isə,

test cavablarının gecikməsi hallarında şəxsin müddətdən artıq saxlanılmasına gətirib çıxarır.

MPQ üzvləri tərəfindən *Xətai rayon Polis İdarəsinin Müvəqqəti Saxlama Yerinə* əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd Müvəkkilin ünvanına daxil olan müraciətin, habelə müəssisədə saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, saxlanılan şəxslərin daxili intizam qaydalarına və beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində müəssisənin bütün kameralarına və otaqlarına baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma, sovqat qəbulu, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Başçəkmə zamanı Ombudsmana müraciəti olan şəxslərlə konfidensial görüş keçirilmiş, hüquqlarının təmin olunması vəziyyəti araşdırılmışdır.

Ombudsmanın MPM fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən *Daxili İşlər Nazirliyinin İnzibati həbs olunanların saxlanma Mərkəzinə (İHOSM)* plandankənar başçəkmə həyata keçirilmişdir.

Müəssisədə saxlanma şəraiti, tibbi yardımın təşkili, qidalanma, habelə görüş, telefon danışığı, sovqat qəbulu, gəzinti ilə bağlı hüquqların təmini vəziyyəti və sənədləşmə araşdırılmış, bir sıra müraciətlər yerində təmin olunmuşdur.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı burada saxlanılan bir sıra şəxslər, o cümlədən ailə üzvlərinin müraciəti əsasında Z.S. qəbul edilərək konfidensial qaydada dinlənilmişdir.

Z.S.-nin Ombudsmana ünvanlanan ərizəsi qəbul edilmiş, onun müraciətində qeyd olunan halların araşdırılması və qanunamüvafiq tədbirlərin görülməsi üçün Ombudsman tərəfindən Baş Prokurorluğa və Daxili İşlər Nazirliyinə müraciət olunmuşdur.

Araşdırma zamanı Z.S.-nin DİN-in Hospitalında tibbi müayinələrdən keçirildiyi və ailə üzvü ilə görüşünün təmin edildiyi, müəssisədə onun hüquqlarının həyata keçirilməsi ilə bağlı çətinliyin olmadığı müəyyən edilmişdir.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla milli və beynəlxalq qanunvericilik əsasında hüquqi maarifləndirici söhbət aparılmış, müvafiq tövsiyələr verilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) İşgəncələr əleyhinə Milli Preventiv Mexanizm (MPM) mandatı çərçivəsində Daxili İşlər Nazirliyinin *Nəqliyyatda Baş Polis İdarəsinin Biləcəri Xətt Polis Şöbəsinin MSY-nə* əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində müəssisənin kameralarına və otaqlara, mətbəxə, gəzinti sahəsinə baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma, sovqat qəbulu, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Müəssisə rəhbərliyi ilə söhbət zamanı saxlanılan şəxslərin müvəqqəti saxlama yerinə qəbul edilərkən COVID-19 pandemiyası əleyhinə tibbi müayinədən keçirilməsinə ciddi riayət olunması və dezinfeksiyaedici vasitələrlə təmin edilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

*Gəncə şəhər Baş Polis İdarəsinin Müvəqqəti Saxlama Yerinə* planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanılan 22 nəfər təqsirləndirilən və inzibati qaydada həbs edilmiş şəxslə konfidensial şəraitdə görüşən MPQ-nin üzvləri onların saxlanma şəraiti, barələrində aparılan araşdırmalar zamanı polis əməkdaşlarının onlarla rəftarı, müəssisəyə daxil olarkən tibbi müayinədən keçirilmələri və ehtiyac olduqda tibbi yardımın göstərilməsi vəziyyəti, barələrində tərtib edilmiş sənədlərin qanuniliyi ilə maraqlanmışlar.

*MSY-ə başçəkmə zamanı bir kamerada ilk dəfə cinayət törətməkdə təqsirləndirilən 2 nəfərin əvvəllər cinayət törətməyə görə məhkum edilmiş şəxslərlə birlikdə saxlanıldığı müşahidə edilmişdir. Bu isə Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaların 2.31.3-cü bəndinin tələbi ilə ziddiyət təşkil edir.*

*Bundan başqa MSY-nin saxlama kameralarında divarların aşağı hissəsinin nəm çəkdiyindən cari təmirə ehtiyac olduğu müşahidə edilmişdir. Aşkar edilmiş nöqsanlarla bağlı müəssisənin rəhbərliyinin iştirakı ilə akt tərtib edilmiş, saxlanma şəraitinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.*

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən 2020-ci ildə *DİN-in Göygöl rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd, müəssisədə saxlanma şəraitinin və rəftarın, saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

*Başçəkmələr çərçivəsində saxlanma şəraiti ilə bağlı Göygöl RPŞ-nin MSY-nə ümumi baxış keçirilmiş, saxlama kameralarında və digər otaqlardakı şəraitin sanitar normalara uyğun, təmiz və səliqəli, saxlanılanların hüquq və azadlıqlarının təmin edilməsinə imkan verən şəraitdə olması müəyyən edilmişdir. MSY-nin gəzinti sahəsinə baxış zamanı həmin yerin üstünün bir hissəsinə yağıntılardan və günəş şüasından qorunmaq məqsədilə örtük vurulması, idmanla məşğul olmaq üçün ləvazimatlar quraşdırılması, görüş otağının televizorla təchiz edilməsi müşahidə olunmuşdur.*

Başçəkmələr zamanı MSY-də saxlanılan şəxslər qəbul edilmiş, onların saxlanma şəraiti, yaxınları ilə görüş, həkim müayinəsi, vəkil yardımının vəziyyəti və MSY-nin əməkdaşlarının saxlanılanlarla rəftarı araşdırılmışdır.

*Görüş zamanı saxlanılan şəxslər barələrindəki inzibati araşdırma zamanı vəkillə təmin edilmədiklərini bildirmişlər. Saxlanılan şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı vəkildən imtina ilə bağlı hər hansı qeyd və ya protokol aşkar olunmamışdır. Bu hal isə CPT standartlarına əsasən həbs edilmənin ilk saatlarından işgəncələrə qarşı əsas təminatlardan biri olan müdafiəçinin yardımından istifadə etməklə bağlı təminatın təşkil edilmədiyinə dəlalət edir və narahatedici məqam kimi qeyd olunmalıdır. Həmçinin Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 65.3-cü maddəsinə əsasən inzibati xəta haqqında iş üzrə icraat başlandığı vaxtdan müdafiəçi və nümayəndə inzibati xətalar haqqında işlər üzrə icraatda iştirak etməyə buraxılırlar. Törədilmiş inzibati xətaya görə fiziki şəxs barəsində inzibati qaydada tutma tətbiq edildiyi hallarda müdafiəçi həmin şəxs inzibati qaydada tutulduğu vaxtdan inzibati xəta haqqında iş üzrə icraatda iştirak etməyə buraxılır. Həmin məcəllənin 91.0.7-ci maddəsinə görə səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati qaydada tutulmuş şəxsin öz vəkili olmadıqda, ona müvəqqəti saxlama yeri üzrə ərazidəki vəkil qurumlarında fəaliyyət göstərən vəkillərin siyahısını təqdim etməli, seçilmiş vəkillə əlaqə saxlamaq və onunla görüşmək imkanı yaratmalıdır.*

*Lakin saxlanılan şəxsin şəxsi işinin içində vəkillə təmin edilmə və ya imtina barədə qeydlərin olmaması İnzibati Xətalar Məcəlləsinin qeyd olunan təminatlarının həyata keçirilməməsi barədə əsaslı şübhələr yaradır.*

*İlk başçəkmə zamanı MSY-də saxlanılan şəxslərdən İXM-nin 535.1-ci maddəsilə təqsirli bilinərək Göygöl Rayon Məhkəməsinin qərarı əsasında 10 (on) gün müddətinə inzibati qaydada həbs edilmiş M.T. şöbəyə gətirilərkən polis tərəfindən təzyiqlərə məruz qaldığını, növbətçi hissədə iki gün qanunsuz saxlandığını, MSY-də hamamdan istifadə etməyə icazə verilmədiyini, yaxınları tərəfindən gətirilən sovqatların ona tam çatdırılmadığını, içməyə çay verilmədiyini bildirərək köməklik göstərilməsini xahiş etmişdir. MPQ üzvləri tərəfindən saxlanılan şəxsin üzərinə vizual baxış zamanı hər hansı bir xəsarət izi müşahidə olunmamış və bu barədə saxlanılan şəxsin iştirakı ilə akt tərtib edilmiş, ona "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri izah edilmişdir.*

Göygöl RPŞ-nin MSY-nin qeydiyyat jurnallarına baxış zamanı inzibati qaydada həbs edilmiş həmin şəxsin şöbəyə gətirildiyi barədə, həmçinin MSY-də həkim müayinəsindən keçirilərkən həkim tərəfindən tibbi kitabçada xəsarətlərin olmaması barədə qeyd edildiyi müəyyən olunmuşdur.

Məsələ Göygöl RPŞ-nin xidmət işləri üzrə rəis müavininin diqqətinə çatdırılmış və mülahizələri öyrənilmişdir. Göygöl RPŞ-nin rəis müavini tərəfindən məlumat verilərək, "Koronavirus" pandemiyası ilə əlaqədar ehtiyat tədbirlərin görülməsi məqsədilə müəssisədə saxlanılan şəxslərin yaxınları ilə görüşlərin, sovqat və banderolların qəbulunun müvəqqəti olaraq dayandırıldığı, saxlanılan şəxslərin gündə 3 dəfə olmaqla normalara uyğun qaydada qida ilə və həftədə bir dəfə hamamla təmin edildiyi bildirilmişdir. Həmçinin saxlanılan şəxsin yemək və çay norması ilə bağlı şikayətinin nəzərə alınacağı və onun qida normasının artırılacağı bildirilmişdir. *Göygöl RPŞ-nin rəis müavini həmçinin inzibati qaydada həbs edilmiş şəxsin saxlanılarkən zorakılığa məruz qalması barədə qohumlarının Göygöl rayon prokurorluğuna etdikləri şikayətin araşdırılmaqda olduğunu bildirmişdir.*

*Sənədlərə və şəxsi işlərə baxış zamanı İXM-nin 528.1-ci maddəsilə təqsirli bilinərək Göygöl Rayon Məhkəməsinin qərarı əsasında 10 (on) gün müddətinə inzibati qaydada həbs edilmiş İ.A.-nın şəxsi işinin içindəki məhkəmə qərarının Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 11.06.2014-ci il tarixli qərarı ilə təsdiq edilmiş "İnzibati həbs olunanların Saxlanılma Məntəqələri haqqında Müvəqqəti Əsasnamənin 2.1.1-ci bəndinin tələbinə baxmayaraq gerbli möhürlə möhürlənməməsi müəyyən edilmiş, aşkar edilmiş nöqsanlarla bağlı MSY-nin rəisinə irad bildirilmiş, MSY rəisi tərəfindən məhkəmənin möhürlü qərarı şəxsi işə əlavə edilərək nöqsan aradan qaldırılmışdır.*

MPQ üzvləri tərəfindən Göygöl RPŞ-nin əməkdaşlarına müvafiq qanunvericiliyə, o cümlədən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununa, Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarına müvafiq şəkildə sənədləşmənin və saxlanma şəraitinin daha da təkmilləşdirilməsi, MSY əməkdaşlarının qanununvericiliklə bağlı məlumatlılığının artırılması üçün peşə hazırlığı dərslərində müvafiq mövzuların tədrisinə diqqətin artırılması ilə bağlı tövsiyələr verilmişdir.

*MSY-nin görüş otağına baxış zamanı həmin otaqda müşahidə kamerasının olması müşahidə edilmişdir. Bu hal MSY-də saxlanılan tutulmuş və ya həbs edilmiş şəxslərin vəkillə görüşlərinin konfidensiallığının pozulması kimi qiymətləndirilməlidir. Belə ki, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası qanununun 19.1-ci maddəsinə əsasən tutulmuş və ya həbs edilmiş şəxs tutulduğu və ya barəsində həbs qətimkan tədbiri seçilməsi haqqında qərar elan olunduğu andan görüşlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiəçisi və qanuni nümayəndəsi ilə təklikdə görüşə və konfidensial ünsiyyət saxlaya bilər. Həmçinin Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsasən həbs edilmiş şəxsin vəkillə*

*konfidensial şəraitdə danışmaq hüququ hüquqi yardım almaq hüququnun xüsusilə mühüm tərkib hissəsidir, belə ki, məsləhətləşmək və konfidensial təlimatlar almaq imkanı olmasa bu hüquq öz faydasının çox hissəsini itirmiş olar*[1].

*Ağstafa rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* planlı başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Ombudsman haqqında Konstitusiya Qanunu əsasında təşkil olunmuş başçəkmədə məqsəd yeni növ Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar müəssisədə saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, inzibati qaydada həbs edilmiş və təqsirləndirilən şəxslərin daxili intizam qaydalarına və beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində MSY-nin saxlanılma kameralarına, görüş otağına, gəzinti sahəsinə, mətbəxə, istintaq otağına, tibb otağına, ibadət otağına, inventar anbarına baxış keçirilmiş, həmçinin tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət yoxlanılmış və sənədləşmə araşdırılmışdır.

Başçəkmə zamanı Ağstafa RPŞ-nin MSY-də saxlanılan 8 nəfər şəxs təklikdə qəbul edilmiş və həmin şəxslərlə söhbət aparılmış, onların saxlanma şəraiti, polis əməkdaşlarının rəftarı və digər məsələlərlə maraqlanılmış, saxlanılmanın qanuniliyini təsdiq edən sənədlərə baxış keçirilmişdir. Başçəkmə zamanı Ağstafa RPŞ MSY-də Koronavirus pandemiyası ilə əlaqədar sanitar-gigiyenik qaydalara diqqət yetirildiyi, müəssisəyə gətirilən saxlanılan şəxslərdən tibb işçiləri tərəfindən COVID-19 testi üçün yaxmalar götürüldüyü, əməkdaşların tibbi maskalarla və dezinfeksiyaedici məhlullarla təmin edildiyi, mütəmadi olaraq dezinfeksiya tədbirlərinin davam etdirildiyi müəyyən edilmişdir.

*Bununla yanaşı saxlanılma şəraitinin təkmilləşdirilməsi üçün MSY-də cari təmir işlərinə ehtiyac olduğu müşahidə edilmişdir.*

*Daşkəsən rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* planlı başçəkmə həyata keçirilmişdir.

---

[1]Case of S. v. Switzerland, *(Application no. 12629/87; 13965/88)*, [48] https://hudoc.echr.coe.int/eng#{%22docname%22:[%22\%22CASE%20OF%20S.%20v.%20SWITZERLAND\%22%22],%22documentcollectionid2%22:[%22GRANDCHAMBER%22,%22CHAMBER%22],%22itemid%22:[%22001-57709%22]}

Case of Brennan v. The United Kingdom *(Application no. 39846/98)*, [58-63] https://hudoc.echr.coe.int/eng#{%22docname%22:[%22brennan%20v%20united%20kingdom%22],%22documentcollectionid2%22:[%22GRANDCHAMBER%22,%22CHAMBER%22],%22itemid%22:[%22001-59722%22]}

Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı Daşkəsən RPŞ-nin MSY-nin kameralarına, zəruri avadanlıq və dərman preparatları ilə təchiz edilmiş tibb şkafına, görüş yerinə, gəzinti sahəsinə, mətbəxə, istintaq, görüş, ibadət otaqlarına, inventar anbarına, mebel və avadanlıqla təchiz edilmiş mətbəxə və digər obyektlərə baxış keçirilmiş, qeyd edilən MSY-də şəraitin sanitar normalara uyğun, saxlanılanların hüquq və azadlıqlarının təmin edilməsinə imkan verən şəraitdə olması müəyyən edilmiş, habelə tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət yoxlanılmışdır.

Başçəkmə zamanı MSY-də saxlanılan 2 nəfər şəxs təklikdə qəbul edilmiş, onların saxlanma şəraiti və MSY-nin əməkdaşlarının rəftarı, habelə tibbi yardımın, yaxınları ilə görüşün, vəkil yardımının təmin edilməsinin vəziyyəti öyrənilmiş, saxlanılan şəxslər MSY-dəki şəraitdən və polis əməkdaşlarının onlarla rəftarından narazı olmadıqlarını bildirmişlər.

*Bununla yanaşı saxlanılan şəxslər barələrindəki inzibati araşdırma zamanı vəkillə təmin edilmədiklərini bildirmişdir. Saxlanılan şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı vəkildən imtina ilə bağlı hər hansı qeyd və ya protokol aşkar olunmamışdır. Daşkəsən RPŞ-dən qeyd olunan məsələ ilə bağlı bildirilmişdir ki, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs tərəfindən vəkildən imtina oluması barədə tərtib olunmuş protokol müvafiq məhkəmədə materialların içində saxlanılır və bu səbəbdən də saxlanılan şəxsin şəxsi işinin içində olmur.*

*Başçəkmə zamanı həmçinin MSY-nin qeydiyyat kitablarına baxış keçirilmiş, həmin kitablarda müvafiq qeydlərin aparıldığı müəyyən edilmiş, lakin "MSY-nin sovqat və banderolların qeydiyyatı" kitabında MSY-nə gətirilmiş sovqatların qeydə alınmadığı aşkar edilmişdir.*

Aşkar edilmiş nöqsan MSY rəhbərliyinin diqqətinə çatdırılmış, MSY rəisi qeyd olunan nöqsanı aradan qaldıracağını bildirmişdir.

*Goranboy Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* plandankənar başçəkmə həyata keçirilmişdir.

MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan 7 nəfər şəxs təklikdə qəbul edilmiş, onlarla söhbət aparılmış, saxlanma şəraiti, həkim nəzarəti, qidalanmaları, MSY-nin əməkdaşlarının onlarla rəftarı ilə maraqlanmış, saxlanılan şəxslər MSY-dəki şərait və rəftardan şikayət etməmişlər.

Bununla yanaşı saxlanılan şəxslər barələrindəki inzibati araşdırma zamanı vəkillə təmin edilmədiklərini bildirmişdir. Saxlanılan şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı vəkildən imtina ilə bağlı hər hansı qeyd və ya protokol aşkar olunmamışdır.

*Samux rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanılan 3 nəfər təklikdə qəbul edilmiş, onların saxlanma şəraiti və MSY-nin əməkdaşlarının onlarla rəftarı ilə maraqlanılmış, saxlanılan şəxslər MSY-dəki şəraitdən və polis əməkdaşlarının rəftarından, həkim müayinəsindən və yaxınları ilə görüşün verilməsindən şikayət etməmişlər. Bununla yanaşı 15 (on beş) gün müddətinə inzibati qaydada həbs edilmiş bir nəfər barəsindəki inzibati araşdırma zamanı vəkil yardımından imtina etdiyini desə də, onun şəxsi işinin içində vəkildən imtina barədə protokol müşahidə olunmamışdır.

*Başçəkmə zamanı müəssisənin əməkdaşları ilə MSY-də saxlanılan şəxslərin hüquqları, saxlanma şəraiti, qeydiyyat məsələləri, qidalanma və həkim nəzarəti ilə bağlı aparılan müzakirələr zamanı, saxlanılan şəxslərin gündəlik qida təminatı ilə bağlı Samux RPŞ-nin MSY-nin hər hansı yeməkxana ilə müqaviləsi olmadığından və polis şöbəsinin yeməkxanası olmadığından saxlanılan şəxslər üçün yeməyin təşkil edilməsinin RPŞ-nin əməkdaşlarının şəxsi vəsaitləri hesabına mümkün olduğu müəyyən edilmiş, həmin məsələ ilə bağlı MSY-nin rəisinin iştirakı ilə akt tərtib edilmişdir.*

Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş yemək və maddi-məişət normalarına uyğun olaraq keyfiyyət baxımından müasir gigiyena tələblərinə və qida normalarına cavab verən pulsuz yeməklə gündə üç dəfə təmin edilirlər. Həmin yeməklər hazırlanarkən tutulmuş və ya həbs edilmiş şəxslərin yaşı, sağlamlıq vəziyyəti və dini ənənələri nəzərə alınmalıdır.

*Şəmkir rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanılan 5 nəfər şəxs konfidensial şəkildə qəbul edilmiş, hüquqlarının təmin olunması vəziyyəti və rəftar məsələləri araşdırılmışdır. Saxlanılan şəxslər barələrindəki inzibati araşdırma zamanı vəkillə təmin edilmədiklərini bildirdilər. Saxlanılan şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı vəkildən imtina ilə bağlı hər hansı qeyd və ya protokol aşkar olunmamışdır.

*Başçəkmə zamanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarının 2.31.3-cü bəndinin tələbinə zidd olaraq Şəmkir RPŞ-nin MSY-nin kamerasında əvvəllər məhkum edilmiş şəxslə, ilk dəfə tutulmuş iki təqsirləndirilən şəxsin birlikdə saxlanıldığı müşahidə edilmişdir.*

*Bundan başqa kameralarda tutulmuş və həbs edilmiş şəxslərin hüquq və vəzifələri ilə bağlı məlumatlandırıcı materialların olmadığı müəyyən edilmiş*

*və aşkar edilmiş nöqsanlar MSY rəhbərliyinin diqqətinə çatdırılmaqla yerində aradan qaldırılmışdır.*

*Tovuz rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* planlı başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr zamanı ümumilikdə 14 nəfər şəxslə konfidensial görüş keçirilmişdir.

Başçəkmə zamanı Tovuz Rayon Polis Şöbəsinin müvəqqəti saxlama yerində Koronavirus pandemiyası ilə əlaqədar sanitar-gigiyenik qaydalara diqqət yetirildiyi, müəssisəyə gətirilən saxlanılan şəxslərdən tibb işçiləri tərəfindən COVID-19 testi üçün yaxmalar götürüldüyü, əməkdaşların tibbi maskalarla və dezinfeksiyaedici məhlullarla təmin edildiyi, mütəmadi olaraq dezinfeksiya tədbirlərinin davam etdirildiyi müəyyən edilmişdir. *Bununla yanaşı Tovuz RPŞ-nin müvəqqəti saxlama yerinə gətirilən saxlanılan şəxslərdən COVID-19 testi üçün götürülən yaxmaların cavablarının bir həftəyədək uzanmasının həbs edilmiş şəxslərin istintaq təcridxanasına köçürülməsi üçün qanunvericiliklə müəyyən edilmiş müddətə uyğun gəlmədiyindən çətinliklərə səbəb olduğu müəyyən edilmişdir.*

*Başçəkmə zamanı müəyyən olunmuş hallar nəzərə alınaraq müvəqqəti saxlama yerinə gətirilən saxlanılan şəxslərdən COVID-19 testi üçün götürülən yaxmaların cavablarının qısa müddətdə verilməsinin təmin olunması üçün TƏBİB-lə əməkdaşlıq edilməsi tövsiyə edilir.*

*Həmçinin başçəkmə zamanı Tovuz RPŞ-nin MSY-nin mətbəxində olan soyuducunun buz yerində qablaşdırılmamış və möhürlənməmiş vəziyyətdə tədqiqat üçün götürülmüş nümunələr olan inyeksiya vasitəsi olan şprisdə qan nümunəsinin saxlanılması aşkar edilmiş, aşkar edilmiş nöqsanla bağlı MPQ üzvləri tərəfindən MSY rəisinin iştirakı ilə akt tərtib edilmişdir.*

*Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 275.6-cı maddəsinə əsasən sənədlər istisna olmaqla, tədqiqat üçün götürülmüş nümunələr qablaşdırılmalı və möhürlənməlidir.*

*Lakin Tovuz RPŞ-nin müstəntiqi tərəfindən tədqiqat üçün götürülmüş qablaşdırılmamış və möhürlənməmiş nümunələrin Tovuz RPŞ-nin MSY-nin mətbəxində olan soyuducunun buz yerində saxlanılması həm qanunvericliyin tələbinin pozulması, həm də yemək və ərzaq məhsullarının saxlanılması üçün istifadə edilməli olan soyuducudan qan nümunələrinin saxlanılması üçün istifadə edilməsilə ərzaq təhlükəsizliyinin də pozulması kimi qəbul edilməlidir.*

*Cəlilabad Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* plandankənar başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı 28 nəfər saxlanılan şəxslə görüş olmuşdur. *Saxlanılan şəxslər ilkin dindirmə zamanı vəkillə təmin olunmadıqlarını, hüquqlarının onlara izah edilmədiyini, yaxın qohumlarına məlumat verilmədiyini və*

*müvafiq prosessual sənədlərin surətlərinin onlara təqdim edilmədiyini söyləmişlər.*

*Lənkəran Şəhər Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* plandankənar başçəkmələr həyata keçirilmişdir.

*İlk başçəkmə zamanı müəssisədə sıxlıq olduğu, 28 nəfər üçün nəzərdə tutulmuş MSY-də başçəkmə günü 37 nəfərin saxlanıldığı müşahidə edilmişdir.*

*Tutulma protokollarına baxış keçirilərkən saxlanılan şəxslərdən S.D.-nin tutulma protokolunda müdafiəçinin, V.R.-nin tutulma protokolunda isə özünün imzasının olmadığı müəyyən edilmişdir.*

*Digər bir şübhəli şəxs D.A.-nın sənədlərinə baxış keçirilərkən tutma və azadetmə ilə bağlı prosessual müddət pozuntusuna yol verildiyi müəyyən edilmiş, MPQ üzvlərinin müdaxiləsindən sonra həmin şəxs MSY-dən azad edilmişdir.*

Müəssisədə saxlanılan şəxslərin hər biri ilə söhbət aparılmış, hüquqları izah olunmuş, bəzilərinin Ombudsmana müraciətləri qəbul edilmişdir.

*Növbəti başçəkmə zamanı konfidensial olaraq qəbul edilən B.Ə. Lənkəran ŞRPŞ-ə gətirildikdən sonra ailə üzvləri ilə telefon əlaqəsinin və vəkili ilə görüşə icazənin verilmədiyini bildirmişdir.*

*Salyan rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* plan üzrə başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd tutulmuş və ya həbs edilmiş şəxslərin Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu və digər qanunlarla müəyyən edilmiş hüquq və azadlıqlarının təmin olunması, saxlanma şəraiti və rəftarın qiymətləndirilməsi, qidalanma və dərman təchizatı, tibbi xidmət və yoxlanılmalı olan digər məsələlərin dairəsinin müəyyənləşdirilməsindən ibarət olmuşdur.

Başçəkmələr çərçivəsində müəssisədə saxlanılan 13 nəfər şəxslə konfidensial söhbət aparılmış, saxlanma şəraiti və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələləri yerində araşdırılmışdır.

*Biləsuvar rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmə həyata keçirilmişdir. Başçəkmə çərçivəsində müəssisənin kamera və otaqlarına baxış keçirilmiş, saxlanılan şəxslərin saxlanılmalarının qanuniliyini təsdiq edən sənədlər yoxlanılmışdır.

Başçəkmə zamanı müəssisədə saxlanılan 10 nəfər şəxsin hər biri ilə söhbət aparılmış, hüquqları izah olunmuş, hüquqlarının təmin olunma vəziyyəti öyrənilmişdir. Söhbət zamanı müəyyən edilmişdir ki, saxlanılan şəxslər tutularkən vəkillə təmin edilməmiş, ailə üzvlərinə telefonla məlumat verilməmişdir.

*Qəbələ rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr zamanı ümumilikdə 11 nəfər şəxslə konfidensial görüş keçirilmişdir.

*Başçəkmə zamanı tibbi müayinə və tibbi yardımın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18.04.2013-cü il tarixli, 67 nömrəli qərarı ilə təsdiq edilmiş "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması qaydaları"nın 2.1-ci hissəsinə zidd olaraq Qəbələ rayon Mərkəzi Xəstəxanasının təcili tibbi yardım şöbəsinin feldşerləri tərəfindən həyata keçirildiyi müəyyən edilmişdir. Növbəti başçəkmələr zamanı bu halın aradan qaldırılmadığı müşahidə olunmuşdur.*

*Oğuz rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmələr həyata keçirilmişdir.

Həyata keçirilmiş başçəkmələrdə məqsəd saxlanma şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur. Başçəkmələr zamanı əsasən saxlanılan şəxsin olmadığı, yalnız bir halda bir nəfər saxlanılan şəxsin olduğu müşahidə edilmişdir. Həmin şəxslə konfidensial söhbət aparılmış, müəssisə əməkdaşlarının onunla rəftarı ilə bağlı hər hansı şikayət olmamışdır.

*Mingəçevir şəhər Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr zamanı ümumilikdə 13 nəfər şəxslə təkbətək söhbət aparılmış, saxlanma şəraiti və rəftarla bağlı hər hansı şikayət edilməmişdir.

Başçəkmə zamanı MSY-də keçirilən sanitar gigiyena tədbirlərinin qeydiyyatı kitabında tutulmuş və ya həbs edilmiş şəxsin (MSY-nin) sanitar vəziyyəti barədə qeydlərin aparılmadığı müşahidə edilmişdir.

*Qax rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmə həyata keçirilmişdir.

*Müəssisədə cari təmir işləri aparılsa da, MSY müvafiq standartlara uyğun deyildir. Burada ikinəfərlik və birnəfərlik kameraların ölçülərinin kiçik olduğu müəyyən edilmişdir. İkinəfərlik kameralarda sanitar qovşaqlar bir tərəfdən plastik materiallarla ayrılmışdır. Bir nəfərlik kameralarda isə sanitar qovşaqların ayrılması mümkün olmamışdır.*

*Zaqatala rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı 6 nəfər şəxslə təkbətək görüş keçirilmiş, saxlanma şəraiti və rəftarla bağlı söhbət aparılmışdır. Məhkəmənin qərarı ilə 10 gün müddətinə inzibati həbs edilmiş Z.Ş. yeməkdən imtina etdiyini, telefonla

danışığına maneə yaradıldığını desə də, onun şəxsi işinə baxış zamanı yeməkdən imtina etməsinin sənədləşdirilmədiyi müşahidə edilmişdir.

*Xızı Rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr çərçivəsində saxlanma şəraiti ilə bağlı MSY-nin tibbi-sanitar hissəsinə, saxlanma kameralarına, mətbəxə və digər inzibati otaqlara baxışlar keçirilmiş, habelə tibbi yardımın təşkili, qidalanma, içməli su, isti və soyuq su təminatı, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan 5 nəfər şəxs konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, qaldırdıqları məsələlər, sənədləşmə yerində araşdırılmışdır.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, müvafiq tövsiyələr verilmişdir.

*Qusar rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmələr həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"nın Fakultativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, habelə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr zamanı müəssisənin bütün kamera və otaqlarına baxış keçirilmiş, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, onlarla rəftar məsələlərinin araşdırılması məqsədilə 11 nəfər saxlanılan şəxslə konfidensial görüş olmuşdur.

*Xaçmaz rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmələr həyata keçirilmişdir.

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində həyata keçirilən başçəkmə çərçivəsində müəssisənin kamera və inzibati otaqlarına, tibb-sanitar hissəsinə, mətbəxinə baxış keçirilmişdir.

MPQ üzvləri tərəfindən ümumilikdə 15 nəfər saxlanılan şəxs konfidensial şəkildə qəbul edilmiş, hüquqlarının təmin olunması vəziyyəti, saxlanma şəraiti və rəftar məsələləri öyrənilmişdir.

*Sənədləşmənin araşdırılması zamanı aşkar edilmiş nöqsanla bağlı müvafiq akt tərtib edilmişdir. Belə ki, müəssisədə saxlanılan şəxsin başçəkmə keçirilən gündən 4 gün əvvəl istintaq təcridxanasına köçürülməsinə baxmayaraq, bu barədə qeydiyyat aparılmamışdır. Bundan başqa, saxlanılan*

*digər bir şəxsin başçəkmə günündən bir gün öncə müvafiq qərara əsasən azad olunmasına baxmayaraq uçot kitabında qeyd aparılmamışdır.*

Yekunda, müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, sənədləşmə ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

*Quba rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* həyata keçirilmiş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, habelə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən bu müəssisədə saxlanılan 6 nəfər konfidensial qaydada qəbul edilmiş, müəssisə əməkdaşlarının onlarla rəftarı, hüquqlarının təmin olunması məsələləri öyrənilmişdir.

*Şabran rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə* başçəkmələr həyata keçirilmişdir.

Qabaqcadan xəbərdarlıq edilmədən təşkil edilən planlı başçəkmələrdə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, habelə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Bu məqsədlə müəssisənin saxlanma kameralarına, tibb-sanitar hissəsinə, mətbəxə və digər otaqlara baxış keçirilmiş, tibbi yardımın təşkili, qidalanma, içməli su, isti-soyuq su təminatı, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə vəziyyəti öyrənilmiş, rəftar məsələlərinin araşdırılması məqsədilə ümumilikdə 14 nəfər saxlanılan şəxs qəbul edilmiş, müraciətləri dinlənilmişdir.

Başçəkmələrin yekununda müəssisə rəhbərliyi və əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, saxlanılan şəxslərin hüquqlarının təminatına və daxili intizam qaydalarının düzgün yerinə yetirilməsinə yönəlmiş tövsiyələr verilmişdir.

*İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsi (CPT) personalın təliminə böyük diqqət yetirir və saxlanılan şəxslərə pis rəftara qarşı ən yaxşı zəmanətin təlim görmüş polis olduğunu qeyd edir.*

*Bu baxımdan Müvəkkil DİN orqanlarının fəaliyyətində hüquqi maarifləndirmə işinin daha da genişləndirilməsini təklif edir.*

### 2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri

2020-ci il ərzində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin tabeliyində olan müəssisələrə 49 başçəkmə həyata keçirilmişdir.

Həyata keçirilmiş başçəkmələrdə məqsəd saxlanılan şəxslərlə rəftar, onların saxlanma şəraiti, görüş, telefon danışığı, tibbi yardımın təşkili,

qidalanma, geyim, havalandırma, istilik, müraciət etmək, hüquqi yardım almaq və digər hüquqlarının təmin olunma vəziyyətinin öyrənilməsi olmuşdur.

Penitensiar müəssisələrə başçəkmələr çərçivəsində saxlanılan şəxslərlə konfidensial görüş keçirilmiş, onlarla rəftar məsələri, saxlanma şəraiti, hüquqlarının təmini vəziyyəti araşdırılmışdır. Saxlanılan şəxslər tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər müvafiq qurumlar qarşısında qaldırılmışdır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və MPQ üzvləri tərəfindən Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin *3 saylı İstintaq Təcridxanasına* başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr çərçivəsində müəssisədə saxlanılan bir qrup şəxs, o cümlədən qida qəbulundan imtina etməsi ilə bağlı barəsində məlumat yayılmış Tofiq Yaqublu Ombudsman tərəfindən konfidensial qaydada qəbul olunmuşdur.

Qəbulda T.Yaqublu barəsində olan *cinayət işi və məhkəmə qərarından narazılığını* əsas göstərərək bu addımı atdığını qeyd etmişdir. Ombudsmanın Milli Preventiv Qrupunun həkim üzvünün də iştirak etdiyi qəbul zamanı ona səhhətində ciddi problem yaşamaması üçün qida qəbulunu bərpa etməsi ilə bağlı, müəssisə və tibbi-sanitar hissə rəhbərliyinə isə, onun səhhətinin həkim nəzarətində saxlanılması məqsədilə müvafiq tövsiyələr verilmişdir.

Qəbul çərçivəsində saxlanılan şəxslərə Ombudsmanın səlahiyyətləri barədə məlumat və qaldırdıqları məsələlər üzrə hüquqi məsləhətlər verilmiş, ərizələri qəbul olunmuş, bir sıra müraciətlər yerində təmin edilmişdir.

Ombudsmanın MPQ-nun üzvləri tərəfindən Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin *5 saylı Cəzaçəkmə Müəssisəsinə* başçəkmə həyata keçirilmişdir.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə zamanı müəssisənin tibb-sanitar hissəsinin təmir olunduğu, lakin cərimə təcridxanasının *əsaslı təmirə ehtiyac olduğu* müşahidə edilmişdir.

Məhkumların saxlanma şəraiti, rəftar məsələləri, qidalanma, tibbi yardım, telefon danışığı, görüş və digər hüquqlarının təmin olunması vəziyyəti yerində araşdırılmışdır. Fərdi və konfidensial qəbul zamanı məhkumların hüquqları, Ombudsmanın səlahiyyətləri və müvafiq qanunvericiliyin tələbləri izah edilmişdir.

Başçəkmə çərçivəsində Ombudsmana ünvanlanmış yazılı müraciətlər qəbul olunmuş, bir sıra müraciətlər yerində təmin edilmişdir.

Yekunda MPQ üzvləri tərəfindən müəssisənin rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbət aparılmış, habelə saxlanma

şəraitinin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

MPQ-nin üzvləri tərəfindən Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin *6 saylı Cəzaçəkmə Müəssisəsinə* başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə bir sıra məhkumlarla fərdi görüş keçirilmiş, müraciətləri dinlənilmişdir.

Qida qəbulundan imtina etdiyini vurğulayan E.S *Ali Məhkəmənin qərarından narazı olduğunu* bildirmiş, ona hüquqları izah olunmuş və müraciət etməsi üçün imkanlar təmin edilmişdir.

MPQ üzvləri tərəfindən Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin *9 saylı Cəzaçəkmə Müəssisəsinə* başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd müraciətləri əsasında, habelə təsadüfi seçim əsasında məhkumların qəbulu və müraciətlərinin dinlənilməsi olmuşdur.

Başçəkmənin yekunda MPQ üzvləri tərəfindən müəssisənin rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə əsaslanan müvafiq tövsiyələr verilmişdir.

Ombudsman tərəfindən Milli Preventiv Mexanizm mandatı çərçivəsində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin *Bakı İstintaq Təcridxanasına* başçəkmə həyata keçirilmişdir.

Ombudsman başçəkmə gedişində istintaq təcridxanasında saxlanılan şəxslərin həmin gün orada olan ailə üzvləri, yaxınları ilə də görüşmüş, müraciətlərini dinləmişdir.

Başçəkmə çərçivəsində müəssisədə saxlanılan bir çox təqsirləndirilən şəxs, o cümlədən barəsində olan cinayət işi mediada geniş müzakirə olunan İlkin Süleymanov da Ombudsman tərəfindən konfidensial qaydada qəbul olunmuş, onunla rəftar məsələləri, istintaq təcridxanasında saxlanma şəraiti, qidalanma, tibbi yardım, telefon danışığı, görüş və digər hüquqların təmin olunması vəziyyəti araşdırılmışdır.

Milli Preventiv Qrupun üzvlərinin, o cümlədən ixtisasca hakim üzvünün də iştirak etdiyi başçəkmə zamanı saxlanılan şəxslərə hüquqları, eləcə də müvafiq qanunvericiliyin tələbləri izah edilimiş, Ombudsmana ünvanlanmış müraciətləri qəbul olunmuş, bəzi saxlanılan şəxslər tərəfindən barələrində aparılan istintaqla bağlı qaldırılan məsələlər üzrə hüquqi məsləhətlər verilmiş, bir sıra müraciətlər isə yerində təmin edilmişdir.

Yekunda Ombudsman tərəfindən müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbət aparılmış, milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə həbs yerində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmini, saxlanma şəraiti ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

İnsan Hüquqları üzrə Müvəkkil Səbinə Əliyeva tərəfindən Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin *Bakı İstintaq Təcridxanasına* növbəti başçəkmə həyata keçirilmişdir.

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmə çərçivəsində müəssisədə saxlanılan bir neçə təqsirləndirilən şəxs, o cümlədən Fuad Qəhrəmanlı və Seymur Əhmədov konfidensial qaydada qəbul olunmuş və onların müraciəti dinlənilmişdir.

F.Qəhrəmanlının vəkilinin müraciəti yerində araşdırılmış, o və S.Əhmədovun saxlandıqları müddətdə onlarla rəftar və saxlanma şəraiti ilə bağlı müraciətləri dinlənilmişdir.

Başçəkmə çərçivəsində Ombudsmana ünvanlanmış müraciətlər qəbul olunmuş, saxlanılan şəxslər tərəfindən barələrində aparılan istintaqla bağlı qaldırılan məsələlər üzrə hüquqi məsləhətlər verilmiş, bir sıra müraciətlər yerində təmin edilmişdir.

MPQ üzvləri tərəfindən *Bakı İstintaq Təcridxanasına* (BİT) keçirilmiş növbəti başçəkmə çərçivəsində müəssisədə saxlanılan bir çox təqsirləndirilən şəxs, o cümlədən Fuad Qəhrəmanlı, Məmməd İbrahim, Asif Yusifli, Bəxtiyar İmanov, Ayaz Məhərrəmov, Telman Seyfullayev, Seymur Əhmədov, İsmayıl Həsənov, Fərid Abadov, Ceyhun Novruzov, Məhəbbət Nağıyev konfidensial qaydada qəbul olunmuş və onların müraciətləri dinlənilmişdir. Qəbul edilmiş şəxslər müəssisə əməkdaşlarının rəftarından narazılıq etməmiş, saxlanılma şəraiti ilə bağlı qaldırdıqları bir sıra məsələlər yerində araşdırılmış, bəzi müraciətlər yerində təmin edilmişdir. Onlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, o cümlədən, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, bəzilərinin təqdim etdiyi yazılı ərizələr qəbul edilmişdir.

Müraciətlər əsas etibarilə istintaqın gedişindən olmuşdur.

Ombudsmanın MPM mandatı çərçivəsində keçirilən növbəti başçəkmə çərçivəsində BİT-də saxlanılan bir neçə təqsirləndirilən şəxs, o cümlədən qida qəbulundan imtina edən Əfqan Sadıqov konfidensial qaydada qəbul olunmuş və onların müraciəti dinlənilmişdir.

Qəbulda Əfqan Sadıqov barəsində olan *cinayət işi və məhkəmə qərarından narazılığını* əsas göstərərək bu addımı atdığını qeyd etmişdir.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi qəbul zamanı ona səhhətində ciddi problem yaşamaması üçün qida qəbulunu bərpa etməsi ilə bağlı, müəssisə və tibbi-sanitar hissə rəhbərliyinə isə onun səhhətinin həkim nəzarətində saxlanılması məqsədilə müvafiq tövsiyələr verilmişdir.

Eyni zamanda qeyd olunmalıdır ki, mütəmadi olaraq BİT-in rəhbərliyi və bu müəssisənin Tibb-sanitar hissəsi ilə əlaqədə həmin şəxsin səhhəti nəzarətdə saxlanılmış, ailə üzvlərinə bu barədə məlumat verilmişdir.

Təqsirləndirilən şəxslərlə rəftar məsələləri, saxlanılma şəraiti, qidalanma, tibbi yardım, telefon danışığı, görüş və digər hüquqların təmin olunması vəziyyəti yerində araşdırılmışdır.

Bu başçəkmə zamanı da qəbul edilmiş müraciətlər əsas etibarilə istintaqın gedişi ilə əlaqədar olmuşdur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) MPM fəaliyyəti çərçivəsində *Penitensiar Xidmətin Həbsxanasına* başçəkmə həyata keçirmişdir.

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmə çərçivəsində müəssisənin cərimə təcridxanasına, sanitar-tibb hissəsinə, yeməkxanaya, mətbəxə, görüş və karantin otaqlarına, habelə digər obyektlərə baxış keçirilmişdir.

Məhkumların saxlanma şəraiti, rəftar məsələləri, qidalanma, tibbi yardım, telefon danışığı, görüş və digər hüquqlarının təmin olunması vəziyyəti yerində araşdırılmışdır. Fərdi və konfidensial qəbul zamanı məhkumlara, o cümlədən ömürlük azadlıqdan məhrum edilmiş şəxslərə hüquqları, Ombudsmanın səlahiyyətləri və müvafiq qanunvericiliyin tələbləri izah edilmişdir.

Başçəkmə çərçivəsində Ombudsmana ünvanlanmış yazılı müraciətlər qəbul olunub, bir sıra müraciətlər yerində təmin edilmişdir.

Yekunda müəssisənin rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır, habelə saxlanma şəraitinin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Ombudsman tərəfindən Milli Preventiv Mexanizm qismində fəaliyyəti çərçivəsində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin *Müalicə Müəssisəsinə* başçəkmə həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Ombudsman haqqında Konstitusiya Qanunu əsasında təşkil olunmuş başçəkmədə məqsəd Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin, saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, burada müalicə olunan məhkumların hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində Ombudsman müəssisənin müalicə korpuslarına və şöbələrinə, palatalara baxış keçirmiş, xəstələrin vəziyyəti ilə maraqlanmış, onları fərdi dinləmiş, saxlanma şəraiti, tibbi yardımın təşkili, dərman

təminatı, qidalanma, sovqat, gəzinti, görüş, telefon danışıqları ilə bağlı mövcud vəziyyəti araşdırmışdır.

Fərdi qəbul və görüş zamanı bir sıra məhkumlar barələrindəki istintaq və məhkəmə icraatından şikayətlənmişdir. Qəbul edilmiş hər bir şəxsə hüquqi məsləhətlər verilmiş, yerində həlli mümkün olan bir çox müraciət təmin olunmuşdur. Müvəkkil qaldırılan məsələlərin həlli istiqamətində səlahiyyətləri çərçivəsində yardımçı olacağını bildirmişdir.

Milli Preventiv Qrupunun nümayəndələrinin, o cümlədən ixtisasca həkim üzvünün də iştirak etdiyi başçəkmə çərçivəsində əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyəti də araşdırılmışdır. Müəssisədə *effektiv psixoloji və sosial xidmətlərin təşkilinə ehtiyac* olduğu müşahidə olunmuşdur.

Başçəkmə zamanı söhbət aparılan şəxslər bu müəssisədə saxlanma şəraitindən, əməkdaşların onlarla rəftarından və göstərilən tibbi xidmətdən şikayət etməmişlər.

Saxlanılan şəxslər onların hüquqlarını diqqətdə saxladığına və vəziyyətləri ilə maraqlandığına görə Müvəkkilə minnətdarlıqlarını bildirmişlər.

Yekunda Müvəkkil tərəfindən müəssisə rəhbərliyi, həkim personalı və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən Avropa Penitensiar Qaydalarına müvafiq şəkildə tibbi xidmətin əlçatanlığının effektiv təmininə nəzarətin gücləndirilməsi, müəssisəyə qəbul məsələləri ilə bağlı müraciətlərdə yer alan çətinliklərin aradan qaldırılması və saxlanma şəraitinin təkmilləşdirilməsi ilə əlaqədar müvafiq tövsiyələr verilmişdir.

Başçəkmənin nəticəsi və qəbul olunmuş ərizələrlə əlaqədar aidiyyəti qurumlara müraciət olunmuşdur.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin *İxtisaslaşmış Müalicə Müəssisəsinə* başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində burada saxlanılan bir çox məhkum konfidensial qaydada qəbul olunmuş, müraciətləri dinlənilmişdir.

Qəbul edilmiş şəxslərə hüquqları, müvafiq qanunvericiliyin tələbləri, o cümlədən, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, bəzilərinin təqdim etdiyi yazılı ərizələr qəbul edilmişdir. Müraciətlər əsas etibarilə istintaqın gedişindən olmuşdur.

Qəbul edilmiş şəxslərdən bir məhkum barəsində aparılan istintaqın gedişindən narazılığını əsas göstərərək yemək qəbulundan imtina etdyini bildirmiş, eyni zamanda, səhhətindən şikayətlənmişdir.

Qeyd olunmalıdır ki, Ombudsmanın əvvəlki dövrdə verdiyi tövsiyə əsasında müəssisədə tibbi xidmətin əlçatanlığı təmin edilməklə 24 saat ərzində həkim nəzarəti təşkil olunub, psixoloq konsultasiyaları da aparılır.

Yekunda MPQ üzvləri tərəfindən müəssisənin rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə əsaslanan müvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin *17 saylı Cəzaçəkmə Müəssisəsinə* başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd qida qəbulundan imtina etməsi barədə məlumatlar yayılan məhkum Ə.V.-nin qəbulu olmuşdur.

Cəza çəkdiyi müəssisənin dəyişdirilməsi tələbini əsas göstərərək qida qəbulundan imtina etdiyini qeyd edən Ə.V. fərdi qəbul olunmuş, ona hüquqları izah olunmaqla müraciəti qəbul edilmişdir. Qəbul edilmiş şəxs müəssisə əməkdaşlarının rəftarından narazılıq etməmişdir.

*Şəki Penitensiar Müəssisəsinə* il ərzində iki başçəkmə həyata keçirilmişdir.

İlk başçəkmə COVID-19 pandemiyası dövründə saxlanılan şəxslərin hüquqlarının təmini, habelə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinin araşdırılması məqsədilə keçirilmişdir.

Növbəti başçəkmədə isə, məqsəd saxlanma şəraiti və rəftarın araşdırılması, müəssisədə saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

İstintaq və cərimə təcridxanalarına baxış zamanı bir sıra nöqsanlar aşkarlanmışdır. Əsas nöqsanlardan biri sıxlıqla bağlı olmuşdur. Belə ki, başçəkmə keçirilən gün 170 yerlik istintaq təcridxanasında 220 nəfərin, 6 nəfərlik kameralarda 8 nəfərin saxlanıldığı müşahidə edilmişdir.

Yataq ləvazimatlarının çirkli, bir hissəsinin isə yarasız vəziyyətdə olduğu müşahidə edilmişdir. Halbuki istintaq təcridxanalarının daxili intizam qaydalarının 5.6-cı bəndinə əsasən yataq ləvazimatları (mələfə, balışüzü, adyal, adyalüzü, əl-üz dəsmalı) həftədə bir dəfədən az olmayaraq dəyişdirilməlidir. Saxlanılan şəxslər konfidensial söhbət zamanı yataq ləvazimatlarının uzun müddətdir dəyişdirilmədiyini bildirmişlər.

İstintaq təcridxanasının 3-cü korpusunun 7 saylı kamerasında saxlanılan, CM-nin 150.3.3.-cü maddəsi ilə təqsirləndirilən, yetkinlik yaşına çatmayan 01.12.2005-ci il təvəllüdlü O.M.-un İstintaq təcridxanalarının daxili intizam qaydalarının 5.11.2-ci maddəsinə zidd olaraq yetkinlik yaşına çatmış şəxslərlə birgə saxlanıldığı müəyyən edilmişdir.

Penitensiar Xidmətin *2 saylı İstintaq Təcridxanasına* planlı və plandankənar başçəkmələr keçirilmişdir.

Başçəkmələr zamanı müəssisənin bütün korpuslarına və həmin korpusların gəzinti sahələrinə, telefon danışıq məntəqələrinə, sovqatların qəbulu məntəqəsinə, qısa və uzun müddətli görüş otaqlarına, onlayn qaydada

qəbul keçirilməsi üçün xüsusi avadanlıqla təchiz edilmiş otağa, mətbəxə, ticarət köşkünə, hamama, tibb-sanitar hissəyə, cərimə təcridxanasına, həbs edilmiş şəxslərin və məhkumların köçürülməsi üçün nəzərdə tutulmuş xüsusi avtomobillərə baxış keçirilmiş, buradakı mövcud şərait monitorinq edilmişdir.

Sovqatların qəbulu məntəqəsində istintaq təcridxanalarının daxili intizam Qaydalarının 9.2-ci bəndinin tələblərinə uyğun olaraq sovqatların qəbulu, görüşlərin təqdimetmə qaydaları, həbs edilmiş şəxslərə verilməsi və ya ötürülməsi, sovqatlarda gətirilməsi, bağlama və banderollarda göndərilməsi qadağan olunmuş əşyaların siyahısı barədə məlumat, habelə bu siyahıda göstərilən əşyaların yoxlamadan gizlətməklə və ya hər hansı digər üsulla verilməsi (göndərilməsi və ya ötürülməsi) ilə bağlı məsuliyyət müəyyən edən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddəsinin və digər normativ hüquqi aktların mətni, habelə həmin otaqların iş rejimi və vətəndaşların qəbul günləri barədə məlumat lövhələri mövcud olsa da, həmin lövhələrin vətəndaşların görə bilmədiyi yerdən asıldığı müəyyən edilmişdir.

Bu qaydaların 9.4-cü bəndinin tələblərinə baxmayaraq müəssisədə sovqat qəbulu zamanı 3 nüsxəli ərizə doldurulmalı olduğu halda doldurulmadığı, yalnız 1 nüsxə ilə kifayətlənildiyi, eyni zamanda sovqatların qəbulu otağında İstintaq təcridxanalarının daxili intizam qaydalarına 4 nömrəli əlavənin tələblərinə baxmayaraq dərman vasitələri ilə təchiz edilmiş qutunun olmadığı müəyyən edilmişdir.

Qısa müddətli görüş otaqları ilə tanışlıq zamanı həmin otaqların İstintaq təcridxanalarının daxili intizam qaydalarının 19.13-cü bəndinə uyğun olaraq zəruri inventarla (su qrafini, stəkan, divar saatı, paltarasan) təchiz olunmadığı (11 nömrəli əlavə) müəyyən edilmişdir. Uzun müddətli görüş otağında isə inventarların köhnə, otağın isə natəmiz olduğu müşahidə edilmişdir.

İstintaq Təcridxanasının III korpusunda yerləşən ilk dəfə təcridxanaya gətirilən şəxslərin saxlanıldığı 56 nömrəli karantin otağına baxış zamanı kameranın sanitar-gigiyena tələblərinə cavab vermədiyindən əsaslı təmirə ehtiyac olduğu, döşəmənin betondan olduğu, istilik üçün hər hansı bir vasitə ilə təmin edilmədiyi müşahidə edilmişdir.

Təcridxananın III korpusunda yerləşən 57 nömrəli kameraya baxış zamanı buranın döşəməsinin betondan olduğu müəyyən edilmişdir. Daxili intizam qaydalarının 3.2-ci bəndinə əsasən isə kameraların döşəmələri taxta və yaxud metlax ilə örtülməlidir.

Cərimə təcridxanasındakı 72 və 73 nömrəli kameralarda isitmənin, həmçinin 73 nömrəli cərimə kamerasında döşək ağının olmadığı müəyyən edildi. Telefon danışığı məntəqələri ilə tanışlıq zamanı, daxili intizam

qaydaları ilə nəzərdə tutulmuş telefon danışığı uçotu vərəqəsinin olmadığı müəyyən edilmişdir.

Bundan başqa müəssisədə psixoloji yardım kabinetinin olmadığı müəyyən edilmişdir. Psixoloji və sosial xidmətlərin təşkilinə, təsərrüfat sahəsində cəza çəkən məhkumlara ünvanlanan fərdi iş əsasında yeni yanaşmalarla islah işinin genişləndirilməsinə və təşviqinə ehtiyac var.

Avropa Penitensiar Qaydalarının 41.5-ci bəndinə əsasən hər bir məhbusun ixtisaslı diş və göz həkiminin xidmətindən istifadə imkanı olmalıdır. Lakin təcridxanada göz həkiminin olmaması bu imkanı istisna edir.

Müəssisənin II korpusunun 24-cü kamerasında 1 nəfər yetkinlik yaşına çatmayan şəxsin, 3 nəfər yetkinlik yaşına çatmış şəxslərlə birgə saxlanıldığı müşahidə edimişdır. Daxili İntizam Qaydalarının 5.11.2-ci bəndinin tələbləri, saxlanılma qaydaları pozulduğundan bu barədə təcridxana rəhbərliyinin mülahizələri öyrənilmiş, yetkinlik yaşına çatmayanın hərəkətlərinə nəzarət edilməsi və tək qalmaması üçün bu cür saxlanılmanın tətbiq olunduğu bildirilsə də, pozuntunun yerində aradan qaldırılması təmin edilmişdir.

Qeyd etmək lazımdır ki, 2 saylı istintaq təcridxanasının rəhbərliyinin yetkinlik yaşına çatmayanların tək saxlanılmaması üçün digərləri ilə birgə saxlanılmasına dair izahı əsaslı olmamışdır.

Avropa Penitensiar Qaydalarının 35.4-cü bəndinə əsasən yetkinlik yaşına çatmayanlar penitensiar müəssisələrdə saxlandıqda, onların maraqlarına zidd olmayan hallar istisna olmaqla, yaşlı məhbuslardan ayrı saxlanılırlar.

Başçəkmə zamanı Ombudsmanın MPQ üzvləri tərəfindən təcridxananın korpuslarındakı müxtəlif kameralarında yer örtüyünün betondan olması, sıxlığın olması istilik üçün vasitənin olmaması, sanitar qovşağın xarab olması, döşəkağının evdən gətirildiyi, əvvəllər azadlıqdan məhrum edilmişlərlə ilk dəfə tutulanların bir yerdə saxlanılması kimi nöqsan və çatışmazlıqlar aşkar edilmişdir.

Cərimə təcridxanasında saxlanılanların qeydiyyatı jurnalına baxış keçirilmiş, müəyyən edilmişdir ki, 2020-ci ilin ilk ayı ərzində 11 nəfər şəxsə cərimə otağında keçirilmə tənbeh tədbiri tətbiq edilib. Avropa Penitensiar Qaydalarının 60-cı maddəsinə əsasən intizam pozuntusuna görə tətbiq edilən istənilən tənbeh qanuna uyğun olmaqla yanaşı, tənbehin ciddiliyi pozuntuya mütənasib olmalıdır. Həmçinin təksaxlama tənbeh tədbiri kimi yalnız müstəsna hallarda və imkan daxilində, mümkün qədər qısa və konkret müddətdə istifadə edilə bilər. Lakin təcridaxanada ay ərzində 11 dəfə cərimə otağında keçirilmə tənbeh tədbiri tətbiq edilməsinin saxlanılanlarla rəftar baxımından narahatlıq doğuran hal kimi qiymətləndirilir.

Təcridxananın istintaq və vəkillə görüş üçün nəzərdə tutulmuş otaqları ilə tanışlıq zamanı həmin otaqlarda nəzarət məqsədi ilə video kamera

quraşdırıldığı müşahidə olundu. Bu hal vəkillə görüşün konfidensiallığının pozulması kimi qiymətləndirilməlidir. Belə ki, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 19.1-ci maddəsinə əsasən tutulmuş və ya həbs edilmiş şəxs tutulduğu və ya barəsində həbs qətimkan tədbiri seçilməsi haqqında qərar elan olunduğu andan görüşlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiəçisi və qanuni nümayəndəsi ilə təklikdə görüşə və konfidensial ünsiyyət saxlaya bilər. Həmçinin Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsasən həbs edilmiş şəxsin vəkillə konfidensial şəraitdə danışmaq hüququ hüquqi yardım almaq hüququnun xüsusilə mühüm tərkib hissəsidir, belə ki, məsləhətləşmək və konfidensial təlimatlar almaq imkanı olmasa bu hüquq öz faydasının çox hissəsini itirmiş olar. (AİHM, S. İsveçrəyə qarşı, ərizələr № 12629/87 və 13965/88, 28 noyabr 1991-ci il, 48-ci bənd. Həmçinin bax: AİHM, Brennan Birləşmiş Krallığa qarşı, ərizə № 39846/98, 16 oktyabr 2001-ci il, 58-63- cü bəndlər.)

Saxlanılan şəxsə xüsusi vasitə olan əl qandalının uzun müddət ərzində (7 gün) tətbiqi bu tədbirin mövcud vəziyyətə adekvatlığı və zəruri olması haqqında kifayət qədər şübhələr yaratdığından bu hal qeyri-insani rəftar baxımından narahetdici məqam kimi qeyd edilməlidir.

Təcridxananın tibb-sanitar hissəsinə baxış zamanı Daxili intizam qaydalarının tələblərinə baxmayaraq təhlükəsizlik məqsədilə birnəfərlik kameraya köçürülmüş şəxslərin gündəlik tibbi müayinəsi haqqında qeydiyyatın aparılmadığı, belə qeydiyyatın ancaq cərimə edilərək birnəfərlik kameraya köçürülmüşlər barəsində aparıldığı müəyyən olunmuşdur.

İstintaq Təcridxanasının rəhbərliyi tərəfindən cərimə təcrdixanasına başçəkmələrin qeydiyyatı kitabı ilə tanışlıq zamanı bu kitabda sonuncu qeydiyyatın başçəkmənin keçirildiyi tarixdən 3 gün əvvəl aparıldığı müşahidə olunmuşdur. Halbuki İstintaq təcridxanalarının daxili intizam Qaydalarının 35.1-ci bəndinə əsasən istintaq təcridxanalarının rəisləri, onların müavinləri, xidmət sahələrinin rəisləri, böyük inspektorlar (rəisin növbətçi köməkçiləri), tibb-sanitariya hissəsinin tibb işçiləri hər gün cərimə təcridxanasına və birnəfərlik kameralara baş çəkirlər və bu barədə qeydlər aparırlar. İstintaq təcridxanalarının rəhbərliyi tərəfindən həbs edilmiş şəxslərin saxlanma şəraiti yoxlanılır, ehtiyacı olan şəxslərə tibbi yardım göstərilməsi, müəyyən edilmiş nöqsanların aradan qaldırılması və həbs edilmiş şəxslərin əsaslı şikayətlərinin təmin edilməsi üçün tədbirlər görülür. Bu barədə müvafiq şəxslər tərəfindən xüsusi jurnalda və həbs edilmiş şəxslərin tibb kitabçasında qeydlər aparılır. Sonuncu qeydin başçəkmə tarixindən 3 gün əvvəl olması İstintaq Təcridxanasının rəhbərliyinin hər gün cərimə təcridxanasına və birnəfərlik kameralara baş çəkməsi vəzifəsinə tam riayət olunmadığını göstərir ki, bu hal

da həmin kameralarda saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmini vəziyyətinin səmərəli şəkildə nəzarətdə saxlanıldığını istisna edir.

Başçəkmələr zamanı saxlanılan şəxslərlə konfidensial görüş keçirilmiş, saxlanma şəraiti və rəftar, hüquqlarının təmin olunması vəziyyəti öyrənilmişdir. Qəbul edilən şəxslərin əksəriyyəti istintaqın qeyri-obyektiv aparılmasından, bir neçə məhkum isə müəssisə əməkdaşlarının onlarla rəftarından şikayət etmişdir.

Qəbul edilən şikayətlərlə bağlı müvafiq orqanlara sorğular göndərilmişdir.

Qeyd edilənlər nəzərə alınaraq 2 saylı istintaq təcridxanasının mövcud şəraitinin beynəlxalq və ölkədaxili qanunvericiliyin tələblərinə əsasən cavab vermədiyi, əksər kameralarda mövcud şəraitin saxlanılan şəxslərin hüquq və azadlıqlarının tam təmin edilməsinə imkan vermədiyi müəyyən edildiyindən həmin şəraitin və qeyd edilmiş digər nöqsanların aradan qaldırılması, həmçinin Gəncə şəhərində müasir tələblərə cavab verən yeni penitensiar kompleksin tikintisinin sürətləndirilməsi zəruridir.

2020-ci il ərzində *Penitensiar Xidmətin qadın məhkumlar üçün nəzərdə tutulmuş 4 saylı cəzaçəkmə müəssisəsinə* də ardıcıl başçəkmələr həyata keçirilmişdir. Ombudsman və onun MPQ üzvləri tərəfindən təşkil edilmiş başçəkmələr zamanı burada saxlanılan bir sıra şəxslərlə görüş keçirilmiş, müraciətləri qəbul edilmişdir.

Müəssisəyə növbəti başçəkmə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə həyata keçirilmişdir. Burada körpəsi olan məhkum analar üçün nəzərdə tutulmuş yaşayış sahəsinə baxış keçirilmiş, saxlanma şəraiti və rəftarla bağlı məsələlər araşdırılmışdır. Saxlanılan şəxslərlə Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində məhkumların hüquqlarının müdafiəsi istiqamətində fəaliyyət barədə söhbətlər aparılmış, onlara hüquqları, Ombudsmanın səlahiyyətləri izah edilmişdir.

İl ərzində, eləcə də əlamətdar günlər ərəfəsində *Penitensiar Xidmətin yetkinlik yaşına çatmayanlar üçün Tərbiyə Müəssisəsinə* də başçəkmələr həyata keçirilmişdir. Ombudsman və onun MPQ üzvləri tərəfindən keçirilmiş başçəkmələrdə burada mövcud saxlama şəraiti və rəftar, uşaqların hüquqlarının təmin olunma vəziyyəti araşdırılmışdır. Başçəkmələr zamanı rəftar məsələlərinin araşdırılması məqsədilə uşaqlarla konfidensial söhbət aparılmış, müraciətləri qəbul edilmişdir.

### 2.2.3. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri

DTX-nin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasına Ombudsman və onun MPQ-nin üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması, müəssisədə saxlanılan şəxslərlə rəftar, qidalanma, sənədləşmənin aparılması, tibbi xidmətin əlçatanlığı və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Müəssisədə başçəkmələrin effektiv həyata keçirilməsi üçün müvafiq şərait yaradılmışdır. Başçəkmələr zamanı saxlanma şəraiti, qidalanma, ərzaq təminatı araşdırılmış, bu məqsədlə həmin müəssisənin kameralarına, mətbəx və ərzaq anbarına baxış keçirilmiş, habelə tibbi yardım, gəzinti, telefon danışığı, hüquqi yardım və digər hüquqların təminatı vəziyyəti yoxlanılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı baxış keçirilmiş kameralarda saxlanılan şəxslərlə təkbətək qaydada görüşlər keçirilmiş, müraciətləri dinlənilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, Ombudsmanın səlahiyyətləri və qanunvericiliyin tələbləri izah olunmuşdur. Qəbul edilmiş şəxslər Müvəqqəti saxlama yeri və istintaq təcridxanasının əməkdaşlarının onlarla rəftarından və müəssisədə saxlanma şəraitindən, qidanın keyfiyyətindən, gəzinti və tibbi xidmətdən şikayət etməmişlər.

Müəssisəyə növbəti başçəkmələr zamanı digər şəxslərlə yanaşı, həmin dövrdə bu müəssisdə olan Ermənistandan olan həbs edilmiş şəxslər də fərdi qaydada qəbul olunmuş, müraciətləri dinlənilmiş, onlara hüquqları və müraciət mexanizmləri ilə bağlı öz dillərində qanunvericilik aktları təqdim edilməklə hüquqları izah olunmuşdur.

Milli Preventiv Qrupunun həkim və psixoloq üzvünün iştirakı ilə keçirilən başçəkmə zamanı hər hansı bir fərq qoyulmadan lazımi tibbi-psixoloji xidmətin təmin olunduğu, beynəlxalq humanitar hüquq normalarına, xüsusilə də Cenevrə Konvensiyalarının müddəalarına riayət edildiyi müşahidə olunmuşdur. Bu şəxslər onlarla rəftardan və saxlanma şəraitindən, tibbi xidmətdən, qidalanmadan, humanist münasibətdən razılıq etmişlər.

Həyata keçirilmiş başçəkmələrin yekununda müəssisə rəhbərliyi ilə milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı müzakirələr aparılmış və müvafiq tövsiyələr verilmişdir.

### 2.2.4. Müdafiə Nazirliyinin müəssisələri

Ombudsmanın MPM fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən Müdafiə Nazirliyinin *Bakı Hərbi Qarnizonu üzrə Hərbi Polisin Hauptvaxtına* başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı saxlanma şəraiti və rəftar

məsələləri araşdırılmış, saxlanılan hərbi qulluqçuların hüquqlarının təmin olunması vəziyyəti öyrənilmişdir.

Başçəkmə çərçivəsində saxlanma şəraitinin araşdırılması məqsədilə hauptvaxtın bütün obyektlərinə, kameralara, inzibati otaqlara, yeməkxanaya, hamam otağına baxış keçirilmiş, qidalanma, içməli, isti və soyuq su təminatı, tibbi yardım, gəzinti ilə bağlı mövcud vəziyyət, müvafiq sənədləşmə yoxlanılmışdır.

MPQ üzvləri tərəfindən hauptvaxtda saxlanılan 4 hərbi qulluqçu fərdi qəbul olunmuşdur. Saxlanılan şəxslər buradakı saxlanma şəraitindən və müəssisə əməkdaşları tərəfindən onlara qarşı rəftardan narazılıq etməmişlər.

Ümumiyyətlə, başçəkmə həyata keçirilən müəssisənin ayrı-ayrı hissələrində saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə təmirə ehtiyacın olduğu müşahidə edilmişdir.

Başçəkmənin sonunda hauptvaxtın hərbi qulluqçuları ilə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən Ombudsman haqqında Konstitusiya Qanununa əsaslanan hüquqi maarifləndirici söhbətlər aparılmış və müvafiq tövsiyələr verilmişdir.

### 2.2.5. Səhiyyə Nazirliyinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən 22 başçəkmə həyata keçirilmişdir.

Səhiyyə Nazirliyinin *Respublika Psixiatriya Xəstəxanasına* (Publik hüquqi şəxs) başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı palatalarda pasiyentlərin sıxlığı müşahidə edilmiş, həmin vəziyyət xəstəxananın baş həkimi tərəfindən respublikanın digər psixiatriya xəstəxanalarında aparılan təmir işləri ilə bağlı xəstələrin buraya köçürülmələri ilə əlaqələndirilmişdir.

Tibbi və yardımçı personalın sayının azlığı, o cümlədən yetkinlik yaşına çatmayan şəxslərə və gənclərə münasibətdə də personalın sayının az olduğu, yetkinlik yaşına çatmayanlara və əlilliyi olan şəxslərə münasibətdə qeyri-peşəkarlıq, reabilitasiya tədbirlərinin zəif olduğu müşahidə edilmişdir.

Müəssisədə müasir psixoloji və sosial xidmətlərin təşkilinə ehtiyacın olduğu müəyyən edilmişdir.

Məcburi hospitallaşdırma ilə bağlı sənədləşmədə nöqsanlara yol verildiyi, bir çoxuna könüllü hospitallaşdırmaya dair sənədlərin və anketin əlavə olunduğu müşahidə olunmuşdur. Yetkinlik yaşına çatmayanlarla bağlı sənədləşmə öyrənilərkən həmin şəxslərin valideynlərinin və qanuni nümayəndələrinin ərizə və imzaları olmamışdır. Bu hallar əvvəlki başçəkmələr zamanı da müşahidə edilmişdir. Müəssisə rəhbərliyinə

qanunvericilik əsasında sənədləşmədə olan nöqsanların aradan qaldırılması ilə bağlı təkrar hüquqi məsləhətlər verilmiş, qanunvericiliyin tələbləri izah olunmuşdur.

Bu müəssisədə müalicə olunan və barəsində tibbi xarakterli məcburi tədbirlər seçilmiş şəxslərin açıq havada gəzintiyə çıxarılmadığı da məlum olmuşdur. Müzakirə zamanı müəssisə rəhbəri bu məhdudiyyətin ətrafdan atılan qanunsuz əşyaların qarşısının alınması məqsədilə qoyulduğunu və şəraitin yaradılması üçün maliyyə vəsaitinin ayrılmadığını bildirmişdir.

Bu baxımdan gəzinti hüququnun təmin edilməməsi və kiçik palatalarda yaşayan həmin şəxslərə yanaşmalar hüquq pozuntusu kimi qiymətləndirildiyindən, ətrafda müvafiq mühafizə zolağı yaradılmaqla məsələnin həlli məqsədəmüvafiqdir.

MPQ üzvləri tərəfindən *2 saylı Kliniki Psixiatriya Xəstəxanasına* başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd saxlanma şəraiti və rəftar məsələlərinin, müalicə olunan şəxslərin beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin, o cümlədən daxil olan müraciətlə əlaqədar məsələlərin araşdırılması olmuşdur.

Başçəkmə çərçivəsində qadın şöbəsində pasiyentlərin bir ümumi otaqda qaldıqları, çarpayıların çox sıx yerləşdiyi müşahidə olunmuşdur. Mətbəxin və sanitar qovşağın (gigiyena, işiqlandırma və digər) təmirə ehtiyacı vardır.

*Ərizəçi M.A. bacısı L.Ə.-nin qeyri-könüllü şəkildə 2 saylı psixiatrik kliniki xəstəxanaya yerləşdirildiyini, qeydiyyatın aparılmadığını, şəxsin diaqnozunun təyin olunmadığını və yerləşdirilmənin anası tərəfindən verilən şifahi məlumata əsasən aparıldığını qeyd etmişdir. Şikayətlə bağlı araşdırma məqsədi ilə baş həkim və L.Ə.-nin müalicə həkimi ilə görüş keçirilmiş, müalicə və qeydiyyatla bağlı məsələlər araşdırılmışdır.*

*Araşdırma nəticəsində adı çəkilən pasiyentin könüllü əsaslarla müəssisəyə yerləşdirildiyi, ona şizofreniya-paranoid forma diaqnozunun qoyulduğu, onun haqqında məlumatın xəstəlik tarixində əks olunduğu müəyyən edilmişdir. L.Ə.-nin müəssisədən özünün ərizəsi əsasında çıxarıldığı və yaxınlarına təhvil verildiyi öyrənilmişdir.*

Rəftar məsələlərinin araşdırılması məqsədilə bəzi pasiyentlərlə fərdi söhbətlər aparılmışdır.

Ombudsmanın MPM fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən Gəncə şəhər Səhiyyə İdarəsinin *Gəncə Körpələr Evinə* planlı başçəkmələr həyata keçirilmişdir.

Körpələr Evinin rəhbərliyi ilə söhbət zamanı buraya körpələrin verilməsi əsasən valideynlərin ölümü, maddi vəziyyətinin ağırlığı, cəzaçəkmə müəssisəsində olması, eyni zamanda qeyri-rəsmi nikahdan dünyaya gəlməsi səbəbilə olduğu, 30 nəfərlik limiti olan müəssidə südəmər uşaqlar və 3

yaşadək uşaqlar olmaqla iki qrupun fəaliyyət göstərdiyi öyrənilmişdir. İlk başçəkmədə 17, ikinci başçəkmədə 24, son başçəkmədə isə 26 uşağın olduğu müəyyən edilmişdir.

Başçəkmələr zamanı müəssisənin ərazisinə, inzibati otaqlar və yataqxanalar yerləşən binalarına, tibb otağına, camaşırxanaya, müxtəlif ləvazimatlar saxlanılan köhnə tikiliyə, mətbəxə, yeməkxanaya, ərzaq anbarına baxış keçirilmişdir.

Gəncə Körpələr Evinin binasının köhnə və əsaslı təmirə ehtiyacı olduğundan, valideyn himayəsindən məhrum olmuş körpələrin saxlanılması üçün münasib saxlanılma şəraitinə uyğun olmadığı müşahidə edilmişdir. Bu səbəbdən müəssisə üçün müasir standartlara cavab verən binanın tikilməsi və körpə uşaqlar üçün zəruri inventarlarla təchiz edilməsi zəruridir.

3 yaşı tamam olan uşaqlar, o cümlədən xəstəlikdən əziyyət çəkən uşaqlar digər dövlət uşaq müəssisələrinə göndərilməli olsa da, başçəkmə zamanı serebral iflicdən əziyyət çəkən 2018 və 2012-ci il təvəllüdlü iki uşağın müəssisədə saxlanıldığı müəyyən edilmişdir.

*Gəncə Rayonlararası Narkoloji Dispanserinə* başçəkmə həyata keçirilmişdir.

Qazax, Ağstafa, Tovuz, Şəmkir, Göygöl, Samux və Goranboy rayonlarını da əhatə edən xəstəxanada narkomaniya və xroniki alkoqolizmdən əziyyət çəkən şəxslər stasionar və ambulator qaydada müalicə olunurlar.

Baxış zamanı müəssisənin inzibati binasının, yardımçı binaların, mətbəxin, palataların tamamilə sanitar qaydalarına zidd, istifadəyə tam yararsız vəziyyətdə olması müəyyən edilmişdir. Müalicə alan şəxslərin asudə vaxtlarının təşkili üçün heç bir şəraitin (televizor, idman qurğusu və s.) olmaması, hamamın köhnə və anti-sanitar şəraitdə olması müşahidə edilmişdir.

Müəssisədə müalicə alan şəxslərin qida təminatı üçün gündəlik 1 (bir) manat nəzərdə tutulmuşdur ki, dövlət tərəfindən bu məqsəd üçün ayrılan vəsaitin artırılması, xəstələrin qida rasionunun müxtəlifliyinin təmin edilməsi zəruridir.

Ümumilikdə isə, müəssisə üçün yeni binanın istifadəyə verilməsi və ya dispanserin əsaslı təmir edilməsi, yeni inventarlarla təmin edilməsi zəruridir.

Dispanserin fəaliyyəti ilə bağlı qeydiyyat işinin təkmilləşdirilməsi, uçot-qeydiyyat jurnallarının, xüsusilə də müəssisəyə daxil olarkən üzərində hər hansı xəsarət izinin olub-olmaması ilə bağlı məlumatlar üçün jurnalın tərtib edilməsi tövsiyə olunur.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən Səhiyyə Nazirliyinin *Gəncə şəhər Psixiatriya Xəstəxanasına* plandankənar və planlı başçəkmələr həyata keçirilmişdir.

BMT-nin “Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılması prinsipləri”, Ruhi xəstələrin saxlanılma şəraitinə və onlara qarşı rəftara dair Avropa Minimum Standartları, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu, “Psixiatriya yardımı haqqında” Qanunun tələbləri əsasında təşkil olunmuş plandankənar başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, müəssisədə yaşayan şəxslərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması, habelə COVID-19 pandemiyası dövründə sanitar-gigiyena qaydalarına əməl edilməsi vəziyyətinin öyrənilməsi olmuşdur.

Xəstəxananın binası yeni tikilərək 28 aprel 2020-ci ildən istifadəyə verilmişdir. Müəssisədə istifadəyə verilmiş bir sıra müasir tibbi avadanlıqların xəstələrin xidmətinə verilməsi məqsədilə xəstəxananın ixtisaslı kadrlara, xüsusilə həkim laborant, həkim rentgenoloq, UZİ həkimi, radioloq həkimi, həkim terapevt və həkim psixiatra ehtiyac olduğu bildirilmişdir.

Müəssisəyə həyata keçirilmiş növbəti başçəkmə zamanı ixtisaslı kadrların çatışmazlığı ilə bağlı problemin davam etdiyi müşahidə edilmişdir.

Həkimlərin iş yükünün çoxluğunu da nəzərə alaraq, tibbi və yardımçı personalın sayının və dərman təminatı üçün ayrılan vəsaitin artırılmasına ehtiyac var.

MPQ üzvləri tərəfindən *Qazax Rayonlararası Psixiatriya Xəstəxanasına* planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində xəstəxananın inzibati binasına, palatalara, həkim və tibb bacısı otaqlarına, yeməkxanaya, mətbəxə, ərzaq anbarına və digər hissələrinə baxış keçirilmişdir.

Əvvəlki dövrlərdə müəssisəyə həyata keçirilmiş başçəkmələr zamanı aşkar edilmiş bəzi çatışmazlıqların aradan qaldırıldığı, pasiyentlərin istifadə etmələri üçün ibadət otağı və kitabxananın təşkil edildiyi müşahidə edilmişdir.

Bununla yanaşı xəstəxana binasının köhnə olduğu və uzun müddətli təbii aşınmalara məruz qaldığı müşahidə edilmişdir. Müəssisə rəhbərliyi Qazax Rayonlararası Psixiatriya Xəstəxanasının yeni binasının tikintisi üçün rayon ərazisində yer ayrıldığını və işlərin başlanılmasını gözlədiklərini bildirmişdir.

*Səhiyyə Nazirliyinin Quba Rayonlararası Psixonevroloji Mərkəzinə* başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, habelə müalicə alan şəxslərin hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Məlum olmuşdur ki , müəssisədə mövcud olan 8 həkim ştatı 4 həkimlə komplektləşdirilmiş və orta tibb heyəti 22 ştat vahidi əvəzinə 11 nəfərdən ibarətdir.

Başçəkmələr çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin palatalarına, mətbəxə və digər inzibati otaqlara baxış keçirilmiş, qidalanma, içməli su, isti və soyuq su təminatı, eyni zamanda sənədləşmə araşdırılmışdır. Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan 4 nəfər şəxs konfidensial qaydada dinlənilmiş, hüquqlaının təmin olunma vəziyyəti araşdırılmışdır.

Başçəkmə zamanı müəssisəyə qəbul olunan xəstələrin yalnız xüsusi simptomları olanlar COVID-19 testindən keçirildiyi müəyyən olunmuşdur. Bu isə, Koronavirus infeksiyasına yoluxmuş, ancaq hər hansı simptomu olmayan şəxsin müəssisəyə daxil olması ehtimalını yaradır.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, istifadə müddətinin bitməsinə az qalmış ərzaqların yenilənməsi və digər müvafiq tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən *Səhiyyə Nazirliyinin Salyan Rayonlararası Psixiatriya Xəstəxanasına* plandankənar başçəkmə həyata keçirilmilşdir.

Başçəkmə çərçivəsində Salyan və ətraf 7 rayonun (Sabirabad, Saatlı, Hacıqabul, Şirvan, Neftçala, Cəlilabad və Beyləqan) sakinlərinə xidmət edən müəssisənin palata və şöbələrinə, yeməkxanaya, ərzaq anbarına və digər obyektlərə baxış keçirilib, tibbi yardımın təşkili, qidalanma, içməli su təminatı, gəzinti və s. ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmış, çatışmazlıqlar müəyyənləşdirilmişdir.

Tibbi yardımın təşkili məsələsi araşdırılarkən, 11 nəfər həkim ştatı, 20 nəfər isə tibb bacısı ştatı üzrə vakansiya olduğu bildirilmişdir. Müəssisə rəhbərliyi bunu həmin ixtisas sahiblərinin orada işləmək istəməməsi ilə əlaqəli olduğunu bildirmişdir.

Başçəkmə zamanı müəssisədə kondisionerin olmadığı, qadın şöbəsində televizorun işləmədiyi, habelə soyuq aylarda istilik təchizatı ilə bağlı problemlərin olduğu müəyyən edilmişdir.

Sənədləşmənin araşdırılması zamanı qadın və kişi şöbələrində müalicə alan şəxslərin xəstəlik tarixlərində müalicə həkiminin, pasiyentin və şahidin imzalarının olmadığı müahidə edilmişdir. Şöbə müdiri sənədlərin arxivə verildiyi zaman imzalandığını söyləsə də, təsadüfi seçimlə beş xəstəlik tarixinə baxış keçirilmiş, bu sənədlərdən yalnız birində imzalar və müvafiq qeydlər olmuşdur.

Mətbəx və ərzaq anbarının yerləşdiyi binanın köhnə olmaqla yanaşı standartlara uyğun olmadığı müəyyən edilmişdir. Ərzaq anbarında tərəvəz

məhsullarının düzgün qaydada saxlanılmaması müəyyən edilmiş, zəruri tövsiyələr verilmişdir.

Eyni zamanda, müəssisənin qaz təchizatı həllini tapmamışdır.

Səhiyyə Nazirliyinin *Lənkəran Rayonlararası Psixiatriya Xəstəxanasına* plan üzrə başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində müəssisənin müxtəlif obyektlərinə baxış keçirilməklə yanaşı, rəftar məsələlərinin öyrənilməsi məqsədilə burada müalicə alan şəxslərlə konfidensial söhbət aparılmışdır.

Baxış keçirilən zaman kişi və qadın sektorunda mətbəxdə qabların təmiz yuyulmaması, yuyucu vasitələrin olmaması, eləcə də yemək nümunələrinin natamam olması, bundan başqa qadın sektorunda hamam otağının qapısının bağlı olması və ərzaq anbarında ərzağın az olması və səliqə-sahmanın olmaması, qida və dərman vasitələri ilə təchizatda çatışmazlıqların olduğu bəzi palataların adekvat işıqlandırılmadığı aşkar edilmişdir.

*Lənkəran Rayonlararası Narkoloji Xəstəxanasına* planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı palatalara, görüş, qəbul, dezinfeksiya və tibb işçisi otaqlarına, hamama, mətbəxə baxış keçirilmiş, saxlanma şəraiti, dərman təchizatı, qidalanma, istilik təchizatı kimi məsələlər araşdırılmışdır.

Yekunda müəssisədə işin keyfiyyətinin yüksəldilməsi ilə bağlı baş həkim və əməkdaşlarına müvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən *Şəki rayon Psixiatriya Xəstəxanasına* plandankənar başçəkmə həyata keçirilmişdir.

200 çarpayılıq müəssisədə 4 nəfərlik palatalarda 6 nəfər şəxsin saxlanıldığı müşahidə edilmişdir. Müəssisə rəhbərliyi belə yerləşdirməni ştat sayının az olmasına görə müalicə alan şəxslərə nəzarət etmək məqsədilə əsaslandırmışdır.

Bundan başqa xəstəxanada həkim-stomatoloq fəaliyyət göstərməsinə baxmayaraq, müəssisənin stomatoloji avadanlıqlarla təmin olunmadığı müəyyən edilmişdir.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmış, milli və beynəlxalq qanunvericilik aktlarının müddəaları diqqətə çatdırılmışdır.

Başçəkmələr çərçivəsində müəyyən edilmiş nöqsanlar Səhiyyə Nazirliyi və müvafiq dövlət orqanları qarşısında qaldırılmış və tövsiyələrin icra vəziyyəti ardıcıl başçəkmələr zamanı yerində yoxlanılmışdır.

### 2.2.6. Təhsil Nazirliyinin müəssisələri

MPQ-nin üzvləri tərəfindən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu,

“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası, “Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya”sının müddəaları, “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu, İQA (SPT) tövsiyələri, İQK (CPT) standartları, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri əsasında Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən 25 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr zamanı beynəlxalq təcrübə nəzərə alınmaqla təhsil müəssisələrində saxlanma şəraiti və rəftar məsələləri, habelə bu sahədə milli və beynəlxalq standartların praktik tətbiqi məsələləri araşdırılmışdır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) MPM fəaliyyəti çərçivəsində yeni tədris ilinin başlanması ilə əlaqədar MPQ üzvləri tərəfindən *Təhsil Nazirliyinin Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2 saylı tam orta məktəbinə, Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 və 12 saylı xüsusi internat məktəblərinə, 4 və 5 saylı Respublika xüsusi internat məktəblərinə* planlı başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd bu müəssisələrdə saxlanma şəraitinin monitorinqi, yeni tədris ilinin başlanması ərəfəsində dövlət uşaq müəssisələrinin hazırlığı, habelə uşaqların hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur.

Təhsil Nazirliyinin tabeliyində olan sağlamlıq imkanları məhdud uşaqlar, habelə valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəblərinə, gimnaziyalara keçirilən başçəkmələr zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, tibb və dərs otaqlarına, yeməkxana və mətbəxə, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlara, ümumi əraziyə baxış keçirilmiş, müəssisələrin rəhbərliyi və əməkdaşlarla söhbət aparılmışdır.

İnternat müəssisələrində şagirdlərin tədris prosesində sosial məsafə şərtlərinə riayət etmələri üçün sinif otaqlarının müvafiq qaydada hazırlandığı, həmçinin yataqxanada çarpayıların sayının azaldılaraq ara məsafəsinin standartlara uyğun düzüldüyü müşahidə edilmişdir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün 12 nömrəli xüsusi internat məktəbində isə təmirin yekunlaşmadığı və tədrisə hazır olmadığı müşahidə edilmişdir.

Həyata keçirilmiş başçəkmələr zamanı saxlanma şəraiti ilə bağlı yerində həlli mümkün olan bəzi məsələlər müəssisələrin rəhbərliyi qarşısında qaldırılmış, onların təminatına dair tövsiyələr verilmişdir.

Başçəkmələr zamanı MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyası əsasında bu təhsil müəssisələrinin rəhbərliyi və əməkdaşları ilə hüquqi

maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və COVID-19 pandemiyası ilə bağlı məlumatlandırma tədbirlərinə geniş yer verilməsi, bu sahədə fəaliyyətlərinin və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

Başçəkmələrin yekununda müəssisələrə COVID-19 pandemiyası ilə əlaqədar və digər maarifləndirici xarakterli materiallar təqdim edilib.

Ombudsmanın MPQ üzvləri tərəfindən *Tovuz rayonu Qovlar şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya* plandankənar başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, burada qalan şagirdlərin hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Direktor məlumat verərək bildirmişdir ki, müəssisənin Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəblərinin Nümunəvi Nizamnaməsinə" uyğun olaraq tərtib edilmiş nizamnaməsinin təsdiq olunması üçün Təhsil Nazirliyinə təqdim edilmişdir. Bu nizamnamənin Təhsil Nazirliyi tərəfindən təxirə salınmadan təsdiq edilməsi zəruridir.

Bundan başqa müəssisənin istifadəsində olan köhnə avtobusun yerinə yeni və iritutumlu, sağlamlıq imkanları məhdud olan uşaqların da istifadə edə biləcəyi avtobusla təmin olunması həssas qrupdan olan uşaqların hüquqlarının təminində mühüm rol oynayar.

Ombudsman və MPQ üzvləri tərəfindən *Təhsil Nazirliyinin Quba Xüsusi Peşə Məktəbinə* əvvəlcədən xəbərdarlıq etmədən plandankənar başçəkmələr həyata keçirilmişdir.

Ombudsman tərəfindən müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlara, yeməkxana və mətbəxə, ərzaq anbarına və ümumi əraziyə baxış keçirilmişdir.

Başçəkmə zamanı Quba Xüsusi Peşə Məktəbində saxlanma şəraitinin uşaqlar üçün uyğun olmadığı, onların keyfiyyətli təhsil, asudə vaxtın səmərəli təşkili, peşə vərdişlərinə yiyələnmələri üçün imkanların aşağı səviyyədə olduğu müəyyən edilmişdir.

Müəssisədə ştat vahidinin çox olmasına baxmayaraq, ictimai təhlükəli əməl törətmiş uşaqların davranışının korreksiyasını və cəmiyyətə uyğunlaşmasının, o cümlədən onların psixoloji, tibbi və sosial reabilitasiyasının təmini üçün uyğun şəraitin olmadığı, bu xidmətlərin təşkilinə ciddi ehtiyacın olduğu müəyyən edilmişdir.

Cinayət məsuliyyətinə cəlb olunması üçün qanunvericiliklə nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanların saxlandığı bu müəssisənin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli, 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi

təlim-tərbiyə müəssisələri haqqında” Nümunəvi Nizamnamənin tələblərinə cavab vermədiyi aşkarlanmışdır.

Başçəkmənin sonunda Ombudsman tərəfindən müəssisə rəhbərliyinə milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyasının müddəalarına əsaslanan, uşaq hüquqlarının həyata keçirilməsi və bu sahədə fəaliyyətin təkmilləşdirilməsini nəzərdə tutan tövsiyələr verilmişdir.

Müəssisəyə MPQ üzvləri tərəfindən həyata keçirilmiş təkrar başçəkmə zamanı, əvvəlki başçəkmədə tibb məntəqəsində ilkin tibbi yardımın göstərilməsi üçün tələb olunan lazımi vasitələrin və dərman preparatlarının olmaması ilə bağlı nöqsanın aradan qaldırıldığı, ilkin tibbi yardımın təşkili üçün zəruri avadanlıqlar və dərman vasitələrinin təmin edildiyi müşahidə olunmuşdur.

Ombudsmanın MPM fəaliyyəti çərçivəsində Təhsil Nazirliyinin tabeliyindəki *Gəncə, Lənkəran, Şəki və Siyəzən şəhərlərində, Lerik, Neftçala və Salyan rayonlarındakı inteqrasiya təlimli intrernat tipli gimnaziyalara, habelə Quba şəhər Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün Tam Orta İnternat Məktəbinə* başçəkmələr həyata keçirilmişdir. Başçəkmələr zamanı gimnaziyaların sinif otaqlarına, yataqxanasına, istirahət otağına, informatika otağına, tibb otağına, hamam otaqlarına, yeməkxanaya, ərzaq anbarına baxış keçirilmiş, müvafiq sənədləşmə araşdırılmışdır. Eyni zamanda COVID-19 pandemiyasına qarşı görülmüş qabaqlayıcı tədbirlərlə tanış olmaq məqsədilə müəssisənin sanitariya vəziyyəti də araşdırma predmeti olmuşdur.

Siyəzən şəhər inteqrasiya təlimli internat məktəbinə keçirilən başçəkmə zamanı müəssisənin yeni tədris ilinə tam hazır olmadığı, idman zalının təmirinin başa çatmadığı, sanitariya qovşaqlarının pis vəziyyətdə olduğu və ümumi səliqəsizliyin hökm sürdüyü müşahidə edilmişdir.

Başçəkmələr çərçivəsində müxtəlif yaşlarda olan uşaqlarla fərdi söhbət aparılmış, onlarla rəftar araşdırılmış, hüquqları izah olunmuşdur.

### 2.2.7. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə MPM fəaliyyəti çərçivəsində əvvəlcədən xəbərdarlıq etmədən 3 başçəkmə həyata keçirilmişdir.

Ombudsmanın MPM fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin *1 saylı psixonevroloji sosial xidmət müəssisəsinə* başçəkmə həyata keçirilmişdir.

BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu və

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd bu müəssisədə saxlanma şəraiti və rəftar məsələlərinin, saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin, araşdırılmasından ibarət olmuşdur.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə zamanı saxlanma şəraiti ilə bağlı müəssisənin bütün obyektlərinə, o cümlədən yataq otaqlarına, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş yerlərə, yeməkxanalara, mətbəxə və ümumi əraziyə baxış keçirilmişdir.

Rəftar məsələlərinin araşdırılması məqsədilə müəssisədə yaşayan şəxslərlə, habelə müəssisə rəhbərliyi və əməkdaşları ilə fərdi söhbət aparılmış, mövcud vəziyyət öyrənilmişdir.

Saxlanma şəraiti ilə bağlı bəzi nöqsanlar aşkar edilmişdir. Belə ki, 4 nəfərlik palataların birində 5 çarpayının olduğu, kişi və qadınların eyni mərtəbədə, ağır xəstələrin yuxarı mərtəbələrdə saxlanıldığı müşahidə edilmişdir. Eyni zamanda, müəssisənin liftinin işləməməsi də, yarana biləcək hansısa fövqəladə vəziyyətlərdə ağır xəstələrin təxliyyəsinə çətinlik törədə biləcəyindən, belə şəxslərin aşağı mərtəbələrdə saxlanılması məqsədəmüvafiqdir.

Müəssisənin 48 nəfər üçün nəzərdə tutulmuş yeməkxanasına baxış zamanı burada 28 stulun olduğu, bunun da yemək zamanı növbənin yaranmasına səbəb olduğu aydın olmuşdur. Müəssisə rəhbərliyi bunu bəzi şəxslərə yeməklərin palatalarda verildiyi ilə əsaslandırmışdır.

Başçəkmə zamanı müəssisədə psixiatr həkimin olmadığı müşahidə edilmişdir.

Başçəkmənin sonunda MPQ-nin üzvləri tərəfindən müəssisə rəhbərliyinə və əməkdaşlarına saxlanma şəraitinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin tabeliyində olan *Gəncə şəhər 4 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinə (publik hüquqi şəxs)* planlı başçəkmə həyata keçirilmişdir.

Müəssisənin yeni binası 30 dekabr 2019-cu ildən istifadəyə verilmişdir. Müəssisə psixi və yüngül formada əqli pozuntuları ilə əlaqədar əlilliyi yaranan və əlilliklə əlaqədar özünəqulluq qabiliyyəti, habelə qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan 18 yaşından yuxarı şəxslərə stasionar qaydada sosial xidmətlərin göstərilməsi və onların sosial reabilitasiyasının həyata keçirilməsi ilə bağlı fəaliyyəti həyata keçirən publik hüquqi şəxsdir və Əmək və əhalinin sosial müdafiəsi nazirinin 25.08.2020-ci il tarixində təsdiq etdiyi Nizamnamə əsasında fəaliyyət göstərir. Şəxslərin müəssisəyə qəbulu və müəssisədən

çıxarılması ilə bağlı məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 noyabr 2013-cü il tarixli 320 nömrəli qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası" ilə tənzimlənir.

Başçəkmə zamanı müəssisədə ixtisaslı həkimin olmadığı müəyyən edilmişdir. Müəssisənin həssas fəaliyyət istiqaməti, sosial təyinatı nəzərə alınaraq ixtisaslı həkimin olmaması müəssisənin fəaliyyəti ilə bağlı əsas çatışmazlıq kimi qiymətləndirilməlidir.

Başçəkmə zamanı həmçinin MPQ üzvləri tərəfindən COVID-19 pandemiyasına qarşı mübarizədə bütün sanitar-gigiyenik qaydalara əməl olunmasının zəruriliyi müəssisə əməkdaşlarının diqqətinə çatdırılmışdır.

### 2.2.8. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri

Fakültativ Protokolun tələbləri əsasında yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan və MPM-in yurisdiksiyasında olan müəssisələrə 10 başçəkmə həyata keçirilmişdir.

Ombudsmanın MPM fəaliyyəti çərçivəsində Bakı və ölkənin müxtəlif şəhərlərinin, o cümlədən Gəncə, Şəki və Lənkəran şəhər icra hakimiyyətlərinin tabeliyindəki uşaq müəssisələrinə də başçəkmələr həyata keçirilmişdir.

MPQ tərəfindən Bakı şəhər 1 nömrəli Uşaq Evinə qabaqcadan xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd müxtəlif yaş qruplarından olan və bu müəssisədə yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaqların hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Qeydiyyat kitabları ilə tanışlıq zamanı müəyyən olunmuşdur ki, müvafiq uçot-qeydiyyat kitabları (uçot, tibb və s.) normal vəziyyətdədir. Bununla yanaşı müəssisədə yaşayan uşaqların şəxsi işlərində (sənədlərində) çatışmazlıqların olduğu müşahidə edilmişdir. Belə ki, Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsinin 3.1.6.-cı maddəsinə görə sosial işçi tərəfindən sosial xidmətin formasını, növünü, göstərilmə yerini və müddətini özündə əks etdirən sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsi üzrə hesabatı və uşağa sosial xidmətin göstərilməsinə dair fərdi planın hazırlanması təmin edilməli olsa da, belə fərdi planlara rast gəlinməmişdir.

Uşaq Evinin yataqxanalarında şərait normal olsa da, sıxlıq müşahidə edilmişdir.

Uşaq Evinin Tibb hissəsinə yeni təyin olunmuş həkimin fəaliyyətini normalara uyğun təşkil etdiyi, zəruri dərman preparatlarının və tibbi ləvazimatların olduğu müşahidə edilmişdir. Ümumilikdə bir həkim və dörd tibb bacısı fəaliyyət göstərən müəssisədə yaşayan uşaqlar 3 aydan bir ümumi tibbi müayinədən keçirilir.

Uşaqların asudə vaxtının səmərəli təşkil edilmədiyi müşahidə olunmuşdur ki, müəssisə rəhbərliyi bunu Koronavirus pandemiyasının yayılmaması məqsədilə atılan addımlarla əlaqələndirmişdir.

Dərslərdən başqa müəssisədə yaşayan uşaqlar müxtəlif dərnəklərdə də iştirak edirlər. Uşaqlar dərslərdən sonrakı boş vaxtlarında əsasən türk seriallarına baxırlar.

Başçəkmənin yekununda uşaq hüquqlarına dair bilik və bacarıqların səviyyəsinin müəyyən edilməsi və uşaq iştirakçılığının yoxlanılması məqsədilə 10 yaşdan yuxarı uşaqlar arasında sorğu keçirilmişdir. Sorğunun nəticələri demoqrafik və digər təsviri göstəricilərə uyğun olaraq təhlil olunmuş və növbəti başçəkmələr üzrə fəaliyyət prosesində nəzərə alınır.

Yeni tədris ilinin başlanması ilə əlaqədar digər uşaq müəssisələri ilə yanaşı yerli icra hakimiyyətlərinin tabeliyindəki müəssisələrə, o cümlədən Bakı şəhərində yerləşən 2 və 3 saylı uşaq evlərinə başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd saxlanma şəraitinin və uşaqların hüquqlarının təminatı ilə yanaşı, bu müəssisələrin tədrisə hazırlığının monitorinqi olmuşdur.

Başçəkmə zamanı Suraxanı rayonunda yerləşən 2 saylı uşaq evində ümumilikdə saxlanma şəraitinin təkmilləşdirilməsinə ehtiyac olduğu, Xətai rayonundakı 3 saylı uşaq evində isə uşaqların tədrisə hazırlığına maneə olan hallara yol verildiyi müşahidə olunmuşdur.

Başçəkmələr zamanı müəssisələrdə aşkar olunan nöqsanlar uşaqların bərabər şərtlər əsasında təhsil almasında, onların təhsil hüququnun təmin olunmasında problemlərin mövcudluğunu əks etdirmişdir. Belə ki, Bakı şəhərində yerləşən 1, 2, 3 saylı uşaq evlərində və Şəki qarışıq tipli uşaq evində uşaqların pandemiya ilə əlaqədər onlayn formada keçirilən dərslərə qoşulması üçün müvafiq texniki vasitələrin sayının az olması və ya olmaması, internet sürətinin zəif olması səbəbindən çətinliklərin mövcud olduğu müşahidə edilmişdir ki, bunun da uşaqların təhsil hüququnun təminində ciddi problemlərə səbəb olduğu müəyyən edilmişdir.

MPM fəaliyyəti çərçivəsində *Gəncə şəhər İcra Hakimiyyətinin Gəncə Uşaq Evinə* plandankənar başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd, COVID-19 pandemiyasına qarşı müəssisədə görülmüş qabaqlayıcı tədbirlərlə tanış olmaq, müəssisənin sanitariya vəziyyətinin öyrənilməsi, eyni zamanda saxlanma şəraitinin və rəftarın,

burada yaşayan uşaqların hüquqlarının təmin edilməsi, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətini öyrənmək olmuşdur.

Uşaq evinin ərazisinə baxış zamanı 2018-ci ilin dekabrından tikintisinə başlanılmış yeni korpusda işlərin davam etdiyi müşahidə edilmişdir.

Uşaq evinin sakinləri ilə görüşd onların ümumi şəraitinin (geyim, otağın istiliyi, yataq ləvazimatlarının təmizliyi, əyani vəsaitlər və.s.) normal olması müşahidə edilmişdir.

3-18 yaş arasında şəxslərin yaşadığı Gəncə Uşaq Evinə hər bir uşaq İcra Hakimiyyətinin sərəncamı əsasında qəbul edilir. Burada saxlanılmanın qanuniliyini təsdiq edən şəxsi işlərlə tanışlıq zamanı saxlanılan uşaqların şəxsi işlərinin tərtib olunduğu müşahidə edilmişdir.

Bununla yanaşı müəssisə rəhbərliyi tərəfindən uşaqların qidalanması və geyimləri ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli, 130 saylı qərarı ilə təsdiq edilmiş "Uşaq bağçalarında, Uşaq Evlərində və məktəbəqədər Uşaq sanatoriyalarında uşaqlar üçün qida normaları"nın və həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 yanvar tarixli 15 nömrəli qərarı ilə təsdiq edilmiş Uşaq evlərində uşaqlar üçün geyim, ayaqqabı və yumşaq inventarlarla təmin olunması normalarının hazırki tələbata və uşaqların yaş xüsusiyyətlərinə cavab vermədiyindən həmin normalara Nazirlər Kabineti tərəfindən yenidən baxılması məqsədəmüvafiqdir.

Başçəkmənin yekununda Gəncə Uşaq Evinin əməkdaşlarına və uşaqlara 18 may - 18 iyun 2020 tarixlərdə respublikamızda Müvəkkilin təşəbbüsü ilə elan edilmiş "İnsan Hüquqları Aylığı" çərçivəsində hüquqi maarifləndirici söhbət aparılmış və Ombudsmanın Milli Preventiv Mexanizm funksiyası çərçivəsində mövcud olan mandatı barədə məlumat verilərək uşaq evində saxlanılma və rəftar məsələlərinə daim həssas yanaşılması, Koronavirus pandemiyasından qorunmaq üçün sosial məsafə saxlanılması və giyiyena qaydalarına ciddi əməl olunması tövsiyə olunmuşdur.

MPQ üzvləri tərəfindən *Şəki Qarışıq Tipli Uşaq Evinə* plandankənar başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması və onunla mübarizənin gücləndirilməsi üçün tətbiq edilən xüsusi karantin rejimi dövründə müxtəlif yaş qruplarından olan və müəssisədə yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarının, uşaqların hüquqlarının təmin edilməsi vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı müəssisənin yataq, dərs və asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlarına, yeməkxanaya, mətbəxə, ərzaq anbarına, tibb otağına baxış keçirilmişdir.

Rəftar məsələlərinin araşdırılması məqsədilə karantin rejimi qaydalarına əməl olunmaqla təsadüfi seçim əsasında uşaqlarla, habelə müəssisə rəhbərliyi, psixoloq, tibb işçisi və digər əməkdaşlarla söhbət aparılmışdır. Söhbət zamanı Uşaq Evinin direktoru həkim pediatr ştatının iki ildir vakant olduğunu, dərman preparatlarının alınması üçün maliyyə vəsaitinin ayrılmadığını, müəssisədə ştat sayının kifayət etmədiyini qeyd etmişdir.

Başçəkmə zamanı ərzaq anbarında havalandırma sisteminin işə salınmadığı müşahidə edilmişdir. Direktor elektrik enerjisi üçün ayrılmış limitin az olması səbəbi ilə havalandırma sisteminin daimi işlədilməsinin mümkün olmadığını bildirmişdir.

# BÖLMƏ 3.

# HÜQUQİ TƏHLİL

Ombudsmanın MPM mandatı çərçivəsində fəaliyyətinin hüquqi təhlili işi xüsusi əhəmiyyət daşıyır.

MPM mandatı çərçivəsində həyata keçirilən fəaliyyətin, bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, qüvvədə olan və ya gələcəkdə qəbul edilməsi təklif edilən qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması hüquqi təhlil işinin əsasını təşkil etməkdədir.

*Fakültativ Protokolun 19-cu maddəsinə görə, qüvvədə olan qanunvericiliyə və qanun layihələrinə dair təklif və qeydlərin hazırlanması və müvafiq şəkildə təqdim edilməsi Milli Preventiv Mexanizmlərə verilmiş əsas səlahiyyətlərdən biridir.*

Hüquqi təhlil işi eyni zamanda Müvəkkilin fəaliyyətində *Paris Prinsiplərinin*[2] tətbiqi baxımından da əhəmiyyətlidir.

Qüvvədə olan qanunvericilik aktlarının, eyni zamanda təcrübənin Azərbaycan Respublikasının qoşulduğu insan hüquqları ilə bağlı beynəlxalq konvensiyalara uyğunlaşdırılması, ölkənin beynəlxalq aktlara qoşulması və beynəlxalq normaların implementasiyası, respublikanın beynəlxalq konvensiyalar üzrə həyata keçirdiyi fəaliyyətlə bağlı BMT qurumlarına, regional təsisatlara təqdim olunan məruzələrin və əlavə hesabatların hazırlanması üçün hüquqi təhlil işinin əhəmiyyəti böyükdür.

Hesabatın əvvəlki hissələrində qeyd olunduğu kimi, Müvəkkil və onun MPQ üzvləri Azərbaycan Respublikası ərazisində şəxslərin öz iradəsi ilə saxlanıldıqları bəzi müəssisələri tərk edə bilməyən şəxslərlə görüşlər zamanı xüsusi sual anket formalarından da istifadə edirlər ki, 2020-ci il hesabatının hüquqi təhlil bölməsinin hazırlanması prosesində bu metoddan da istifadə edilmişdir.

***Müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin hüquqlarının təminatı məsələləri.*** Təcrübə göstərir ki, müvəqqəti saxlama yerlərində qanunvericiliyin pozulması, saxlama şəraiti və rəftatrla bağlı məsələlər özünəməxsusluğu ilə fərqlənir. MSY-də ətraf aləmlə təmaslar xüsusilə məhdudlaşdırılmış xarakter daşıyır. Bu məkanlar uzunmüddətli saxlanma üçün nəzərdə tutulmayıb və buna görə də, burada minimal şərait olur. Bu baxımdan təbii ki, saxlanılan şəxslər üçün müvafiq təminatlar, o cümlədən prosessual təminatlar xüsusi əhəmiyyət kəsb edir.

[2] Milli İnsan hüquqları Təsisatlarının fəaliyyəti üçün BMT Baş Assambleyasının 48/134 saylı qətnaməsi ilə qəbul edilmiş standartlar

*Vəkillə görüş hüququ.* İlkin tutulma vaxtı və polis nəzarətində saxlanılan zaman şəxslərin vəkilə çatımlılığı, əlaqə saxlamaq və vəkillə görüşlər zamanı konfidensiallığın təmini, dindirmə zamanı vəkilin iştirak etmə imkanı pis rəftar ehtimalına qarşı vacib təminat kimi xüsusi əhəmiyyət daşıyır.

Dünya təcrübəsi göstərir ki, azadlıqdan məhrumetmədən (müvəqqəti saxlama) dərhal sonrakı müddətdə pis rəftar ehtimalı ən yüksək olur. Müvafiq olaraq, polis tərəfindən saxlanılan şəxslərin bu müddət ərzində vəkilə çatımlılığının olması pis rəftara qarşı əsas daşındırıcı təsirə malik mexanizmdir.

CPT təcrübəsinə və ölkə praktikasına uyğun olaraq qəbul edilir ki, istisna hallarda saxlanılan şəxsin öz seçdiyi vəkilə çatımlılığı məsələsində müəyyən müddət gecikmə halları ola bilər. *Lakin bu heç bir halda vəkillə əlaqə və vəkillə təminat hüququnun pozulmasına səbəb olmamalıdır*. Polis ən qısa vaxt ərzində saxlanılan şəxsin hüquqi yardım almaq barədə konstitusiya ilə təsbit olunmuş hüququnun təminatı istiqamətində müvafiq addımlar atmalıdır. Bu, saxlanılan şəxsin hüququ olmaqla yanaşı, polis orqanlarının birbaşa vəzifəsidir.

Vəkillə görüşmək hüququ şəxsin özünün istədiyi üçüncü şəxsə həbsə alındığı barədə məlumat vermək hüququ və həkimlə görüşmək hüququ ilə birlikdə pis rəftarın qarşısının alınması yollarından biri kimi vacib təminat olaraq həm də pis rəftar barədə iddiaların və sübutların təqdim edilməsinə imkan verən səmərəli hüquq müdafiə vasitələrinin təmin edilməsi baxımından əhəmiyyətlidir[3]. Avropa İnsan Hüquqları Məhkəməsi təminatların həyata keçirilməsinin təmin olunmamasını gələcəkdə "araşdırma qüsuru" hesab edə bilər[4].

*Təcrübədə polis tərəfindən saxlanılan şəxslərin öz müdafiəçiləri ilə görüşmək hüququ ilə bağlı bir sıra problemlər hələ də qalmaqdadır.* Bu baxımdan xüsusilə *DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi* ilə bağlı bir sıra hallarda müraciətlər daxil olmuşdur. Vəkillərin Ombudsmanın Çağrı Mərkəzinə müraciətlərinin içərisində BMCMİ ilə bağlı şikayətlər çoxluq təşkil etmişdir.

MPQ tərəfindən *DİN-in Göygöl RPŞ MSY-nə* başçəkmə çərçivəsində saxlanılan şəxslər barələrindəki inzibati araşdırma zamanı vəkillə təmin edilmədiklərini bildirmişlər. Saxlanılan şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı vəkildən imtina ilə bağlı hər hansı qeyd və ya protokol aşkar olunmamışdır.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 65.3-cü maddəsinə əsasən inzibati xəta haqqında iş üzrə icraat başlandığı vaxtdan müdafiəçi və nümayəndə inzibati xətalar haqqında işlər üzrə icraatda iştirak

---

[3] Bati və başqaları Türkiyəyə qarşı, AİHM-in 3 iyun 2004-cü il qərarı

[4] Algür Türkiyəyə qarşı, AİHM-in 22 oktyabr 2002-ci il tarixli qərarı

etməyə buraxılırlar. Törədilmiş inzibati xətaya görə fiziki şəxs barəsində inzibati qaydada tutma tətbiq edildiyi hallarda müdafiəçi həmin şəxs inzibati qaydada tutulduğu vaxtdan inzibati xəta haqqında iş üzrə icraatda iştirak etməyə buraxılır. Həmin məcəllənin 91.0.7-ci maddəsinə görə səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati qaydada tutulmuş şəxsin öz vəkili olmadıqda, ona müvəqqəti saxlama yeri üzrə ərazidəki vəkil qurumlarında fəaliyyət göstərən vəkillərin siyahısını təqdim etməli, seçilmiş vəkillə əlaqə saxlamaq və onunla görüşmək imkanı yaratmalıdır.

Lakin saxlanılan şəxsin şəxsi işində vəkillə təmin edilmə və ya imtina barədə qeydlərin olmaması İnzibati Xətalar Məcəlləsinin qeyd olunan təminatlarının həyata keçirilməməsi barədə əsaslı şübhələr yaratmışdır.

*Daşkəsən RPŞ-nin MSY*-nə həyata keçirilən başçəkmə çərçivəsində saxlanılan şəxslər barələrindəki inzibati araşdırma zamanı vəkillə təmin edilmədiklərini bildirdilər. Saxlanılan şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı vəkildən imtina ilə bağlı hər hansı qeyd və ya protokol aşkar olunmamışdır. Daşkəsən RPŞ-dən qeyd olunan məsələ ilə bağlı bildirilmişdir ki, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs tərəfindən vəkildən imtina oluması barədə tərtib olunmuş protokol müvafiq məhkəmədə materialların içində saxlanılır və bu səbəbdən də saxlanılan şəxsin şəxsi işinin içində olmur.

*Şəmkir RPŞ MSY-də* saxlanılan şəxslər barələrindəki inzibati araşdırma zamanı vəkillə təmin edilmədiklərini bildirdilər. Saxlanılan şəxslərin şəxsi işləri ilə tanışlıq zamanı vəkildən imtina ilə bağlı hər hansı qeyd və ya protokol aşkar olunmamışdır.

Oxşar situasiya *Samux və Biləsuvar RPŞ-yə* keçirilən başçəkmələr zamanı da müşahidə olunmuşdur.

Qeyd olunmalıdır ki, vəkillə görüşə icazə verilməsinin gecikdirilməsi AİHM-in Azərbaycana qarşı elan etdiyi müəyyən məhkəmə qərarlarında İHAK-ın 3-cü maddəsinin aşkar edilmiş prosessual pozuntuların mühüm elementlərindən biri kimi göstərilmişdir[5].

*Müvəkkil qeyd olunanları nəzərə alaraq, saxlanılan şəxslərin hüquqi yardım almaq, müdafiəçiləri ilə görüşmək hüquqlarının təmin edilməsinin vacibliyini vurğulayır, bu sahədə əməkdaşlara ünvanlanan maarifləndirmə işinin aparılmasını və nəzarətin gücləndirilməsini təklif edir.*

*Müvəkkil eyni zamanda insan hüquqlarının müdafiəsində vəkillik institutunun əhəmiyyətini nəzərə alaraq, ölkədə vəkillərin sayının artırılması, onlara dövlət hesabına hüquqi yardım müqabilində edilən ödənişlərin məbləğinin yüksəldilməsi və fəaliyyətlərinin dəstəklənməsi ilə bağlı aidiyyəti qurumlara təkliflərlə müraciət edir.*

*Vahid və hərtərəfli qeydiyyat sistemi.* İstər beynəlxalq təcrübə, istərsə də milli qanunvericilik və başçəkmələrin təhlili göstərir ki, saxlanılan şəxslə

---

[5] Məmmədov (Cəlaloğlu) Azərbaycana qarşı, AİHM-in 11 yanvar 2007-ci il tarixli qərarı

bağlı vahid və hərtərəfli nəzarət qeydiyyatı aparılarsa, saxlamanın bütün aspektləri və görülən bütün hərəkətlər (saxlama vaxtı və səbəbləri, hüquqlarına dair məlumatlandırma, xəsarətlərin qeydiyyatı, yaxınları və müdafiəçisi ilə əlaqə saxlama, qida, dindirilmə, köçürülmə, sərbəst buraxılma) qeyd olunarsa, saxlanılan şəxslərin qorunma təminatları güclənəcəkdir. Saxlanılan şəxsin vəkilinin də bu qeydiyyat sənədlərinə ehtiyac yarandıqda çıxışı təmin edilməlidir.

*Saxlanılan şəxslərlə bağlı sənədləşmə işində nöqsanlar qalmaqdadır.*

*Göygöl RPŞ*-də sənədlərə və şəxsi işlərə baxış zamanı İXM-nin 528.1-ci maddəsi ilə təqsirli bilinərək Göygöl Rayon Məhkəməsinin qərarı əsasında 10 (on) gün müddətinə inzibati qaydada həbs edilmiş İ.A.-nın şəxsi işinin içindəki məhkəmə qərarının Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 11.06.2014-ci il tarixli qərarı ilə təsdiq edilmiş "İnzibati həbs olunanların Saxlanılma Məntəqələri haqqında Müvəqqəti Əsasnamənin" 2.1.1-ci bəndinin tələbinə baxmayaraq gerbli möhürlə möhürlənməməsi müəyyən edilmiş, nöqsanlarla bağlı MSY-nin rəisinə irad bildirilmiş, MSY rəisi tərəfindən məhkəmənin möhürlü qərarı şəxsi işə əlavə edilərək nöqsan aradan qaldırılmışdır.

*Daşkəsən RPŞ MSY-nin* qeydiyyat kitablarına baxış keçirilən zaman, həmin kitablarda müvafiq qeydlərin aparıldığı müəyyən edilmiş, lakin "MSY-nin sovqat və banderolların qeydiyyatı" kitabında müəssisəyə gətirilmiş sovqatların qeydə alınmadığı aşkar edilmişdir.

*Cəlilabad R*PŞ*-də* saxlanılan şəxslər ilkin dindirmə zamanı vəkillə təmin olunmadıqlarını, hüquqlarının onlara izah edilmədiyini, yaxın qohumlarına məlumat verilmədiyini və müvafiq prosessual sənədlərin surətlərinin onlara təqdim edilmədiyini bildirmişlər.

*Lənkəran ŞRPŞ-də* tutulma protokollarına baxış keçirilərkən saxlanılan şəxslərdən birinin tutulma protokolunda müdafiəçinin, digər bir şəxsin tutulma protokolunda isə özünün imzasının olmadığı müəyyən edilmişdir. D.A.-nın sənədlərinə baxış keçirilərkən tutma və azadetmə ilə bağlı prosessual müddət pozuntusuna yol verildiyi və şəxsin qanunsuz olaraq MSY-də saxlanıldığı müəyyən edilmiş, MPQ üzvlərinin müdaxiləsindən sonra həmin şəxs MSY-dən sərbəst buraxılmışdır.

*Zaqatala RPŞ MSY-də* məhkəmənin qərarı ilə 10 gün müddətinə inzibati həbs edilmiş Z.Ş. yeməkdən imtina etdiyini, telefonla danışığına maneə yaradıldığını bildirsə də, onun şəxsi işinə baxış zamanı yeməkdən imtina etməsinin sənədləşdirilmədiyi müşahidə edilmişdir.

*Xaçmaz RPŞ-də* sənədləşmənin araşdırılması zamanı aşkar edilmiş nöqsanla bağlı müvafiq akt tərtib edilmişdir. Belə ki, müəssisədə saxlanılan şəxsin başçəkmə keçirilən gündən 4 gün əvvəl istintaq təcridxanasına köçürülməsinə baxmayaraq, bu barədə qeydiyyat aparılmamışdır. Bundan

başqa, saxlanılan digər bir şəxsin başçəkmə günündən bir gün öncə müvafiq qərara əsasən azad olunmasına baxmayaraq uçot kitabında qeyd aparılmamışdır.

*Bu baxımdan qeydiyyat-sənədləşmə məsələsinə diqqəti artırılmalı, nəzarət gücləndirilməlidir.*

*Hüquqlar barədə məlumatlandırma.* Azərbaycan Respublikası qanunvericiliyi müxtəlif şəkildə saxlanılan şəxsin hüquqları barədə məlumatlandırılması hüququnu və bu cür məlumatı vermə vəzifəsini təsbit etmişdir. Ölkənin əsas qanunu olan Konstitusiyada, eləcə də Cinayət-Prosessual Məcəllədə, Polis haqqında Qanunda bu normalar əks olunmuşdur.

Azadlığı məhdudlaşdırılmış (saxlanılmış) şəxslər hüquqlarından xəbərsizdirlərsə, həmin hüquqlar dəyərini itirir. Buna görə də polis tərəfindən saxlanılmış şəxslərə onların hüquqları barədə gecikdirilmədən və anlaya bildikləri dildə məlumat verilməlidir. Bunun təmin olunması üçün polis tərəfindən həbsə alınmış şəxslərə həbsə alınmalarının başlanğıcında hüquqlarının dəqiq əks olunduğu yazılı formalar sistematik olaraq verilməlidir. Bundan başqa, həmin şəxslərdən xahiş edilməlidir ki, hüquqları barədə məlumatlandırıldıqlarını təsdiq edən ərizəni imzalasınlar[6].

Polis daxili qanunvericiliyə uyğun olaraq mümkün olan dərəcədə azadlıqdan məhrum edilmiş şəxslərə azadlıqdan məhrum edilmələrinin səbəbləri və onlara qarşı irəli sürülən hər hansı ittiham barədə məlumat verməli, habelə azadlıqdan məhrum edilmiş şəxsləri konkret halda onlara tətbiq edilən prosedur barədə yubanmadan məlumatlandırmalıdır[7].

Bu baxımdan Ombudsman tərəfindən MPQ qarşısında monitorinqlər zamanı saxlanılmış şəxslərin hansı məlumatları aldıqlarını araşdırmaq vəzifə kimi müəyyən edilmişdir.

*Şəmkir RPŞ MSY-də* başçəkmə zamanı kameralarda tutulmuş və həbs edilmiş şəxslərin hüquq və vəzifələri ilə bağlı məlumatlandırıcı materialların olmadığı müəyyən edilmişdir.

*Cəlilabad RPŞ MSY-də* başçəkmə zamanı 28 nəfər saxlanılan şəxslə görüş keçirilmişdir. Saxlanılan şəxslər ilkin dindirmə zamanı vəkillə təmin olunmadıqlarını, hüquqlarının onlara izah edilmədiyini, yaxın qohumlarına məlumat verilmədiyini və müvafiq prosessual sənədlərin surətlərinin onlara təqdim edilmədiyini bildirmişlər.

*Müvəkkil saxlanılan şəxslərin məlumatlandırılması məsələsinə diqqətin artırılmasını zəruri hesab etdiyini təkidlə vurğulayır.*

---

[6] CPT-nin CPT-nin 2001-ci il yanvarın 1-dən dekabrın 31-dək olan dövrü əhatə edən fəaliyyətinə dair12-ci Ümumi Məruzə, 44-cü hissə

[7] Polis etikasına dair Avropa Məcəlləsi, 55-ci maddə

*Ailə üzvləri ilə əlaqə.* Müvəkkil MPQ üzvləri qarşısında saxlanılan şəxslərin ailə üzvləri ilə əlaqə yaratmaq hüququnun həyata keçirilən başçəkmələr zamanı araşdırılmasını bir vəzifə kimi müəyyən etmişdir.

Beynəlxalq standartlar bir qayda olaraq saxlanılmış şəxsin "özünün seçdiyi digər şəxsə" məlumat verilməsini nəzərdə tutur.

Başçəkmə zamanı *Biləsuvar RPŞ MSY-də* saxlanılan 10 nəfər şəxsin hər biri ilə söhbət aparılmış, hüquqları izah olunmuş, hüquqlarının təmin olunma vəziyyəti öyrənilmişdir. Söhbət zamanı, müəyyən edilmişdir ki, saxlanılan şəxslər tutularkən vəkillə təmin edilməmiş, ailə üzvlərinə telefonla məlumat verilməmişdir.

Başçəkmə zamanı *Cəlilabad RPŞ MSY-də* saxlanılan şəxslər onların saxlanılması barədə yaxın qohumlarına məlumat verilmədiyi barədə MPQ üzvlərini məlumatlandırmışlar.

Polis tərəfindən saxlanılan şəxslər saxlanılmaları barədə özlərinin seçdiyi üçüncü şəxsə məlumat vermək, hüquqi yardımdan istifadə etmək və mümkün olduqda özlərinin seçdiyi həkim tərəfindən tibbi müayinədən keçirilmək hüququna malikdirlər[8].

Polis tərəfindən saxlanılan şəxsin üçüncü şəxsə məlumat vermək hüququ, prinspipcə saxlamanın lap əvvəlində təmin edilməlidir[9].

*Müvəkkil saxlanılan şəxslərin qanunvericilikdə, eyni zamanda beynəlxalq standartlarda təsbit olunmuş ailə üzvlərinə məlumat vermək hüququ ilə bağlı təcrübədə rast gəlinən çatışmazlıqlarla bağlı narahatlığını bildirir və qeyd olunan nöqsanların aradan qaldırılması istiqamətində ciddi addımların atılmasının vacibliyini vurğulayır.*

*Saxlama şəraiti ilə bağlı məsələlər. Göygöl RPŞ MSY-də* saxlanılan şəxslərdən İXM-nin 535.1-ci maddəsilə təqsirli bilinərək Göygöl Rayon Məhkəməsinin qərarı əsasında 10 (on) gün müddətinə inzibati qaydada həbs edilən T.M. şöbəyə gətiriləndən sonra MSY-də yaxınları tərəfindən gətirilən sovqatların ona tam çatdırılmadığını bildirmişdir.

Göygöl RPŞ-nin rəis müavini tərəfindən məlumat verilərək, pandemiya ilə əlaqədar ehtiyat tədbirləri görülməsi məqsədilə müəssisədə saxlanılan şəxslərin yaxınları ilə görüşlərin, sovqat və banderolların qəbulunun müvəqqəti olaraq dayandırıldığı, gündə 3 dəfə olmaqla normalara uyğun qaydada saxlanılan şəxslərin qida ilə təmin edildiyi bildirilmişdir.

MSY-nin görüş otağına baxış zamanı həmin otaqda videomüşahidə kamerasının olması müşahidə edilmişdir. Bu hal MSY-də saxlanılan tutulmuş və ya həbs edilmiş şəxslərin vəkillə görüşlərinin konfidensiallığının pozulması kimi qiymətləndirilməlidir. Belə ki, "Həbs yerlərində saxlanılan

[8] Polis etikasına dair Avropa Məcəlləsi, 57-ci maddə

[9] CPT-nin 2001-ci il yanvarın 1-dən dekabrın 31-dək olan dövrü əhatə edən fəaliyyətinə dair 12-ci Ümumi Məruzə, 43-cü hissə

şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 19.1-ci maddəsinə əsasən tutulmuş və ya həbs edilmiş şəxs tutulduğu və ya barəsində həbs qətimkan tədbiri seçilməsi haqqında qərar elan olunduğu andan görüşlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiəçisi və qanuni nümayəndəsi ilə təklikdə görüşə və konfidensial ünsiyyət saxlaya bilər. Həmçinin Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsasən həbs edilmiş şəxsin vəkillə konfidensial şəraitdə danışmaq hüququ hüquqi yardım almaq hüququnun xüsusilə mühüm tərkib hissəsidir ki, məsləhətləşmək və konfidensial təlimatlar almaq imkanı olmasa bu hüquq öz faydasının çox hissəsini itirmiş olar[10].

*Samux RPŞ-nin MSY-nə* başçəkmə zamanı Samux RPŞ-nin MSY-nin hər hansı yeməkxana ilə müqaviləsi və polis şöbəsinin yeməkxanası olmadığından saxlanılan şəxslər üçün yeməyin təşkil edilməsində çətinlik müəyyən edilmişdir.

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası qanununun 20.1-ci maddəsinə əsasən tutulmuş və ya həbs edilmiş şəxslər keyfiyyət baxımından müasir gigiyena tələblərinə və qida normalarına uyğun müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş yemək və maddi-məişət normalarına cavab verən pulsuz yeməklə gündə üç dəfə təmin edilirlər. Həmin yeməklər hazırlanarkən tutulmuş və ya həbs edilmiş şəxslərin yaşı, sağlamlıq vəziyyəti və dini ənənələri nəzərə alınmalıdır.

*Lənkəran Şəhər-Rayon Polis Şöbəsinə* başçəkmə zamanı müəssisədə sıxlıq olduğu, 28 nəfər üçün nəzərdə tutulmuş MSY-də başçəkmə günü 37 nəfərin saxlanıldığı müşahidə edilmişdir. Buna səbəb kimi ərazidə olan regional və ixtisaslaşmış məhkəmələrin sayının çoxluğu göstərilmişdir. Bu isə saxlanma şəraiti ilə bağlı ciddi çətinliklər yaradır.

Həbs edilmiş (saxlanılmış) şəxslərin saxlanıldıqları müddətdə təhlükəsizliyi, sağlamlığı, gigiyenik şəraiti və münasib qidası polis tərəfindən təmin edilməlidir. Polis kameraları ağlabatan ölçüyə, adekvat işıqlandırma və ventilyasiyaya malik olmalı və dincəlmək üçün münasib vasitələrlə təchiz edilməlidir[11].

*Qax RPŞ MSY-də* cari təmir işləri aparılsa da, müvəqqəti saxlama yeri müvafiq standartlara uyğun deyildir. Müvəqqəti saxlama yerində 3 iki nəfərlik, 4 bir nəfərlik kameralar var. Kameraların ölçüləri kiçikdir. İki nəfərlik kameralarda sanitar qovşaqlar bir tərəfdən plastik materiallarla ayrılmışdır. Bir nəfərlik kameralarda isə sanitar qovşaqların ayrılması mümkün olmamışdır.

---

[10] AİHM, Brennan Birləşmiş Krallığa qarşı, 16 oktyabr 2001-ci il qərarı

[11] Polis etikasına dair Avropa Məcəlləsi, 56-cı maddə

MSY kamerasının (yaxud tutulmuş və ya həbs olunmuş şəxsin saxlanıldığı hər hansı növ başqa yerin) ağlabatan ölçüsünün nə qədər olduğu barədə suala cavab vermək çətindir. Belə qiymətləndirməni aparmaq üçün bir çox amillər nəzərə alınmalıdır. Bununla bağlı, CPT bu məsələ ilə bağlı təxmini tövsiyələr verməyə ehtiyac duyur. Hazırda tək adamın bir neçə saat ərzində saxlanılması üçün nəzərdə tutulan kameralar qiymətləndirilərkən aşağıdakı meyardan istifadə edilir (bu, minimal zəruri standart deyil, sadəcə arzu edilən səviyyədir):

Sahə- təxminən 7 kvadrat metr,

Divarlar arasındakı məsafə- 2 metr və ya daha çox,

Döşəmə ilə tavan arasındakı məsafə- 2,5 metr [12]

*Qəbələ RPŞ MSY-də* başçəkmə zamanı tibbi müayinə və tibbi yardımın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18.04.2013-cü il tarixli, 67 nömrəli qərarı ilə təsdiq edilmiş "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi və psixoloji yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması qaydalarının" 2.1-ci hissəsinə zidd olaraq Qəbələ rayon Mərkəzi Xəstəxanasının təcili tibbi yardım şöbəsinin feldşerləri tərəfindən həyata keçirildiyi müəyyən edilmişdir. Növbəti başçəkmələr zamanı bu halın aradan qaldırılmadığı müşahidə olunmuşdur.

Müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin həkimlə görüşmək hüququ olmalı, bu hüquq rəsmən tanınmalıdır. Başqa sözlə, şəxs tibbi müayinə tələb edərsə, həkim gecikdirilmədən çağırılmalıdır. Bundan başqa, həkimlə görüşmək hüququ həm də tutulmuş şəxs özü istədiyi halda özünün seçdiyi həkim tərəfindən tibbi müayinədən keçirilməsi hüququnu ehtiva etməlidir.

Polis tərəfindən azadlığı məhdudlaşdırılmış şəxslər tibbi yardımdan istifadə etmək, o cümlədən özlərinin seçdiyi həkim tərəfindən tibbi müayinədən keçirilmək hüququna malikdirlər[13].

*Azadlıq hüququnun məhdudlaşdırılması və polis tərəfindən qanunsuz saxlama məsələləri.* Ombudsman və onun MPQ-nun üzvləri tərəfindən keçirilən başçəkmələrin, habelə 24 saat fəaliyyət göstərən Ombudsmanın Çağrı Mərkəzinin fəaliyyətinin təhlili nəticəsində polis tərəfindən bir sıra hallarda prosessual normaların pozulması, qanunvericilikdə nəzərdə tutulmuş müddətlərdən artıq polis bölmələrində saxlama halları müşahidə edilmişdir.

Azadlıq hüququnun pozulmasına dair şikayətlərdə öz əksini tapmış halların yoxlanılması ilə bağlı Ombudsman tərəfindən aidiyyəti dövlət qurumlarına müraciətlər ünvanlanmaqla bir çox hallarda bu hüququn təmininə nail olunmuşdur.

---

[12] CPT-nin 1991-ci il yanvarın 1-dən dekabrın 31-dək olan dövrü əhatə edən fəaliyyətinə dair 2-ci Ümumi Məruzə, 43-cü hissə

[13] Polis etikasına dair Avropa Məcəlləsi, 57-ci madə

Ərizəçi Q.K. Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, *Xətai RPİ 35-ci polis bölməsinin* əməkdaşları tərəfindən heç bir əsas olmadan həyat yoldaşının dörd sutka orada saxlanıldığını bildirmiş, müvafiq tədbir görülməsini xahiş etmişdir. Aparılmış araşdırma zamanı həmin şəxsin qanunla müəyyən edilmiş müddətdən artıq saxlanıldığı müəyyən edilmiş və azadlığa buraxılması təmin olunmuşdur. Bununla yanaşı, şikayətdə əks etdirilmiş halların yoxlanılması, habelə gələcəkdə oxşar halların qarşısının alınması məqsədilə Xətai Rayon Prokurorluğuna müraciət edilmişdir.

Ombudsmanın Çağrı Mərkəzinə daxil olmuş müraciətlər arasında *DİN BMCMİ-də* saxlanılma ilə bağlı şikayətlər qeyd olunmalıdır. Xüsusilə vəkillər öz hüquqlarını müdafiə etdiyi müvəkkilləri ilə görüşməkdə, saxlanılma əsasları və səbəbləri ilə bağlı məlumat almaqda çətinlik yaşadıqlarını öz müraciətlərində qeyd etmişlər.

Vəkil Ə. Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, BMCMİ-də saxlanılan şəxslə görüşünə maneə yaradıldığını bildirmiş, məsələ ilə əlaqədar köməklik göstərilməsini xahiş etmişdir. MPQ tərəfindən müraciət araşdırılmış və müdafiəçinin müraciəti təmin olunmuşdur .

Qanunvericilik və prosessual normalar saxlanılmış şəxslərin polisin və digər hüquq-mühafizə orqanlarının ixtiyarında saxlanıldığı müddətləri məhdudlaşdırmağa yönəlib. Lakin təcrübədə belə şəxslərin polis bölmə və idarələrində keçirdikləri müddət prosessual qanunvericiliklə müəyyən edilmiş müddətləri aşır. Polis orqanları bu qanun pozuntularını müxtəlif səbəblərlə əsaslandırmağa çalışsalar da, saxlanılan şəxslərin hüquqları istənilən halda pozulmuş olur.

*İmişli RPŞ*-də saxlanılan G.F. 10 gündən artıq müddətdə MSY-də saxlanılmış, Ombudsmanın Çağrı Mərkəzinə edilmiş müraciət və MPM-in müdaxiləsindən sonra Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 3 saylı İstintaq Təcridxanasına köçürülmüşdür.

Başçəkmə zamanı *Tovuz RPŞ MSY-ə* gətirilən saxlanılan şəxslərdən COVİD-19 testi üçün götürülən yaxmaların cavablarının bir həftəyədək uzanmasının həbs edilmiş şəxslərin istintaq təcridxanasına köçürülməsi üçün qanunvericiliklə müəyyən edilmiş müddətə uyğun gəlmədiyindən çətinliklərə səbəb olduğu müəyyən edilib.

Polis tərəfindən azadlığın məhdudlaşdırılması qısamüddətli olmalıdır. Qanunda göstərilən qısa müddətdən sonra polis tərəfindən saxlanılmış şəxs ya azad edilməli, ya da saxlanılmanın davam etməsi haqqında qərar verilməsi üçün şəxs hakim qarşısına çıxarılmalıdır.

*Pis rəftar hallarının araşdırılması məsələləri.* Ombudsmanın MPM qismində fəaliyyəti çərçivəsində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə, o cümlədən DİN müəssisələrində həyata keçirilən başçəkmələr çərçivəsində pis rəftar ehtimalı ilə bağlı müraciətlər

Ombudsmanın səlahiyyətləri çərçivəsində yerində araşdırılmışdır. Qəbul edilmiş hər bir şəxsin, habelə tutulmuş, həbs edilmiş şəxslərin, onların ailə üzvlərinin, vəkillərinin müraciətinə dərhal reaksiya verilməklə həmin müəssisələrdə saxlanma şəraiti və ya rəftar məsələləri, məhkəmə-tibb ekspertizasının təyin edilməsi və keçirilməsi, saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyəti araşdırılmaqla müvafiq qaydada Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Daxili İşlər Nazirliyinə, Ədliyyə Nazirliyinə və digər səlahiyyətli qurumlara müraciətlər edilmiş, araşdırmalar aparılmış və bütün hallarda müraciətlər cavablandırılmışdır.

Konstitusiya Qanunu və Fakültativ Protokolun tələblərinə uyğun olaraq, Müvəkkil işgəncə və pis rəftar halları ilə bağlı preventiv, funksiyaları həyata keçirərək işgəncə və pis rəftara şərait yarada biləcək halların dairəsini müəyyən etmək yolu ilə insanların şərəf və ləyaqətinin müdafiəsi hüququnun qorunması işinə öz töhfəsini verir.

Pis rəftar hallarının hüquqi qiymətləndirilməsi (post-factum) ümumqəbuledilmiş *səlahiyyətlilik* prinsipinə əsaslanır. Belə ki, araşdırma orqanları iş üzrə faktları müəyyən etmək və zərurət olduqda məsuliyyət daşıyanları aşkara çıxarmaq və cəzalandırmaq üçün tam səlahiyyətə malik olmalıdırlar.

*Müvəkkil pis rəftar barədə iddiaların araşdırılması və hüquqi qiymətləndirilməsi prosesində müvafiq hüquq-mühafizə orqanlarına ölkə qanunvericiliyi ilə yanaşı, CPT standartlarına uyğun olaraq effektivlik, müstəqillik, dəqiqlik, hərtərəflilik, ağlabatanlıq və sürətlilik prinsiplərinə riayət etməklə təhqiqat və istintaqın aparılmasının vacibliyini xatırladır.*

**Penitensiar Xidmətin müəssisələrində saxlanma şəraiti və rəftar məsələləri**. Ombudsman həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının təmini, o cümlədən müraciətlərin araşdırılması və həbs yerlərinə başçəkmələrin keçirilməsi üzrə fəaliyyətini davam etdirmişdir.

*Cərimə təcridxanasına keçirmə və saxlanma şəraiti məsələləri*. Penitensiar Xidmətin bəzi müəssisələrində saxlanma şəraiti ilə bağlı çatışmazlıqlar hələ də qalmaqdadır. Təmir işlərinə ehtiyac müxtəlif müəssisələrdə müxtəlif formada özünü büruzə verir. Bəzi hallarda kompleks təmir-tikinti işlərinə (2 saylı İstintaq Təcridxanası) ehtiyac varsa, bir sıra müəssisələrdə (5 saylı Cəzaçəkmə Müəssisəsində cərimə təcridxanası) müəyyən hissələrdə təmir işlərinin aparılması zərurəti açıq şəkildə meydana çıxır.

Məlum olduğu kimi, cərimə təcridxanaları özü-özlüyündə saxlanma şəraiti normaları və qaydaları baxımından ciddi məhdudlaşdırıcı xüsusiyyətlərə malikdir. Bu baxımdan saxlanma şəraitinin cərimə təcridxanalarında normalara tam cavab verməməsi əlavə məhdudiyyət və

məhrumiyyətlərə səbəb ola bilər. *Bu baxımdan PX-in 5 saylı CÇM-də cərimə təcridxanasının vəziyyəti narahatlıq doğurur.*

CPT məhkumların hər hansı səbəblərə görə (o cümlədən, intizam məqsədləri üçün) təkadamlıq kameraya salınmağa bənzər şəraitdə saxlanılması məsələsinə xüsusi diqqət yetirir. Təkadamlıq kameraya (bu halda cərimə təcridxanası) salınma müəyyən hallarda qeyri-insani və ya ləyaqəti alçaldan rəftara bərabər ola bilər və bu baxımdan təkadamlıq kameraya salınmanın bütün formaları mümkün qədər qısamüddətli olmalıdır.

*Müvəkkil Penitensiar Xidmətin müəssisələrində cərimə təcridxanalarının vəziyyətinin nəzarətdə saxlanılmasını, saxlanma şəraitinin yaxşılaşdırılmasını vacib sayır və Ədliyyə Nazirliyini bu məsələni diqqətdə saxlamağa çağırır.*

Bəzi hallarda təcridetmədən müdafiə tədbiri qismində istifadəsinə ehtiyac yaranır. Bu halda məhkumun təcrid rejimi intizam sanksiyası qismində təcrid olunmuş məhkuma tətbiq edilən rejimə nisbətən daha az məhdudlaşdırıcı olmalıdır.

Cərimə təcridxanasına keçirilmə tətbiq olunduğu halda, qeyri-müəyyən xarakterli, uzunmüddətli və təkrarlanan olmamalıdır.

Gəncə şəhərində yerləşən 2 saylı İstintaq Təcridxanasına keçirilmiş başçəkmə zamanı cərimə təcridxanasında saxlanılanların qeydiyyatı jurnalına baxış keçirilmiş, 2020-ci ilin ilk ayı ərzində 11 nəfər şəxsə cərimə otağına keçirilmə tənbeh tədbiri tətbiq edildiyi müəyyən edilmişdir.

Cəza qismində təkadamlıq kameraya salınmanın ləğvinə və ya ondan istifadənin məhdudlaşdırılmasına səylər göstərilməlidir.[14]

*Cəzaçəkmə müəssisələrində cərimə təcridxanasına keçirilmə təcrübəsinə mümkün qədər az müraciət edilməsini dünya praktikası və CPT standartlarına əsaslanaraq tövsiyə edilir.*

Eləcə də, Penitensiar Xidmətin bəzi müəssisələrində maddi şərait və təminatla bağlı nöqsanların olması MPQ tərəfindən həyata keçirilən başçəkmələr zamanı müəyyən edilmişdir.

*Şəki Penitensiar Müəssisəsində* başçəkmə zamanı yataq ləvazimatlarının çirkli, bir hissəsinin isə yararsız olduğu müşahidə edilmişdir. Saxlanılan şəxslər konfidensial söhbət zamanı yataq ləvazimatlarının uzun müddətdir dəyişdirilmədiyini bildirmişlər.

İstintaq təcridxanalarının daxili intizam qaydalarının 5.6-cı bəndinə əsasən yataq ləvazimatları həftədə bir dəfədən az olmayaraq dəyişdirilməlidir.

[14] Hər hansı formada tutulan və ya həbsə alınan bütün şəxslərin müdafiəsi üçün prinsiplər toplusu, BMT Baş Assambleyassının 43/173 saylı qətnaməsi ilə təsdiq olunmuş 9 dekabr 1988 –ci ildə qəbul edilmiş qətnamə, 7-ci prinsip

Hər bir məhkum ayrıca çarpayı ilə, habelə verilən zaman təmiz olan, yararlı vəziyyətdə saxlanılan və təmizliklərini təmin etmək üçün kifayət qədər tez-tez dəyişdirilən ayrıca yataq ləvazimatları ilə təmin edilməlidir[15].

Ötən dövrlərdə olduğu kimi, 2020-ci ildə də 2 saylı İT saxlanma şəraiti ilə bağlı nöqsanlarla "fərqlənmişdir". Xüsusilə sanitariya-gigiyena normaları ilə bağlı çatışmazlıqlar qeyd edilməlidir. Bu baxımdan Gəncə şəhərində inşa olunan yeni penitensiar müəssisənin tikinti işlərinin yekunlaşdırılmasının vacibliyini növbəti dəfə vurğulayırıq.

*Müxtəlif kateqoriyalı şəxslərin ayrı saxlanılması.* Məhkumlar və təqsirləndirilən şəxslər arasında müxtəlif kateqoriyadan olan şəxslərin ayrı saxlanılmasını tənzimləyən prinsip onların müdafiəsini və spesifik tələbatlarının və ya statuslarının tanınmasını nəzərdə tutur.

Adətən həmin şəxslər aşağıdakı əlamətlərə görə ayrı saxlanılır:

-Cins və yaş əlamətinə görə, yəni kişilər qadınlardan, azyaşlılar yetkinlik yaşına çatanlardan ayrı saxlanılır;

-Hüquqi statusuna görə, yəni məhkum olunmuşlar tutulmuş və ya həbs edilmiş şəxslərdən ayrı saxlanılır.

Qeyd olunan əlamətlər universal xarakter daşıyır. Milli qanunvercilik və beynəlxalq standartlar təbii ki, əlavə meyarları da nəzərdə tuta bilər.

Beynəlxalq təcrübəyə görə eyni zamanda məhkumların ayrı saxlanılması məhkum üçün riskin obyektiv qiymətləndirilməsinə də əsaslanmalıdır. Müdafiə zərurəti olduqda məhkumlar ayrı saxlanılmaq barədə müraciət etmək imkanına malik olmalıdırlar. Bəzi məhkumlar, məsələn etnik mənşələrinə, dini əqidələrinə, seksual oriyentasiyalarına görə təhlükəsizliklərinə qarşı digər məhkumlar tərəfindən konkret təhdidlərin olması səbəbindən ayrı saxlanılmağa ehtiyac duya bilərlər.

Bəzi hallarda ayrı saxlanılma müxtəlif kateqoriya məhkumlara əlverişsiz təsir göstərə bilər. Başçəkmələr zamanı MPQ tərəfindən bu məsələ diqqətdə saxlanılmışdır.

*Şəki Penitensiar Müəssisəsinin* istintaq təcridxanasında saxlanılan 2005-ci il təvəllüdlü O.M. adlı şəxsin yetkinlik yaşına çatmış şəxslərlə birgə saxlanıldığı müəyyən edilmişdir.

*2 saylı İstintaq Təcridxanasında* yetkinlik yaşına çatmayan Ə.M. 3 nəfər yetkinlik yaşına çatmış şəxslərlə birgə saxlanılmışdır.

İstintaq təcridxanalarının Daxili intizam qaydalarının 5.11.2-ci maddəsinə görə yetkinlik yaşına çatmayan şəxslərlə yetkinlik yaşına çatanlar ayrı-ayrılıqda saxlanılmalıdır.

---

[15] Avropa Penitensiar Qaydaları, 24-cü qayda

Yetkinlik yaşına çatmayan hüquq pozuntusu törətmiş şəxslər digər şəxslərdən ayrı saxlanılmalı və saxlama şəraiti məsələsində onlarla yaşlarına və hüquqi statuslarına uyğun rəftar edilməlidir[16].

Bütün azadlıqdan məhrumetmə yerlərində yetkinlik yaşına çatmayanlar digər şəxslərdən ayrı saxlanılmalıdır, onların yetkin yaşlı ailə üzvləri istisnadır. Yetkinlik yaşına çatmayan müvafiq şəxslər üçün səmərəli olduğu təsdiq edilmiş xüsusi proqramın tərkib hissəsi qismində, yetkinlik yaşına çatmayanlar, saxlama şəraiti nəzarət altında olmaqla, diqqətlə seçilmiş yetkin yaşlılarla birgə saxlana bilərlər[17].

Yetkinlik yaşına çatmayanlar onları zərərli təsirlərdən mümkün qədər qoruyan və yaşlarına xas olan tələbatlarını nəzərə alan şəraitdə saxlanılmalıdır[18].

*Qida qəbulundan imtina hüququ.* Tutulmuş və ya həbs edilmiş şəxsin *qida qəbulundan* imtina etməsinə dair Ombudsmana ünvanlanmış ərizələr, Çağrı Mərkəzində qeydə alınmış zənglər, başçəkmələr zamanı aparılan araşdırmalar, kütləvi infromasiya vasitələrində gedən məlumatların təhlili onu göstərir ki, son dövrlərdə, o cümlədən hesabat dövrü ərzində saxlanılan şəxslərin qida qəbulundan imtina etməsi və ya imtina etmək barədə müvafiq iddiaları hələ də qalmaqdadır.

Qeyri-obyektiv istintaq, ədalət mühakiməsi prosesindən narazılıq "aclıq aksiyası" üçün əsas səbəblər kimi müraciətlərdə göstərilir.

2020-ci ildə mətbuatda yeməkdən imtina etməsi ilə bağlı məlumat yayılmış Tofiq Yaqublu saxlandığı müəssisədə qəbul edilmiş, səhhəti diqqətdə saxlanılmış, Ombudsmanın səlahiyyətləri daxilində məsələ qaldırılmışdır[19]. Növbəti mərhələdə məhkəmə qərarı ilə T.Yaqublu barəsində həbs qətimkan tədbiri ev dustaqlığı ilə əvəz edilmişdir.

Başqa bir misalda, qida qəbulundan imtina edən Emin Saqiyev[20], Əfqan Sadıqov[21], Vüqar Əliyev və digər şəxsləri göstərə bilərik ki, onlar da MPQ tərəfindən qəbul edilmişdir.

Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin BİT, 3 saylı İT, 6 və 17 saylı cəzaçəkmə müəssisələrində, İxtisaslaşdırılmış Müalicə Müəssisəsində qidadan imtina ilə bağlı müraciətlər MPQ tərəfindən araşdırılmışdır.

*Aparılan təhlillər göstərir ki,* qida qəbulundan *bağlı qanunvericilikdə və təcrübədə müəyyən məsələlərin öz həllini tapmasına ehtiyac vardır.*

---

[16] Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarının yerinə yetirilməsinə dair İnsan hüquqları Komitəsinin Ümumi Şərhləri, 13-cü bənd

[17] Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair BMT qaydaları, 1990

[18] Avropa Penitensiar Qaydaları, 11-ci qayda

[19] https://www.turan.az/ext/news/2020/9/free/politics%20news/az/127375.htm

[20] https://www.amerikaninsesi.org/a/emin-saqiyev-19-g%C3%BCnd%C3%BCr-acl%C4%B1q-edir-t%C9%99l%C9%99bl%C9%99ri-dinl%C9%99nilmir-/5571889.html

[21] https://apa.az/az/sosial_xeberler/Ombudsman-Aparati-fqan-Sadiqovla-bagli-mlumat-yayib-618079

Belə ki, praktikada penitensiar xidmətin əməkdaşları və müəssisə rəhbərliyi qidadan imtina edən məhkumdan bu barədə xüsusi, müəssisə rəhbərliyinin adına ünvanlanmış ərizənin yazılmasını istəyir, bu cür ərizə yazılmadan və qeydiyyata alınmadan yeməkdən imtinanı de-yure baş tutmuş saymırlar. *Halbuki, qanunvericilikdə belə bir tələb müəyyən edilməmişdir.* "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 42-ci maddəsi tutulmuş və ya həbs edilmiş şəxs yeməkdən imtina etdikdə görülən tədbirləri müəyyən edir.

*Xüsusi vasitələrin tətbiqi.* İşgəncə və pis rəftara səbəb ola biləcək hallar arasında məhdudlaşdırıcı vasitələrdən istifadə və bu istifadənin ağlabatan hədləri məsələsi xüsusilə əhəmiyyətlidir.

Tətbiqinə icazə verilən bütün məhdudlaşdırıcı vasitələrdən yalnız müstəsna hallarda istifadə edilməlidir. Ümumqəbuledilmiş beynəlxalq yanaşmaya görə məhkumlara tətbiq edilən məhdudlaşdırıcı vasitələr zəruri olan minimum müddət ərzində tətbiq edilməli, məhdudlaşdırıcı vasitələrdən (eyni zamanda gücdən) istifadə qeydiyyat kitabında qeyd edilməli, rəhbərliyə bu barədə dərhal məlumat verilməlidir.

Məhdudlaşdırma alətləri, məsələn qandallar, zəncirlər və hərəkətləri məhdudlaşdıran köynəklər cəza qismində heç vaxt tətbiq edilməməlidir. Aşağıdakı məqsədlər üçün istisna qismində çıxış edə bilər:

a) Başqa yerə köçürülmə zamanı qaçışın qarşısını almaq üçün ehtiyat tədbiri kimi istifadə; bu şərtlə ki, məhkum məhkəmə orqanının və ya inzibati orqanın qarşısına gətirildikdə həmin vasitələr çıxarılmaldır;
b) Həkimin göstərişi əsasında tibbi səbəblərə görə istifadə;
c) Məhkumun özünə və ya başqalarına xəsarət yetirməsinin və ya əmlaka ziyan vurmasının qarşısını almaq üçün müəssisənin rəisinin əmri əsasında istifadə; belə hallarda rəis dərhal həkimlə məsləhətləşməli və yuxarı inzibati orqana məlumat verməlidir[22].

Penitensiar Xidmətin 2 saylı İstintaq Təcridxanasında yerləşən cərimə təcridxanası kamerasında saxlanılan S.O.-nun əməliyyat arayışı əsasında təcridxana rəsinin qərarı ilə özünə xəsarət yetirməsinin qarşısını almaq üçün 7 gün müddətinə bir nəfərlik kameraya yerləşdirildiyi, saxlanılan şəxsin qollarının qandallarla bağlandığı, həmçinin onun boğaz nahiyyəsində tikilmiş kəsik izi müşahidə olunmuşdur. Təcridxana rəhbərliyi saxlanılan şəxsə qandalların "Azərbaycan Respublikasının penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları haqqında Təlimat"a uyğun olaraq, akt əsasında tətbiq olunduğunu bildirmişdir. Ombudsmanın MPQ üzvləri həmin şəxslə təklikdə görüş zamanı o, barəsindəki ədalətsiz

[22] Məhkumlarla rəftara dair minimal standart qaydalar, 33-cü qayda

məhkəmə qərarına etiraz əlaməti olaraq özü boğazını kəsdiyini, ona qarşı təcridxana əməkdaşları tərəfindən hər hansı zorakılığa yol verilmədiyini bildirmişdir.

*Saxlanılan şəxsə xüsusi vasitələrin uzun müddət ərzində tətbiqi bu tədbirin mövcud vəziyyətə adekvatlığı və zəruri olması haqqında kifayət qədər şübhələr yaratdığından bu hal qeyri-insani rəftar baxımından Müvəkkil tərəfindən narahetdici məqam kimi qeyd edilir.*

Xüsusi vasitələrdən istifadənin icazə verilən növləri və üsulları qanunla və digər normativ aktla müəyyən edilir. Belə vasitələr zəruri olan müddətdən artıq tətbiq edilməməlidir[23].

Fiziki məhdudlaşdırma alətlərinə əl atmağın tələb olunduğu nadir hallarda müvafiq məhkum mütəmadi və adekvat nəzarət altında saxlanılmalıdır. Bundan başqa, imkan yaranan kimi xüsusi vasitələr mümkün qədər tezliklə çıxarılmalıdır; onlar heç vaxt cəza məqsədi ilə tətbiq edilməməli və ya onların tətbiqinin müddəti cəza məqsədi ilə uzadılmamalıdır. Nəhayət, məhkumlara qarşı gücün tətbiq olunduğu hər bir hal qeydə alınmalıdır[24].

*Müvəkkil xüsusi vasitələrdən istifadə hallarının minumumlaşdırılmasına, bu zaman zəruri olan təminatlara tam həcmdə riayət edilməsinə çağıraraq bundan sonra da məhdulaşdırıcı vasitələrin tətbiqi məsələlərini MPM mandatı çərçivəsində fəaliyyətində diqqətdə saxlayacağını vurğulayır.*

*Qeydiyyatın aparılması müdafiə tədbiri qismində.* Vahid və sistemli qeydiyyat işinin aparılması mühüm müdafiə tədbiridir. Bu cür qeydiyyat dövlət orqanlarının işinin şəffaflığını təmin etməyə imkan verir. Digər tərəfdən tam və hərtərəfli qeydiyyatın aparılması azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsini təmin etməkdə mühüm təminat kimi çıxış edir.

Qeydiyyatla bağlı monitorinqlər zamanı məhkumun (həbs olunmuş şəxsin) kimliyi, azadlıqdan məhrumetmənin səbəbləri, həbsin müddəti, məhkumun müəssisəyə gətirildiyi vaxt, şəxsin müəssisəni tərk etdiyi (istintaq və məhkəmə iclası üçün) və oraya qayıtdığı vaxt, azadlıqdan məhrumetmə yerini tərk edərkən və oraya gələrkən şəxsin səhhəti və fiziki vəziyyəti, onun məhkəmə qarşısına çıxarılması, tənbeh tədbirləri kimi məsələlər araşdırma predmeti qismində çıxış edir.

*Penitensiar Xidmətin 2 saylı İstintaq Təcridxanasında* Daxili İntizam Qaydalarının 9.4-cü bəndinin tələblərinə baxmayaraq sovqat qəbulu zamanı 3 nüsxəli ərizə doldurulmalı olduğu halda 1 nüsxə ilə kifayətlənildiyi müəyyən edilmişdir. Eyni zamanda cərimə təcridxanasına keçirilmə ilə bağlı

---

[23] Məhkumlarla rəftara dair minimal standart qaydalar, 40-cı qayda

[24] CPT-nin 1991-ci il yanvarın 1-dən dekabrın 31-dək olan dövrü əhatə edən fəaliyyətinə dair 2-ci Ümumi Məruzə, 53-cü hissə

qeydiyyatda nöqsanların olduğu, sonuncu qeydiyyatın başçəkmədən 3 gün əvvəl aparıldığı aşkar edilmişdir. Halbuki Daxili İntizam Qaydalarının 35.1-ci maddəsinə əsasən istintaq təcridxanalarının rəisləri, onların müavinləri, xidmət sahələrinin rəisləri, böyük inspektorlar, tibb işçiləri hər gün cərimə təcridxanasına və birnəfərlik kameralara baş çəkməli və bu barədə qeydlər aparmalıdırlar.

Həbs olunmuş şəxslərin səmərəli müdafiəsi üçün qeydiyyat məsələlərinin əhəmiyyəti beynəlxalq standartlarda da mütləq şərt kimi qeyd olunmuşdur[25].

*Müvəkkil penitensiar müəssisələrdə vahid, hərtərəfli və səmərəli qeydiyyat sisteminin əhəmiyyətini xatırladır.*

*Penitensiar Xidmət əməkdaşlarının hazırlığı məsələləri.* Penitensiar Xidmətin əməkdaşlarının hazırlığı məsələsi cəza-icra fəaliyyətinin həyata keçirilməsi baxımından əhəmiyyətli olmaqla yanaşı, saxlanılan şəxslərin hüquqlarının təminatı baxımından da mühümdür. Peşəkar, qanunvericiliyin tələblərini bilən və dəqiq yerinə yetirən personal günün vacib tələblərindən biridir.

Həbsxana personalı kifayət qədər təhsilli və inkişaf etmiş olmalıdır. İşə qəbuldan sonra və karyeraları ərzində həbsxana personalı öz biliklərini və peşə bacarıqlarını mühafizə etməli və işdən ayrılmadan mütəmadi olaraq təşkil edilən hazırlıq kursları keçməklə bilik və bacarıqlarını artırmalıdırlar[26].

Həbsxana personalına elə təlim keçilməlidir ki, onlar öz vəzifələrini səmərəli şəkildə icra edə bilsinlər; xüsusən onlara yetkinlik yaşına çatmayanlarla bağlı təlimlər keçilməlidir[27].

Penitensiar Xidmətin əməkdaşlarına ünvanlanmış maarifləndirici xarakterli söhbətlərin dairəsinin genişləndirilməsinə ehtiyac vardır.

*Müvəkkil Ədliyyə Akademiyası tərəfindən həyata keçirilən təlimlərdə penitensiar müəssisələrdə saxlanma şəraiti və rəftar məsələləri ilə bağlı proqramın ciddi şəkildə genişləndirilməsini tövsiyə edir.*

***Psixiatriya müəssisələri ilə bağlı.*** Ümumqəbuledilmiş beynəlxalq təcrübə göstərir ki, psixiatriya müəssisələri orada saxlanılan və müalicə edilən şəxslərin hüquqlarının pozulması üçün potensial ən "əlverişli" saxlama yerləri sayılır. Belə ki, bu müəssisələrdə azadlığı məhdudlaşdırılmış şəxslər öz hüquqlarını müdafiə etmək üçün zəruri bilik və vərdşiləri adekvat anlamaq və seçim etmək imkanından məhrumdurlar. Bu baxımdan psixiatriya müəssisələrində saxlama şəraiti, rəftar məsələləri, eyni zamanda hüquqların

[25] Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarının yerinə yetirilməsinə dair İnsan hüquqları Komitəsinin ümumi şərhləri -20, 11-ci bənd

[26] Məhkumlarla rəftara dair minimal standart qaydaları, 47-ci qayda

[27] Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair BMT qaydaları(1990), 85-ci qayda

müdafiəsi üçün zəruri olan təminatlar məsələsi öz aktuallığını istənilən dövrdə, o cümlədən pandemiya və xüsusi karantin şəraitində saxlamışdır.

Psixiatriya müəssisələrində kadr çatışmazlığı problem olaraq qalmaqdadır. Bu və ya digər səbəblərdən gənc tibbi kadrlar psixiatriya sahəsini seçməyə, o cümlədən dövlət tibb müəssisələrində işləməyə maraq göstərmirlər. Burada əsas səbəb kimi psixiatrların sosial təminat, məvacib məsələlərini qeyd etmək mümkündür. Ümumiyyətlə, tibbi və yardımçı personalın sayının azlığı, o cümlədən yetkinlik yaşına çatmayan şəxslərə və gənclərə münasibətdə də personalın sayının az olduğu vurğulanmalıdır.

*Müvəkkil bu sahədə köklü dəyişikliklərin edilməsi üçün ciddi addımların atılmasını, bu sferada xarici təcrübə əsas götürülməklə yeni yanaşmaların tətbiqini tövsiyə edir.*

MPQ tərəfindən həyata keçirilən monitorinqlər Müvəkkil tərəfindən araşdırma predmeti kimi müəyyən edilən bir sıra məsələlərdə köhnə təcrübənin hələ də geniş tətbiq olunduğu fikrini deməyə imkan verir. *1 saylı Respublika Psixiatriya Xəstəxanasında izolyasiya otağının hələ də mövcud olması təəssüf hissi ilə qeyd olunmalıdır.*

*CPT tövsiyələrində təcridetmə otaqlarından və xüsusi vasitələrdən imtina ilə bağlı çağırışları Müvəkkil bir daha xatırladır.*

Psixi pozuntuları olan şəxslər üçün icma əsaslı proqramların, bu tipli yaşayış yerlərinin yaradılması, pasiyentlərin bacarıq və maraqlarını nəzərə almaqla palatadan kənar ərazidə əməklə məşğul olmaq imkanlarının genişləndirilməsi və bu sahədə müvafiq işlərin görülməsi müalicənin effektivliyinə müsbət töhfə verə bildiyindən, yeni yanaşmaların tətbiqinə ehtiyac vardır. Yunanıstan, Portuqaliya və başqa Avropa dövlətlərinin təcrübəsində müalicə-reabilitasiya tədbirlərinin effektivliyi baxımından icma əsaslı proqramların tətbiqinə geniş yer verilir. Müəssisələrin yerləşdiyi coğrafi mövqe və yeni inşa olunanlarda bu kimi məsələlərin nəzərə alınması, habelə xarici ölkələrin təcrübəsindən faydalanmaq məqsədəmüvafiq olardı.

Bəzi müəssiələrdə sıxlıq hallarının qaldığı qeyd edilməldir. Yaşayış sahəsi və sıxlıqla bağlı məsələlər beynəlxalq standartlarda ən çox vurğulanan problemlər sırasındadır[28].

*Bəzi hallarda psixiatriya müəssisələrində xəstələrin diaqnoza uyğun qalma müddətləri, onların evə yazılması, xəstə yaxınlarının pasiyentləri evə qəbul etməkdən imtinası ilə bağlı problemlərə də rast gəlinir.*

Məsələn, A.H.-nın *1 saylı Psixiatriya Xəstəxanasına* əsassız yerləşdirilməsi ilə bağlı iddianın araşdırılması məqsədilə Milli Preventiv Qrupun üzvləri tərəfindən həmin müəssisəyə başçəkmə həyata keçirilərək şəxslə konfidensial görüşülmüşdür. Eyni zamanda onun vəkili Ombudsmana

[28] CPT standartları. Ümumi məruzələrin əsas məqamları. s 63 CPT/Inf/E (2002) 1-REV.2015

müraciət edərək, Bakı Apellyasiya Məhkəməsinin qətnaməsinə əsasən 1 saylı Respublika Psixiatriya Xəstəxanasına qeyri-könüllü yerləşdirilmiş A.H.-nın yenidən həkim-psixiatr komissiyasından keçirilməsində və azadlığa buraxılmasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətdə əks etdirilmiş halların yoxlanılması, müvafiq tədbirlərin görülməsi məqsədilə Ombudsman tərəfindən Səhiyyə Nazirliyinə sorğu göndərilmişdir. Ombudsmanın müraciəti nəzərə alınmaqla, A.H. Həkim Məsləhət Komissiyasına təqdim olnmuş və komissiyanın qərarı ilə evə yazılmışdır.

Qeyd edilən məsələlərə diqqətin artırılması, müvafiq prosedurların tənzimlənməsi istiqamətində standartların işlənib hazırlanmasına ehtiyac vardır.

*Müvəkkil psixiatriya xəstəxanalarında saxlanılan, müalicə müddəti bitmiş, lakin ailə üzvləri və yaxınları tərəfindən qəbul edilməyən və psixiatriya müəssisələrində qalan pasiyentlərin qəbul edilməsi üçün sosial xidmət müəssisələrində limitin artırılmasının vacibliyini qeyd edir.*

*Psixiatriya xəstəxanalarında saxlanılan, müalicə müddəti bitmiş, lakin ailə üzvləri və yaxınları tərəfindən qəbul edilməyən və psixiatriya müəssisələrində qalan pasiyentlərin sosial xidmət müəssisələrinə köçürülməsi üçün ƏƏSMN ilə Səhiyyə Nazirliyi arasında koordinasiya işinin təkmilləşdirilməsi zərurəti vardır.*

Monitorinq və araşdırmalar zamanı bir sıra hallarda pasiyentlərin yaxınlarının dövlət tərəfindən təyin olunmuş müavinətləri mənimsəmək üçün məqsədli şəkildə onların xəstəxanada qalmasına çalışması halları barədə məlumat daxil olmuşdur. Belə ki, bəzi hallarda remissiya vəziyyətində olan, evə yazılan pasiyentlərin ailə üzvləri tərəfindən qəsdən dərmandan məhrum edilməsi, bunun nəticəsində yenidən vəziyyətləri pisləşən xəstələrin psixiatriya müəssisələrinə qaytarılması baş verir ki, nəticə etibarilə bu müavinətin bərpası və məbləğin ələ keçirilməsinə gətirib çıxarır.

*Müvəkkil bu kimi neqativ halların qarşısının alınması üçün ƏƏSMN tərkibində olan sosial xidmət müəssiələrinə bu kateqoriyadan olan şəxslərin yerləşdirilməsini, sosial işçilər tərəfindən nəzarət edilməklə orada saxlanılmaları variantını və bununla əlaqədar normativ-hüquqi aktlarda zəruri dəyişikliklərin edilməsini, zəruri prosedurların işlənib hazırlanmasını təklif edir.*

MPQ tərəfindən aparılan təhlil işi onu da göstərir ki, psixiatriya müəssisələrindən evə buraxılan şəxslərlə işləmək üçün peşəkar sosial işçi çatışmazlığı həm paytaxtda, həm də bölgələrdə müşahidə olunmaqdadır.

Aktual problemlər sırasında əlilliyin müəyyən edilməsi üçün mütəmadi olaraq stasionar şəkildə müalicə keçmə tələbinin və bununla bağlı təcrübədə yaranan problemlər də qeyd edilməlidir. Belə ki, əlilliyi olan uşaqlar "Əlilliyin müəyyən olunması meyarlarının" tələblərinə uyğun olaraq,

stasionar şəkildə müayinə olmasa, əlilliyi olan şəxs müavinətdən məhrum olur. Eyni zamanda qeyd olunmalıdır ki, əksər hallarda uzunmüddətli stasionar müalicəyə xüsusi ehtiyac da olmur. *Məsələn, 2 saylı Psixiatriya Xəstəxanasına* başçəkmə zamanı 200 nəfər şəxsin stasionar müalicə üçün növbədə olması müəyyən edilmişdir.

*Bu baxımdan "Əlilliyin müəyyən olunması meyarlarınına" yenidən baxılmasını təklif edilir.*

***COVID-19 pandemiyası və saxlanılan şəxslərin hüquqları.*** 2020-ci ildə bütün dünyada COVID-19 pandemiyası həyatın bütün sahələrində olduğu kimi, insan hüquqlarının təmini sferasına da öz təsirini göstərmişdir.

Ombudsman pandemiya və xüsusi karantin rejimi vəziyyətində insan hüquqları məsələsini diqqətdə saxlamağın vacibliyini vurğulamış, bununla əlaqədar müvafiq müraciətləri[29] olmuşdur[30].

İQAK (CPT) qeyd edir ki, müstəqil qurumlar, o cümlədən Milli Preventiv Mexanizmlər və Komitə tərəfindən aparılan monitorinq pis rəftara qarşı vacib təminat olaraq qalır. Dövlətlər monitorinq qurumlarının bütün azadlıqdan məhrumetmə yerlərinə, o cümlədən, şəxslərin karantində saxlanıldığı yerlərə daxil olmasına təminat verməyə davam etməlidirlər. Bununla yanaşı, bütün monitorinq orqanları xüsusən yaşlılar və öncədən bir xəstəliyi olan şəxslərə münasibətdə "zərər verməmə" prinsipinə riayət etmək üçün zəruri ehtiyat tədbirləri görməlidir[31].

Bu baxımdan başçəkmələr xüsusi qrafik əsasında keçirilmiş, təşkil olunmuş başçəkmələr çərçivəsində pandemiyadan qorunma, saxlanılan şəxslərin spesifik vəziyyətdə hüquqlarının təmini məsələləri araşdırılmışdır.

Ombudsman və Milli Preventiv Qrupunun üzvləri tərəfindən Koronavirus (COVID-19) infeksiyasına qarşı görülən qabaqlayıcı tədbirlərin və sanitariya vəziyyətinin öyrənilməsi üçün Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin müəssisələrinə (Bakı İstintaq Təcridxanasına, 10 və 17 saylı cəzaçəkmə müəssisələrinə, 2 saylı İstintaq Təcridxanasına və Şəki Penitensiar Müəssisəsinə), habelə Daxili İşlər Nazirliyinin müəssisələrinə (İnzibati Həbs Olunanların Saxlama Mərkəzi, MSY-lər), səhiyyə və sosial xidmət müəssisələrinə planlı və *plandankənar* başçəkmələr həyata keçirilmişdir[32].

MPQ-nin ixtisasca həkim üzvünün də iştirak etdiyi başçəkmələr zamanı həmin müəssisələrin girişində daxil olan şəxslərin hərarətinin ölçülməsi üçün tibb işçisinin xidmət apardığı, həmçinin şəxslərin əllərinin xüsusi dezinfeksiyaedici məhlulla təmizlənməsinin təşkil edildiyi, məhkumların və saxlanılan şəxslərin gündəlik məlumatlandırıldığı, müayinələrin aparıldığı müşahidə olunub.

[29]https://report.az/hadise/ombudsman-koronavirus-epidemiyasi-ile-bagli-xalqa-muraciet-etdi/
[30] https://apa.az/az/sosial_xeberler/Ombudsman-KIV-lr-v-sosial-sbk-istifadcilrin-muracit-unvanlayib-591876
[31] https://rm.coe.int/16809e105d
[32]https://azvision.az/news/207378/-azerbaycanda-mehkumlar-koronavirus-yoxlanisindan-kecirilib-.html

Eyni zamanda Penitensiar Xidmətin təsdiq etdiyi müvafiq qaydalara əsasən, penitensiar müəssisələrdə preventiv tədbirlər məqsədilə sovqatların göndərilməsinin və kənar şəxslərin məhkumlar və saxlanılan şəxslərlə görüşlərinin məhdudlaşdırıldığı müəyyən edilmişdir[33].

Pandemiya dövründə saxlanılan şəxslərin hüquqlarının təmini bir sıra məqamları daha da aktuallaşdırmışdır.

*Birincisi, saxlanılan şəxslərin, xüsusilə həbs yerlərində və cəzaçəkmə müəssisələrində tibbi-sanitar təminatı məsələsinin əhəmiyyəti və aktuallığı bir daha bariz şəkildə özünü göstərmişdir.*

"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun 22-ci maddəsinə görə, həbs yerlərində tibbi-müayinə, müalicə-profilaktika, sanitariya-gigiyena tədbirləri və epidemiya əleyhinə tədbirlər qanunvericiliyə uyğun olaraq həyata keçirilir. Eyni zamanda, bu kateqoriya şəxslərə tibbi və psixoloji yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

*Bu baxımdan Ombudsman hesab edir ki, "pandemiya dövrü" müvafiq orqanlar, o cümlədən Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən öyrənilməli, təhlil edilməli, Səhiyyə Nazirliyi və digər aidiyyatı orqanlarla koordinasiya formasında müzakirə edilərək qanunvericiliyə dəyişiklik və əlavələrin edilməsi nəzərdən keçirilməlidir.*

Azərbaycan Respublikasının "Sanitariya-epidemoloji salamatlıq" haqqında Qanununun 31-ci maddəsi sanitariya qanunvericiliyinə əməl edilməsinə, sanitariya-gigiyena tədbirlərinin və epidemiya əleyhinə tədbirlərin görülməsinə ictimai nəzarəti nəzərdə tutur.

*Müvəkkil hesab edir ki, qeyd olunan sahədə ictimai nəzarət artırılmalı, müvafiq dövlət orqanlarının nəzdində olan ictimai nəzarət komissiyalarına daxil olan şəxslərin sayı çoxaldılmalı, müvafiq sahədə ekspert olan şəxslər komissiyalara daxil edilməlidir.*

Penitensiar Xidmətin müəssisələrində həkimlərin gecə növbəsində işləməməsi, fəaliyyətlərinin yalnız iş günü saatlarıyla məhdudlaşması məsələsi hələ də öz həllini tapmamışdır. Qeyd olunmalıdır ki, ötən illərdə bu məsələ təsisat tərəfindən qaldırılsa da, Ədliyyə Nazirliyi tərəfindən aktual problem kimi qiymətləndirilməmişdir. *COVID-19 pandemiyası yeni reallıq və çağırışları meydana çıxarmışdır ki, bu baxımdan ən azından pandemiya dövründə bu məsələyə yenidən baxılmalıdır.*

*Ombudsman ölkədə həyata keçirilən peyvəndlənmə kampaniyasının dairəsinin daha da genişləndirilməsi, daha çox insanları əhatə etməsinin vacibliyini qeyd edərək, qapalı xarakter daşıyan müəssisələrdə saxlanılan*

[33] https://sitat.news/ombudsman-aparatimehkumlara-sovqatlarin-gonderilmesi-ve-onlarla-gorus-mehdudlasdirilib

*şəxslərin də xüsusi qrafik əsasında bu aksiyaya cəlb edilməsini vacib sayır.* Bu tip müəssisələrdə saxlanılan şəxslərin həmin sahədə maarifləndirilməsi istiqamətində tədbirlərin görülməsinə ehtiyac vardır.

Təxirəsalınmadan, qısa zaman ərzində reaksiya tələb edən hallarda bu mexanizm özünü müsbət tərəfdən göstərmiş, sağlamlıq hüququ başda olmaqla, bir çox məhkumların hüquqlarının təmin edilməsinə imkan vermişdir.

Ombudsman məhkumların və onların ailə üzvlərinin müraciətlərini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasına müraciətlər etmişdir. Eləcə də, Müvəkkil Azərbaycan Respublikasının Prezidenti yanında yenidən təşkil edilmiş Əfv Məsələləri Komissiyasının iclaslarında iştirak edir.

Pandemiya dövründə 2072 məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 422 məhkum məntəqə tipli cəzaçəkmə müəssisələrinə keçirilmiş, 10 məhkum ağır xəstəliyə görə azadlığa buraxılmış, 334 məhkum cəzadan azad edilmiş və 591 məhkumun cəzası azaldılmış, həmçinin 906 nəfər təqsirləndirilən şəxs barəsində seçilmiş həbs qətimkan tədbiri dəyişdirilmişdir.

Dünyada yeni növ koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin ölkə Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxılaraq, məhkumların sağlamlıq vəziyyəti, cəza çəkdikləri müddətdə davranışları nəzərə alınaraq və humanizm prinsiplərinə əsaslanaraq, Azərbaycan Respublikası Prezidentinin “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” 2020-ci il 06 aprel tarixli Sərəncamı ilə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər əfv edilmişlər. Sərəncam ümumilikdə 176 nəfər məhkuma şamil olunmuşdur.

Ombudsmanın müraciətləri də nəzərə alınmaqla həmçinin 10 məhkum əfv olunaraq cəzanın çəkilməmiş hissəsindən azad edilmişdir.

*Daha bir mühüm məqam kimi qanunvericilikdə nəzərdə tutulmuş bir sıra hüquqların təmin edilməsi ilə bağlı yaranmış çətinliklər və onların aradan qaldırılması istiqamətində alternativ üsul və vasitələrə müraciət edilməsi qeyd olunmalıdır.*

Pandemiya ilə bağlı xüsusi karantin rejiminin tələbləri nəzərə alınaraq il ərzində saxlanılan şəxslərin bəzi hüquqları məhdudlaşdırılmışdır. Məsələn, həbs yerlərində saxlanılan şəxslərin və məhkumların öz yaxınları ilə görüş hüquqlarının məhdudlaşdırılması bu baxımdan müəyyən müzakirələrə səbəb olmuşdur[34].

CPT qeyd edir ki, COVID-19 infeksiyasının yayılmasının qarşısını almaq üçün azadlıqdan məhrum edilmiş şəxslərə tətbiq olunan istənilən

---

[34] https://interpress.ge/read/11311

məhdudlaşdırıcı tədbir qanuni əsasa malik, zəruri və məhdud olmalıdır. Azadlıqdan məhrum edilmiş şəxslərə bu cür tədbirlər mütənasib olmalı, insan ləyaqətinə hörmətlə yanaşmanı ehtiva etməli və bu barədə onların anladıqları dildə ətraflı məlumat verilməlidir[35].

Bundan əlavə, ziyarətlər daxil olmaqla, ətraf dünya ilə təmasa qoyulan hər hansı məhdudiyyət alternativ ünsiyyət vasitələrinə (telefon və ya internet vasitəsilə səsli əlaqə) çıxış imkanlarının artırılması ilə kompensasiya edilməlidir[36].

Bu kontekstdə Müvəkkil tərəfindən konkret təklif irəli sürülmüşdür.

*Ombudsman videozənglərin təşkil edilməsinin məhkumun ailəsi və yaxınları ilə əlaqələrini möhkəmləndirməklə islah prosesinə müsbət təsirini, görüş üçün sərf ediləcək nəqliyyat xərclərinə (xüsusilə uzaqda yaşayanlar üçün) qənaəti, qadağan edilmiş əşyaların müəssisə daxilinə keçirilməsinin qarşısının alınmasında əhəmiyyətini, habelə xarici ölkələrdə geniş tətbiq edilən videogörüntü vasitəsi ilə əlaqə saxlama təcrübəsini nəzərə alaraq, Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinə qısamüddətli görüşə gələ bilməyən şəxslər üçün videogörüşlərin təşkilini nəzərdə tutan əlavənin olunmasını təklif edir.*

Qeyd edilməlidir ki, bu məsələ əvvəlki dövrdə də müxtəlif formalarda (Skype proqramının Polşa təcrübəsi əsas götürülməklə tətbiqi) Müvəkkil tərəfindən səsləndirilmiş, lakin təəssüf ki, reallaşdırılmamışdır. Xüsusi karantin rejimi, beləliklə, Ombudsmanın təklif və tövsiyələrinin nəzəri deyil, praktiki cəhətdən əhəmiyyətini bir daha göstərmiş oldu.

CPT tövsiyə edir ki, yaxın şəxsi təmas virusun yayılmasına təkan verdiyindən, azadlıqdan məhrumetməyə alternativ tədbirlərin tətbiq edilməsi yönündə bütün müvafiq orqanlar tərəfindən razılaşdırılmış birgə səylər göstərilməlidir. Belə bir yanaşma, xüsusən azadlıqdan məhrumetmə yerlərində sıxlıq müşahidə olunarsa, labüddür. Bundan əlavə, səlahiyyətli orqanlar həbs qətimkan tədbirinə alternativlərdən, habelə cəzanın yüngülləşdirilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə və probasiyadan daha çox istifadə etməli; ruhi xəstələrin psixiatriya xəstəxanalarında məcburi saxlanılmasına davam etmə ehtiyacını yenidən qiymətləndirməli; sosial xidmət müəssisələrinin sakinlərini, uyğun görüldükdə sərbəst buraxmalı və ya icma xidmətinə təhvil verməli; və miqrantların saxlanılmasından mümkün qədər çəkinməlidir[37].

Ötən il ərzində qəbul edilmiş müraciətlər üzrə Ombudsman tərəfindən mütəmadi olaraq həbsə alternativ qətimkan tədbirlərinin seçilməsi ilə bağlı aidiyyəti istintaq və ya məhkəmə orqanlarına müraciətlər edilmişdir. Bu

---

[35] https://rm.coe.int/16809e105d
[36] https://rm.coe.int/16809e105d
[37] https://rm.coe.int/16809e105d

istiqamətdə fəaliyyətin həyata keçirilməsi həm humanizm, həm də iqtisadi və kriminoloji baxımdan əhəmiyyət kəsb etməklə yanaşı, həbs yerləri və cəzaçəkmə müəssisələrində *pandemiya və xüsusi karantin rejimində sıxlıq probleminin* aradan qaldırılmasına imkan verir. Bu baxımdan azadlıqdan məhrumetmə ilə bağlı olmayan qərarların geniş tətbiqi məsələsinə yenidən baxılmalıdır.

"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə cinayət qanunvericiliyinə əsaslı dəyişikliklər edilməsi ilə başlanmış yeni hüquqi islahatlar cinayətlərin dekriminallaşdırılmasına xidmət etmişdir.

2020-ci ildə Penitensiar Xidmətin istintaq təcridxanalarında saxlanılan 906 nəfər barəsində həbs qətimkan tədbiri dəyişdirilmişdir.[38]

Probasiya institutunun tətbiqi və fəaliyyəti ölkədə müvafiq sahədə müsbət nəticələrə gətirib çıxarmışdır. Belə ki, elektron qolbaq tətbiq edilməsində əvvəlki illə müqayisədə artım müşahidə edilmiş, ümumilikdə 2603 məhkuma elektron qolbaq tətbiq olunmuşdur[39].

*Ombudsman hesab edir ki, məhkəmələr tərəfindən alternativ cəzaların seçilməsi, cəza növü kimi azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəza növlərinin tətbiqi təcrübəsi davam etdirilməlidir.*

*Beşinci məqam kimi, MPM mandatı şamil olunan, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrin bir qismində sıxlıq probleminin pandemiya və xüsusi karantin rejimi dövründə xüsusi aktuallıq kəsb etməsi vurğulanmalıdır.*

MPQ tərəfindən həyata keçirilmiş başçəkmələrin nəticələrinin təhlili göstərir ki, bir sıra müəssisələrdə sıxlıq məsələsinin hələ problem kimi qaldığını göstərməkdədir.

Kameralarda həddən artıq məhkumun saxlanılması problemi CPT-nin mandatına aid olan məsələdir. Həbsxanadakı məhkumların sayı nəzərdə tutulandan artıq olarsa, bu, həmin müəssisənin daxilindəki bütün xidmətlərə və fəaliyyətlərə mənfi təsir göstərir. Üstəlik, həbsxanada və ya onun bir hissəsində həddən artıq məhkumun olması insanın fiziki mövcudluğu nöqteyi-nəzərindən qeyri-insani və ya ləyaqəti alçaldan rəftar təşkil edə bilər[40].

---

[38] https://apa.az/az/sosial_xeberler/Pandemiyaya-gor-otn-il-906-nfrin-barsind-secilmis-hbs-qtiimkan-tdbiri-dyisdirilib-626031

[39] http://ikisahil.com/post/oten-il-2603-mehkuma-elektron-qolbaq-tetbiq-olunub

[40] CPT-nin 1991-ci il yanvarın 1-dən dekabrın 31-dək olan dövrü əhatə edən fəaliyyətinə dair 2-ci Ümumi Məruzə, 46-cı hissə

Beynəlxalq standartlarda əvvəllər tikilinin minimum sahəsi və ya hər bir məhkum üçün kvadratmetrlə minimum sahə göstərilmirdi. Lakin nisbətən son dövrlər CPT bu istiqamətdə yanaşmalarını dəyişib. Təşkilat təkadamlıq kameraların ölçüsünün 7 kvadratmetrdən az olmamasını, çoxadamlıq kameralar üçün isə 2 məhkuma 10, 5 məhkuma 21, 7 məhkuma 35, 12 məhkuma isə 60 kvadratmetr sahə meyarını tövsiyə edir.

Müvəkkil xüsusilə Penitenisar Xidmətin tabeliyində olan müəssisələr də daxil olmaqla, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə təmir işlərinin aparılmasının, xeyli müddətdir tikintisi gedən və ya planlaşdırılan təcridxana və cəzaçəkmə müəssisələri ilə bağlı işlərin isə sürətləndirilməsinin vacibliyini növbəti dəfə qeyd edir.

***Müharibə dövründə Ombudsmanın MPM mandatı çərçivəsində fəaliyyəti.*** Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzünün qarşısını almaq, mülki əhalinin hüquq və azadlıqlarını qorumaq məqsədilə 2020-ci ilin 27 sentyabrıdan başlayaraq həyata keçirilən əks-hücum əməliyyatları dövründə də Ombudsman insan hüquqlarının müdafiəsi və beynəlxalq hüquq normalarının təbliği sahəsində fəaliyyətini davam etdirmişdir.

Belə ki, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun 5-ci maddəsinə görə, fövqəladə və ya hərbi vəziyyətin elan edilməsi Müvəkkilin fəaliyyətini dayandırmır və ya məhdudlaşdırmır.

Ombudsman 44 günlük müharibə dövründə Ermənistanın hərbi təcavüzünə məruz qalmış, mülki əhalinin sıx yaşadığı bölgələrə mütəmadi səfərlər etmiş, zərərçəkmiş sakinlərlə görüşmüş, dağıdılmış yaşayış evlərinə və digər infrastruktur obyektlərinə baxış keçirmiş, vətəndaşların dağıntılar nəticəsində yaranmış cari problemlərinin yerində həll edilməsi məqsədilə dövlət orqanları və vətəndaş cəmiyyəti təsisatları ilə orqanları ilə məsləhətləşmələr aparmışdır.

Bu səfərlər çərçivəsində başçəkmələr də davam etdirilmişdir. Ombudsman özü də həyata keçirilən başçəkmədə iştirak etmişdir[41].

Eyni zamanda digər müəssisələrə həyata keçirilmiş başçəkmələr zamanı orada saxlanılan Ermənistandan olan hərbi qulluqçular fərdi qaydada qəbul olunmuş, müraciətləri dinlənilmiş, onlara hüquqları və müraciət mexanizmləri ilə bağlı öz dillərində qanunvericilik aktları təqdim edilməklə hüquqları izah olunmuşdur. Ombudsmanın Milli Preventiv Qrupunun həkim və psixoloq üzvlərinin də iştirakı ilə fərdi qaydada qəbul edilən şəxslər müayinə olunmuşdur. Hər hansı bir fərq qoyulmadan həmin şəxslərə münasibətdə lazımi tibbi-psixoloji xidmətin təmin olunduğu, beynəlxalq humanitar hüquq normalarına, xüsusilə də Cenevrə Konvensiyalarının müddəalarına riayət edildiyi müşahidə olunmuşdur.

[41] https://az.trend.az/azerbaijan/society/3308457.html

Həmin şəxslər onlarla rəftardan və saxlanma şəraitindən, tibbi xidmətdən, qidalanmadan razılıq etməklə yanaşı, humanist münasibətə görə təşəkkürlərini bildirmişlər. Qısa müddətdə bu şəxslər Azərbaycan dövləti tərəfindən öz ölkələrinə, Ermənistana təhvil verilmişdir.

# BÖLMƏ 4.

# HÜQUQİ MAARİFLƏNDİRMƏ

Ombudsmanın MPM qismində fəaliyyət istiqamətlərindən biri də şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslər və onlarla işləyən xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işinin təşkilidir.

2020-ci il ərzində uşaq evləri və internat müəssisələrində, hüquq mühafizə orqanlarının Akademiyalarında, hərbi hissələrdə, istintaq təcridxanalarında, cəzaçəkmə müəssisələrində milli və beynəlxalq qanunvericiliyin müddəaları, BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sı, digər beynəlxalq standartlar əsasında hüquqi maarifləndirmə tədbirləri davam etdirilmişdir.

Milli və beynəlxalq standartlar əsasında təşkil edilmiş başçəkmələr zamanı Penitensiar Xidmətin müəssisələrində, müvəqqəti saxlama yerlərində, təhsil, səhiyyə və digər müəssisələrdə xidmət əməkdaşlarına və həmin müəssisələrdə qəbul edilmiş saxlanılan şəxslərə ünvanlanmış hüquqi maarifləndirmə aparılmış, qaldırılan məsələlər üzrə hüquqi məsləhətlər verilmişdir.

Belə tədbirlər zamanı Fakultativ Protokolun müddəaları təbliğ edilmiş, Müvəkkilin MPM mandatı, bu mandat çərçivəsində görülmüş işlər barədə məlumatlar verilmişdir.

Dövlət uşaq müəssisələrinə həyata keçirilən başçəkmələr zamanı bu müəssisələrdə saxlanılan uşaqlar arasında sorğu keçirilmişdir. Uşaq hüquqlarına dair bilik və bacarıqların səviyyəsinin müəyyən edilməsi və uşaq iştirakçılığının yoxlanılması məqsədilə keçirilmiş sorğuda 10 yaşdan yuxarı uşaqlar iştirak etmişdir. Sorğu 2020-ci ilin oktyabr-dekabr ayları ərzində Bakı, Gəncə, Quba, Lənkəran şəhərlərində yerləşən 6 müəssisədə 53 qız, 70 oğlan olmaqla həssas əhali qrupundan olan 123 uşaq arasında keçirilib.

Uşaq hüquqları ilə bağlı maarifləndirmə işinin təkmilləşdirilməsində bu kimi sorğuların keçirilməsi əhəmiyyətlidir.

Ombudsmanın təşəbbüsü əsasında MPM fəaliyyəti çərçivəsində hüquq-mühafizə orqanları üçün kadr hazırlığını həyata keçirən tədris müəssisələri, o cümlədən Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə əməkdaşlıq, hüquqi biliklərin artırılması məqsədini daşıyan tədbirlər davam etdirilmişdir.

Bu fəaliyyət çərçivəsində "Ombudsmanın insan hüquqlarının müdafiəsində rolu" və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Milli Preventiv Mexanizm fəaliyyəti" mövzularında məruzələr olmuş və Ədliyyə Akademiyasında ilkin uzunmüddətli tədris kurslarında

iştirak edən hakimliyə namizədlərə, ədliyyə orqanlarına, o cümlədən penitensiar xidmətə və məhkəmə ekspertizası mərkəzinə qulluğa qəbul olunmuş şəxslərə ünvanlanmışdır. Mühazirələr Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən tədris olunmuşdur.

İnsan hüquqları pozuntularının qarşısının alınması, pozulmuş hüquqların bərpası, habelə BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının" Fakultativ Protokolunun icrasının təmin edilməsi ilə bağlı ölkə Ombudsmanının MPM funksiyalarını yerinə yetirən təsisat qismində müəyyən olunması, bu sahədə fəaliyyətin daha səmərəli aparılması üçün şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə müntəzəm keçirilən başçəkmələr, verilmiş tövsiyələr və onların icrası vəziyyətinə dair məlumatlar milli və beynəlxalq qanunvericilik aktları, o cümlədən yerli, xarici ölkə və beynəlxalq təşkilatların təcrübəsindən misallar gətirməklə dinləyicilərin diqətinə çatdırılmışdır.

Hüquq-mühafizə orqanları üçün kadr hazırlığını həyata keçirən tədris müəssisələrində hüquqi maarifləndirmə tədbirləri pandemiya şəraiti nəzərə alınmaqla distant formada davam etdirilmişdir. Ombudsmanın təşəbbüsü ilə elan edilmiş "İnsan Hüquqları Aylığı" dövründə təsadüf edən növbəti tədris Ədliyyə Akademiyası tərəfindən Məhkəmə Ekspertizası Mərkəzinə qulluğa yeni qəbul olunmuş şəxslər üçün "Ombudsmanın Milli Preventiv Mexanizm qismində fəaliyyəti" mövzusunda onlayn formada təşkil olunmuşdur.

MPQ-nin rəhbəri tərəfindən təqdim edilmiş məruzədə dinləyicilərə Ombudsmanın təşəbbüsləri və təklifləri nəzərə alınmaqla Azərbaycan Respublikasının milli qanunvericiliyində həyata keçirilən islahatlar, Müvəkkilin insan hüquqlarının müdafiəsi və MPM qismində fəaliyyəti, beynəlxalq standartlar əsasında rəftar məsələləri və saxlanma şəraitinin araşdırılmasında göstərdiyi yanaşmalar haqqında geniş məlumatlar verilmişdir.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının sənədi olan, pis rəftar növlərinin və cəzaların tətbiqinin effektiv tətbiq edilməsi ilə bağlı "İstanbul Protokolu", SPT tövsiyələri və CPT-nin ümumi məruzələrində yer almış standartlardan çıxarışlar milli qanunvericilik aktları ilə müqayisəli şəkildə tədris olunmuşdur.

Ombudsman Aparatı tərəfindən 2020-ci ildə təsisatın insan hüquqlarının müxtəlif sahələri üzrə, o cümlədən COVID-19 pandemiyası ilə əlaqədar UNICEF-in Azərbaycan Nümayəndəliyi tərəfindən çap edilmiş maarifləndirici nəşrlərdən plakat, bülleten, buklet və lifletlər şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə, o cümlədən penitensiar xidmətin cəzaçəkmə və tərbiyə müəssisələrinə paylanmışdır.

Bundan başqa Ombudsmanın yeni yaradılmış 916 Çağrı Mərkəzinin əlaqə vasitələrini əks etdirən Azərbaycan və ingilis dillərində plakatlar da başçəkmə həyata keçirilən müəssisələrdə paylanılmışdır.

## BÖLMƏ 5.

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

2020-ci ildə İnsan Hüquqları üzrə Müvəkkil MPM fəaliyyəti çərçivəsində ictimaiyyət, QHT-lər, KİV, regional və beynəlxalq təşkilatlarla, xarici ölkə MPM-ləri ilə informasiya və təcrübə mübadiləsinin aparılması, keçirilən tədbirlərdə qarşılıqlı iştirakın təmin olunması, eləcə də birgə tədbirlərin təşkili istiqamətində işlər davam etdirilmişdir.

Azərbaycan MPM-in fəaliyyəti barədə həm ölkə ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmışdır. Bu baxımdan 2020-ci ildə KİV-də başçəkmələrlə əlaqədar 35, hüquqi maarifləndirmə və digər tədbirlərlə əlaqədar 8 olmaqla ümumilikdə 43 mətbuat açıqlaması yayılmışdır.

Press-relizlər (mətbuat açıqlamaları), həmçinin MPM-in fəaliyyətinə dair hesabatlar, MPQ-nin tərkibi barədə məlumat, habelə müvafiq normativ-hüquqi aktlar Müvəkkilin rəsmi internet saytında yaradılmış xüsusi bölmədə Azərbaycan və İngilis dillərində yerləşdirilmişdir. Hesabatlar Müvəkkilin rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı, aidiyyəti dövlət qurumlarına və beynəlxalq təşkilatlara da göndərilmişdir.

MPM-in fəaliyyəti çərçivəsində də keçirilən başçəkmə və hüquqi maarifləndirmə tədbirlərində, o cümlədən müvafiq dövlət qurumlarının iştirakı ilə keçirilən görüşlərdə, qanunvericiliklə bağlı müzakirələrdə, müvafiq hesabatların hazırlanması prosesində vətəndaş cəmiyyətinin üzvlərinin cəlb olunması və ekspertlərin iştirakı mütəmadi olaraq təmin olunmuşdur.

***Beynəlxalq əməkdaşlıq.*** Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili MPM qismində BMT və onun müqavilə qurumları, o cümlədən SPT, habelə Avropa Şurası, CPT, Avropa İttifaqı, ATƏT, İşgəncələrin Qarşısının alınması üzrə Assosiasiya (APT) və digər beynəlxalq təşkilatlar, müxtəlif ölkələrin MPM-ləri ilə əməkdaşlıqda maraqlıdır və təcrübə mübadiləsi də aparır.

Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) ölkə nümayəndəliyi ilə Ombudsman təsisatı arasında əməkdaşlıq ötən ildə də davam etdirilmişdir. Bilindiyi kimi, BQXK saxlanılan şəxslərin saxlanma şəraiti və onlarla rəftarı qiymətləndirmək məqsədi ilə Azərbaycan Respublikasının ərazisindəki saxlama və həbs yerlərinə baş çəkir. BQXK başçəkmələr zamanı saxlanılan şəxlər, habelə məhkumlarla görüşür və şahidlərin iştirakı olmadan onlarla təklikdə söhbət edir. Belə başçəkmələr zamanı saxlanılan bəzi şəxslər

Ombudsman Aparatının nümayəndələrinin onlarla görüşməsini xahiş edirlər. Ombudsmanın ünvanına belə müraciətlərlə bağlı il ərzində məktublar daxil olur, məktubda qeyd olunan şəxslərin adları görüş siyahılarına salınmaqla MPQ tərəfindən növbəti başçəkmələrdə həmin şəxslər qəbul edilir.

*MPM fəaliyyəti çərçivəsində UNICEF-lə əməkdaşlıq.* Ombudsman təsisatı ilə BMT-nin Uşaq Fondu (UNICEF) arasında həyata keçirilən əməkdaşlıq ötən il də davam etdirilmiş, yeni birgə fəaliyyət planı imzalanmışdır. Birgə fəaliyyət planı ilə iki qurum tərəfindən birgə həyata keçiriləcək tədbirlərin çərçivəsi müəyyənləşdirilmiş və bu istiqamətdə uğurlu əməkdaşlıq inkişaf etdirilmişdir.

Ombudsman təsisatı ilə UNICEF arasında birgə əməkdaşlığa dair fəaliyyət planına uyğun olaraq ötən ildə Milli Preventiv Mexanizmin uşaq komponentinə dəstək məqsədilə sosial işçi və hüquqşünas mütəxəssisləri cəlb olunmuşdur.

Fəaliyyət əsas üç istiqamətdə: başçəkmələr, Çağrı mərkəzi və uşaq iştirakçılığının artırılması üzrə təşkil edilmişdir.

Başçəkmələr üzrə müəyyən edilmiş məqsədlər aşağıdakılar olmuşdur:

- uzun müddət gedilməyən, öncəki başçəkmələrdə nöqsanlar aşkarlanan, risk faktoru yüksək olan müəssisələrin müəyyən edilməsi və planlı başçəkmələr siyahısına əlavə edilməsi;
- başçəkmələr nəticəsində müəssisələrdə qalan uşaqların hüquqlarının təminatında müsbət dəyişikliklərin əldə olunması.

Başçəkmələr üzrə qeyd edilən məqsədlərə nail olmaq üçün aşağıda göstərilmiş fəaliyyətlər icra olunmuşdur:

- Həyata keçirilən başçəkmələrin hesabatları elektron qeydiyyata alınaraq risk faktoru yüksək olan müəssisələr müəyyən olunmuş və planlı başçəkmələr siyahısına əlavə edilmişdir;
- uşaqların qaldığı müəssisələrə başçəkmələr zamanı istifadə olunacaq tematik çərçivə və suallar, zorakılıq hallarının aşkarlanması üçün uşaqlara ünvanlana biləcək suallar və keçirilə biləcək metodikalardan ibarət forma hazırlanmışdır.

2020-cidə il Ombudsmanın işgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizminin fəaliyyəti çərçivəsində Bakı şəhərində, həmçinin Ombudsmanın Gəncə, Şəki, Quba, Cəlilabad regional mərkəzlərinin əhatə etdiyi şəhər və rayonlarda 24 dövlət uşaq müəssisəsinə planlı və plandankənar olmaqla 40 başçəkmə həyata keçirilmişdir. Bunlardan 9-unda UNICEF ekspertlərinin də iştirakı təmin olunmuşdur. Başçəkmələr nəticəsində aşkar olunan nöqsanlar və müvafiq təkliflər aidiyyəti qurumlar qarşısında qaldırılmışdır.

# BÖLMƏ 6

# TƏKLİF VƏ TÖVSİYƏLƏR

Müvəkkil MPM qismində həyata keçirdiyi fəaliyyətin nəticələrinin təhlili, saxlanılan şəxslərin hüquqlarının effektiv təmini məqsədilə aşağıdakıları təklif edir.

## Normativ hüquqi aktlarla bağlı

1. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinə qısamüddətli görüşə gələ bilməyən şəxslər üçün videogörüşlərin təşkilini nəzərdə tutan əlavənin edilməsi;

~~2.~~ “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının 42-ci maddəsində və Cəzaların İcrası Məcəlləsində “Tutulmuş və ya həbs edilmiş şəxslərin, məkumların (Məcəllədə-məhkum) qida qəbulundan imtina etməsi ilə bağlı normanın konkretləşdirilməsi;

3. Məhkumlarla Beynəlxalq Standart Davranış Qaydalarına əsasən, təhsildən bəhrələnməyi bacaran məhkumlara onu davam etdirmək imkanının təmin edildiyini, Penitensiar Xidmətin Tərbiyə Müəssisəsində saxlanılan şəxslərin buraxılış imtahanlarında iştirakına şərait yaradıldığını nəzərə alaraq, cəzaçəkmə müəssisələrində çəza çəkən şəxslərin ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirakının təmin edilməsi üzrə mexanizmin hazırlanması və bununla bağlı Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinə əlavənin edilməsi;
4. Ruhi xəstəliklərdən əziyyət çəkən və ya cəza çəkdiyi dövrdə psixi sağlamlıq vəziyyətində ciddi dəyişikliklər baş verən şəxslərin psixiatriya müəssisələrinə yerləşdirilməsi ilə bağlı səmərəli mexanizmin hazırlanması və bu məqsədlə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 2011-ci il 29 noyabr tarixli, 4-N nömrəli qərarı ilə təsdiq edilmiş “Cəzanın çəkilməsinə mane olan ağır xəstəliklərə düçar olmuş məhkumların tibbi şəhadətləndirilməsi Qaydaları”nın yenidən işlənərək qəbul edilməsi;
5. Cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların islah olunması, şəxsiyyətinin inkişafı və azad olunduqdan sonra cəmiyyətə adaptasiyası məqsədilə “Cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların islah edilməsi və sosiallaşması” üzrə müvafiq proqramın qəbul edilməsi;

6. Pasiyentlərin hüquqlarının etibarlı təmin edilməsi məqsədilə "Pasiyentlərin hüquqlarının müdafiəsi haqqında" qanunun qəbulunun sürətləndirilməsi;
7. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın bir çox bəndlərinin icra müddətinin başa çatdığını nəzərə alaraq, müasir dövrün tələblərinə uyğun yeni strateji sənədin qəbul olunması;
8. Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarının 2.31.3-cü maddəsinə "ilk dəfə cinayət törətmiş şəxslər" əvəzinə "ilk dəfə cinayət törətməkdə şübhəli bilinən şəxslər" ifadəsinin əlavə edilməsi;
9. İstintaq təcridxanalarının daxili intizam Qaydalarının 5.11.3-cü maddəsinə "ilk dəfə cinayət törətmiş şəxslər" əvəzinə "ilk dəfə cinayət törətməkdə təqsirləndirilən şəxslər" ifadəsinin əlavə edilməsi.

## Daxili İşlər Nazirliyinə tövsiyələr

1. Polis tərəfindən saxlanılan şəxslərin öz müdafiəçiləri ilə görüşmək hüququ ilə bağlı təcrübədə rast gəlinən problemlərin aradan qaldırılması üçün maarifləndirmə işinin aparılması, nəzarətin artırılması;
2. Vahid və hərtərəfli qeydiyyat sistemi, sənədləşmə və qeydiyyat işinə nəzarətin gücləndirilməsi;
3. Saxlanılan şəxslərin hüquqları barədə məlumatlandırılması, ailə üzvləri ilə əlaqə məsələsinə nəzarətin artırılması;
4. Qanunvericilikdə nəzərdə tutulmuş müddətlərdən artıq polis orqanlarında saxlama hallarına qarşı ciddi tədbirlərin həyata keçirilməsi;
5. Müasir tələb və standartlara cavab verməyən təcrübə olan bir nəfərlik kameralardan imtina edilməsi ;

## Ədliyyə Nazirliyinə tövsiyələr

1. Ədliyyə Nazirliyi, tərəfindən pandemiya və xüsusi karantin rejimi ilə bağlı təhlil işinin aparılması, xarici təcrübənin öyrənilməsi, problemlərin aradan qaldırılması üzrə "yol xəritəsinin" hazırlanması;
2. İctimai nəzarətlə bağlı yeniliklərin həyata keçirilməsi, ictimai nəzarət komissiyasının say tərkibinin genişləndirilməsi, müxtəlif sahədə olan ekspertlərin bu komissiyaların işinə cəlb edilməsi;

3. Cəzaçəkmə müəssisələrində həkimlərin gecə növbəsində (ən azından pandemiya bitənə qədər) çalışmasının təmin edilməsi istiqamətində addımların atılması;
4. Məhkumların peyvəndləşdirilməsi istiqamətində kompleks addımların atılması;
5. Penitensiar müəssisələrdə sıxlıq probleminin aradan qaldırılması istiqamətində addımların atılması, tikilməkdə olan müəssisələrin tikinti prosesinin sürətləndirilməsi;
6. Cəzaçəkmə Müəssisələrində Cərimə təcridxanasına keçirilmə təcrübəsinə mümkün qədər az müraciət edilməsi;
7. Müxtəlif kateqoriyalı şəxslərin ayrı saxlanılması sahəsində məsələlərə nəzarətin artırılması;
8. Yeməkdən imtina ilə bağlı məhkum və həbs edilmiş şəxslərdən qanunvericilikdə nəzərdə tutulmayan müəssisə rəisinin adına ərizə yazılması və yalnız bundan sonra qidadan imtinanı rəsmiləşdirməklə bağlı praktikadan imtina edilməsi;
9. Penitensiar Xidmətin müəssisələrində xüsusi vasitələrdən istifadənin minimuma endirilməsi;

**Səhiyyə Nazirliyinə tövsiyələr**

1. Psixiatriya müəssisələrində təcridtemə (izolyasiya) otaqlarından imtina edilməsi istiqamətində tədbirlərin görülməsi;
2. Psixiatriya müəssisələrində pasiyentlərə xüsusi vasitələrin tətbiqi təcrübəsindən imtina edilməsi istiqamətində addımların atılması;
3. Psixiatriya müəssisələrində pasiyentlərin diaqnoza uyğun qalma müddətləri, onların evə yazılması ilə bağlı problemlərin aradan qaldırılması və qeyd edilən sahələrdə standartların işlənib hazırlanması;
4. Psixiatriya xəstəxanalarında saxlanılan, müalicə müddəti bitmiş, lakin ailə üzvləri və yaxınları tərəfindən qəbul edilməyən və psixiatriya müəssislərində qalmağa məcbur olan pasiyentlərin sosial xidmət müəssisələrinə köçürülməsi üçün ƏƏSMN ilə koordinasiya işinin təkmilləşdirilməsi;
5. 2 saylı Psixiatriya Xəstəxanasında saxlanma şəraitinin yaxşılaşdırılması;

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tövsiyələr**

1. Psixiatriya xəstəxanalarında saxlanılan, müalicə müddəti bitmiş, lakin ailə üzvləri və yaxınları tərəfindən qəbul edilməyən və psixiatriya müəssislərində qalmaq məcburiyyətində olan pasiyentlərin qəbul edilməsi üçün sosial xidmət müəssisələrində limtin artırılması;

2. “Əlilliyin müəyyən olunması meyarlarına” yenidən baxılması.

# STATİSTİK GÖSTƏRİCİLƏR

*Əlavə 1*

***Diaqram 1. MPM qismində həyata keçirilən başçəkmələrin müəssisələr üzrə bölgüsü***




***Diaqram 2. MPM-in 2020-ci ildə həyata keçirdiyi başçəkmələrin sayı***



**_Diaqram 3. MPM qismində həyata keçirilən başçəkmələrin illər üzrə sayı_**






# İŞGƏNCƏLƏRƏ VƏ DİGƏR QƏDDAR, QEYRİ-İNSANİ YAXUD LƏYAQƏTİ ALÇALDAN RƏFTAR VƏ CƏZA NÖVLƏRİNƏ QARŞI KONVENSİYANIN

## FAKÜLTATİV PROTOKOLU
## Preambula

Hazırkı Protokolun iştirakçı dövlətləri,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq edərək,

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın (bundan sonra "Konvensiya" adlandırılacaq) məqsədlərinə nail olunması və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin zəruriliyinə əmin olaraq,

Konvensiyanın 2-ci və 16-cı maddələrinin hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsini öhdəsinə qoyduğunu xatırlayaraq,

Dövlətlərin bu maddələrin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığını, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin gücləndirilməsinin və onların insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğunu və Konvensiyanın tətbiqi üzrə beynəlxalq qurumların milli tədbirləri tamamladığını və möhkəmləndirdiyini etiraf edərək,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb etdiyini xatırlayaraq,

Həmçinin, Vyanada 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında işgəncələrin kökünün kəsilməsi üzrə səylərin ilk öncə onun qarşısının alınmasına yönəlməli olduğunu bəyan etdiyini və saxlanma yerlərinə mütəmadi başçəkmə üzrə preventiv sistemin yaradılması məqsədi daşıyan Konvensiyanın fakültativ protokolunun qəbul edilməsinə çağırdığını xatırlayaraq,

Azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin saxlanma yerlərinə mütəmadi başçəkmələrə əsaslanan preventiv xarakter

daşıyan qeyri-məhkəmə tədbirləri əsasında gücləndirə bilinməsinə əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## I HİSSƏ

## ÜMUMİ PRİNSİPLƏR

***Maddə 1***

Hazırkı Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradılmasından ibarətdir.

***Maddə 2***

1. Hazırkı Protokolda ifadə olunan funksiyaları yerinə yetirən İşgəncələrə qarşı Komitənin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üzrə Altkomitə (bundan sonra Qarşısını Alma üzrə Altkomitə adlandırılacaq) yaradılır.

2. Qarşısını Alma üzrə Altkomitə fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərinin, habelə Birləşmiş Millətlər Təşkilatının azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını rəhbər tutur.

3. Qarşısını Alma üzrə Altkomitə, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

4. Qarşısını Alma üzrə Altkomitə və iştirakçı dövlətlər hazırkı Protokolun həyata keçirilməsində əməkdaşlıq edir.

***Maddə 3***

Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

***Maddə 4***

1. Hər bir iştirakçı dövlət Hazırkı Protokola, 2-ci və 3-cü maddələrdə qeyd olunan mexanizmlərə uyğun olaraq yurisdiksiyası və nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin dövlət orqanının sərəncamı və ya onun göstərişi, yaxud icazəsi və ya susmaqla razılığı əsasında saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə (bundan sonra saxlanma yerləri adlandırılacaq) başçəkmələrə icazə verir. Zərurət olduqda bu başçəkmələr belə şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti

alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi məqsədi ilə həyata keçirilir.

2. Hazırkı Protokolun məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl həbsdə saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

## II HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏ

***Maddə 5***

1. Qarşısını alma üzrə Altkomitə on üzvdən ibarətdir. Hazırkı Protokolun əllinci ratifikasiya fərmanının və ya ona qoşulma haqqında sənədin saxlanma üçün verilməsindən sonra Altkomitənin üzvlərinin sayı iyirmi beş nəfərə qədər artırılır.

2. Qarşısını alma üzrə Altkomitənin üzvləri yüksək mənəvi keyfiyyətlərə malik və ədalət mühakiməsi, xüsusilə də cinayət ədalət mühakiməsi sahəsində, penitensiar sistemdə və ya polis orqanlarında, yaxud azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla aid istənilən sahələrdə təsdiq edilmiş iş təcrübəsi olan şəxslər sırasından seçilir.

3. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı ədalətli coğrafi bölgü və iştirakçı dövlətlərin müxtəlif mədəniyyət formalarının və hüquq sistemlərinin təmsilçiliyinin zərurətinə lazımi diqqət yetirilir.

4. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı həmçinin bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında tarazlaşdırılmış gender təmsilçiliyinə diqqət yetirilir.

5. Qarşısını alma üzrə Altkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz.

6. Qarşısını alma üzrə Altkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Altkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır.

***Maddə 6***

1. Hər bir iştirakçı dövlət hazırkı maddənin 2-ci bəndinə uyğun olaraq 5-ci maddədə təsbit olunmuş ixtisas və tələblərə cavab verən iki namizədi irəli sürə bilər, bununla belə dövlət həmin namizədlərin ixtisası haqqında ətraflı məlumat təqdim edir.

2. a) Namizədlər hazırkı Protokolun iştirakçı dövlətinin vətəndaşı olmalıdır;

b) irəli sürülmüş iki namizəddən ən azı biri onun namizədliyini irəli sürən iştirakçı dövlətin vətəndaşlığına malik olmalıdır;

c) bir iştirakçı dövlətin vətəndaşı olan iki nəfərdən çox namizəd irəli sürülə bilməz;

d) hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin vətəndaşını namizəd kimi irəli sürməkdən əvvəl, o, həmin iştirakçı dövlətə sorğu verir və razılığını alır.

3. Seçkilərin keçirilməsi nəzərdə tutulan iştirakçı dövlətlərin müşavirəsinin başlanmasından ən azı beş ay əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi iştirakçı dövlətlərə üç ay ərzində öz namizədlərini irəli sürmək təklifi ilə məktub göndərir. Baş katib bütün namizədlərin, onları irəli sürmüş iştirakçı dövlətlər göstərilməklə əlifba qaydasında siyahısını təqdim edir.

***Maddə** 7*

1. Qarşısını alma üzrə Altkomitənin üzvləri aşağıdakı qaydada seçilir:

a) əsas diqqət hazırkı Protokolun 5-ci maddəsinin tələblərinə və meyarlarına əməl edilməsinə yetirilir;

b) ilk seçkilər hazırkı Protokolun qüvvəyə minməsindən sonra altı ay müddətindən gec olmayaraq keçirilir;

c) iştirakçı dövlətlər Qarşısını alma üzrə Altkomitənin üzvlərini gizli səsvermə yolu ilə seçir;

d) Qarşısını alma üzrə Altkomitənin üzvünün seçkiləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən iki ildə bir dəfə çağırılan iştirakçı dövlətlərin iclaslarında keçirilir. İştirakçı dövlətlərin sayının üçdə iki hissəsi kvorum hesab edilən bu iclaslarda ən çox səs və iştirak edən və səs verən iştirakçı dövlətlərin nümayəndələrinin mütləq səs çoxluğunu toplamış şəxslər Altkomitəyə seçilmiş üzvlər hesab olunur.

2. Seçkilər zamanı hər hansı iştirakçı dövlətin iki vətəndaşının Qarşısını alma üzrə Altkomitənin tərkibində işləmək hüququnu əldə etdiyi təqdirdə, ən çox səs toplamış namizəd Altkomitənin üzvü seçilir. Bu vətəndaşların eyni sayda səs topladığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) namizədlərin yalnız biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə bu vətəndaş Qarşısını alma üzrə I Altkomitənin üzvü seçilir;

b) hər iki namizəd vətəndaş olduqları iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə, Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir;

c) namizədlərdən heç biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürülmədiyi təqdirdə Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir.

*Maddə 8*

Qarşısını alma üzrə Altkomitə üzlərindən birinin vəfat etdiyi və ya istefa verdiyi yaxud hər hansı digər səbəbdən Altkomitə üzvünün funksiyalarını yerinə yetirməsi mümkün olmadığı təqdirdə, onun namizədliyini irəli sürmüş iştirakçı dövlət seçilmək hüququ olan, 5-ci maddədə təsbit olunmuş ixtisasa malik və tələblərə cavab verən şəxsi teyin edir. Bu şəxs səlahiy-yətlərin müxtəlif sahələri arasında müvafiq tarazlığın təmin edilməsi zərurəti nəzərə alınmaqla, iştirakçı dövlətlərin növbəti iclasına qədər olan səlahiyyət müddətinə, onun iştirakçı dövlətlərin çoxluğu tərəfindən təsdiq olunması şərti ilə teyin olunur. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin ehtimal edilən təyinat haqqında bildirişindən sonra altı ay ərzində iştirakçı dövlətlərin yarısı və ya yarısından çoxu tərəfindən belə təyinata qarşı çıxış edilmədiyi təqdirdə təsdiqetmə baş tutmuş hesab olunur.

*Maddə 9*

Qarşısını alma üzrə Altkomitənin üzvləri il 4 müddətinə seçilir. Namizədlikləri irəli sürüldüyü təqdirdə onlar bir dəfə təkrarən seçilə bilərlər. İlk seçkilərdə seçilmiş üzvlərin yarısının səlahiyyət müddəti iki illik müddət bitdikdən sonra başa çatır; ilk seçkilərdən dərhal sonra bu üzvlərin adları 7-ci maddənin 1 d bəndində qeyd olunan iclasın Sədri tərəfindən keçirilən püşk atma yolu ilə müəyyən olunur.

*Maddə 10*

1. Qarşısını alma üzrə Altkomitə öz vəzifəli şəxslərini iki il müddətinə seçir. Onlar təkrarən seçilə bilərlər.

2. Qarşısını alma üzrə Altkomitə öz prosedur qaydalarını müəyyən edir. Bu prosedur qaydalar xüsusilə aşağıdakıları nəzərdə tutur:

a) üzvlərin yarısı üstə gəl bir kvorum təşkil edir;

b) Qarşısını alma üzrə Altkomitənin qərarları iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul olunur;

c) Qarşısını alma üzrə Altkomitənin iclasları qapalı keçirilir.

3. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Qarşısını alma üzrə Altkomitənin ilk iclasını çağırır. İlk iclasdan sonra Qarşısını alma üzrə Altkomitə prosedur qaydalarına müvafiq olan intervalda iclaslarını keçirir. Altkomitə və İşgəncələrə qarşı Komitə ildə bir dəfədən az olmayaraq birlikdə toplaşırlar.

## III HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏNİN MANDATI

*Maddə 11*

Qarşısını alma üzrə Altkomitə:

a) 4-cü maddədə qeyd olunan yerlərə baş çəkir və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi ilə bağlı iştirakçı dövlətlərə tövsiyələr təqdim edir;

b) milli preventiv mexanizmlərə münasibətdə:

i) zərurət olduqda, beləmexanizmlərin yaradılmasında iştirakçı dövlətlərə məsləhət verir və yardım göstərir;

ii) milli preventiv mexanizmlərlə birbaşa, zərurət olduqda konfidensial şəkildə əlaqə saxlayır və onların potensialının gücləndirilməsi məqsədi ilə peşəkar hazırlıq və texniki yardım sahəsində xidmətlər təklif edir;

iii) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri tədbirlərin qiymətləndirilməsi işində məsləhət verir və yardım göstərir;

iv) milli preventiv mexanizmlərinin imkanlarının və mandatının gücləndirilməsi məqsədi ilə işgəncələrin və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün iştirakçı dövlətlərə tövsiyə və iradları təqdim edir.

c) işgəncələrin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurum və mexanizmləri ilə, habelə bütün şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi marağından çıxış edən beynəlxalq, regional və milli təsisat və ya təşkilatlarla əməkdaşlıq edir.

***Maddə 12***

Qarşısını alma üzrə Altkomitənin 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öhdəsinə götürür:

a) Qarşısını alma üzrə Altkomitəni öz ərazisində qəbul etmək və hazırkı Protokolun 4-cü Maddəsində müəyyən olunmuş saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

b) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Qarşısını alma üzrə Altkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

c) Qarşısını alma üzrə Altkomitə və milli preventiv mexanizmlər arasında əlaqələri təşviq etmək və asanlaşdırmaq;

d) Qarşısını alma üzrə Altkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

***Maddə 13***

1. Qarşısını alma üzrə Altkomitə 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirilməsi məqsədilə iştirakçı dövlətlərə müntəzəm başçəkmələr proqramını ilk dəfə püşk atma yolu ilə müəyyən edir.

2. Məsləhətləşmələrin keçirilməsindən sonra, Qarşısını alma üzrə Altkomitə öz proqramı haqqında iştirakçı dövlətləri məlumatlandırır ki, onlar təxirə salınmadan başçəkmələrin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Başçəkmələr Qarşısını alma üzrə Altkomitənin ən azı iki üzvü tərəfindən həyata keçirilir. Zərurət olduqda, bu üzvləri hazırkı Protokolun əhatə etdiyi sahələr üzrə təsdiq olunmuş iş təcrübəsinə və biliklərə malik ekspertlər müşayiət edə bilər. Ekspertlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı və Beynəlxalq Cinayətkarlığın Qarşı-sının Alınması üzrə Mərkəzi tərəfindən, iştirakçı dövlətlərin irəli sürdüyü təkliflər əsasında hazırlanmış ekspertlər siyahısından seçilir. Bu siyahının hazırlanması zamanı aidiyyəti iştirakçı dövlətlər 5 nəfərdən çox olmayaraq milli ekspert təklif edir. Aidiyyəti iştirakçı dövlət başçəkmə üçün təklif edilmiş ekspertin namizədliyini rədd edə bilər, bundan sonra Altkomitə digər eksperti təklif edir.

4. Qarşısını alma üzrə Altkomitə zəruri hesab etdiyi təqdirdə, müntəzəm başçəkmənin həyata keçirilməsindən sonra növbəti qısa başçəkmə təşkil etməyi təklif edə bilər.

***Maddə 14***

1. Qarşısını alma üzrə Altkomitə mandatını həyata keçirə bilməsi üçün hazırkı Protokolun iştirakçı dövlətləri ona aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların saxlanma şəraiti haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

c) aşağıdakı 2-ci bəndə uyğun olaraq, bütün saxlanma yerlərinə, onların binalarına və obyektlərinə məhdudiyyətsiz buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda, tərcüməçi vasitəsilə, habelə Altkomitənin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi qaydada söhbətlər apar-maq imkanı;

e) baş çəkmək niyyətində olduğu yerləri və söhbət etmək niyyətində olduğu şəxsləri maneəsiz seçmək hüququ.

2. Konkret saxlanma yerinə başçəkməyə münasibətdə etirazlar yalnız təcili surətdə baş vermiş və başçəkməyə müvəqqəti maneə törədən milli müdafiə, dövlət təhlükəsizliyi, təbii fəlakət və ya baş çəkilməsi ehtimal edilən

yerdə ciddi iğtişaşla bağlı inandırıcı mülahizələrə əsaslana bilər. Elan olunmuş fövqəladə vəziyyətin mövcudluğu başçəkmənin həyata keçirilməsinə etiraz səbəbi kimi gətirilə bilməz.

***Maddə 15***

Heç bir orqan və ya vəzifəli şəxs Qarşısını alma üzrə Altkomitəyə və ya onun üzvlərinə verilən hər hansı, istər doğru, istərsə də yalan, məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və heç bir belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

***Maddə 16***

1. Qarşısını alma üzrə Altkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə və zərurət olduqda, milli preventiv mexanizminə göndərir.

2. Qarşısını alma üzrə Altkomitə öz hesabatını iştirakçı dövlət tərəfindən müvafiq xahişin daxil olduğu təqdirdə, iştirakçı dövlətin iradları ilə birlikdə dərc edir. İştirakçı dövlət hesabatın bir hissəsini açıqladığı təqdirdə Altkomitə hesabatı tam və ya qismən dərc edə bilər. Bununla yanaşı şəxsi xarakter daşıyan məlumatlar müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadan dərc edilə bilməz.

3. Qarşısını alma üzrə Altkomitə fəaliyyəti haqqında açıq illik hesabatını İşgəncələrə qarşı Komitəyə təqdim edir.

4. İştirakçı dövlətin 12-ci və 14-cü Maddələrə uyğun olaraq Qarşısını alma üzrə Altkomitə ilə əməkdaşlıq etməkdən və ya Qarşısını alma üzrə Altkomitənin tövsiyələrinə müvafiq olaraq vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görməkdən imtina etdiyi təqdirdə, İşgəncələrə qarşı Komitə Qarşısını alma üzrə Altkomitənin xahişi ilə iştirakçı dövlətə öz mülahizələrini ifadə etmək imkanı verdikdən sonra açıq bəyanatla çıxış etmək və ya Altkomitənin hesabatını dərc etmək barədə öz üzvlərinin səs çoxluğu ilə qətnamə qəbul edə bilər.

## IV HİSSƏ

## MİLLİ PREVENTİV MEXANİZMLƏR

***Maddə 17***

Hazırkı Protokolun qüvvəyə minməsindən, və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir işti-rakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, teyin və ya təsis edir. Mərkəzsizləşdirilmiş orqanlar tərəfindən təsis edilmiş mexanizmlər hazırkı

Protokolun məqsədləri üçün, Protokolun tələblərinə cavab verdiyi təqdirdə, milli preventiv mexanizmlər qismində teyin edilə bilər.

***Maddə 18***

1. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edir.

3. İştirakçı dövlətlər milli preventiv mexanizmlərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürür.

4. Milli preventiv mexanizmlərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statusuna dair Prinsipləri nəzərə alır.

***Maddə 19***

Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

***Maddə 20***

Milli preventiv mexanizmlərin öz mandatının yerinə yetirə bilməsi məqsədilə, hazırkı Protokolun iştirakçı dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürür:

a) 4-cü Maddədə müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə gö-

rə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ.

***Maddə 21***

1. Heç bir orqan və ya vəzifəli şəxs milli preventiv mexanizmə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin bir-başa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

***Maddə 22***

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexanizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün təbirlərlə bağlı dialoq aparır.

***Maddə 23*** Hazırkı Protokolun iştirakçı dövlətləri milli preventiv mexanizmlərinin illik hesabatlarının dərc etməyi və yaymağı öhdələrinə götürür.

## V HİSSƏ

## BƏYANAT

***Maddə 24***

1. Ratifikasiyadan sonra iştirakçı dövlətlər hazırkı Protokolun III Hissəsinə və ya IV Hissəsinə uyğun olaraq öz öhdəliklərinin yerinə yetirilməsinin təxirə salınması ilə bağlı bəyanat verə bilər.

2. Belə təxirə salınma ən çoxu üç il müddətində qüvvədə qalır. İştirakçı dövlət tərəfindən müvafiq materialların təqdim edilməsindən və Qarşısını alma üzrə Altkomitə ilə məsləhətləşmələrdən sonra İşgəncələrə qarşı Komitə bu müddəti daha iki il uzada bilər.

## VI HİSSƏ

## MALİYYƏ MÜDDƏALARI

***Maddə 25***

1. Hazırkı Protokolun həyata keçirilməsi zamanı Qarşısını alma üzrə Altkomitə tərəfindən sərf edilmiş xərclər Birləşmiş Millətlər Təşkilatı tərəfindən ödənilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokola uyğun olaraq Qarşısını alma üzrə Altkomitəni funksiyalarını səmərəli şəkildə yerinə yetirməsi üçün zəruri işçi heyət və vəsaitlə təmin edir.

***Maddə 26***

1. Başçəkmədən sonra Qarşısı alma üzrə Altkomitə tərəfindən iştirakçı dövlətə irəli sürülmüş tövsiyələrin həyata keçirilməsi və milli preventiv mexanizmləri üçün tədris proqramlarının maliyyələşdirilməsi məqsədilə Baş Assambleyanın müvafiq proseduruna uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının maliyyə müddəaları və qaydaları əsasında idarə olunan Xüsusi Fond yaradılır.

2. Bu Xüsusi Fond hökumətlər, hökumətlərarası, qeyri-hökumət və digər özəl və ya dövlət qurumları tərəfindən ödənilən könüllü ödəmələr hesabına maliyyələşə bilər.

## VII HİSSƏ

## YEKUN MÜDDƏALAR

***Maddə 27***

1. Hazırkı Protokol Konvensiyanı imzalamış istənilən dövlətə imzalanmaq üçün açıqdır.

2. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlət tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanları saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlətə qoşulmaq üçün açıqdır.

4. Qoşulma bu haqda sənədin saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

5. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hər bir ratifikasiya fərmanının və ya qoşulma haqqında sənədin saxlanılması üçün təhvil verilməsi barədə hazırkı Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətləri məlumatlandırır.

*Maddə 28*

1. Hazırkı Protokol 20-ci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verildikdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Hazırkı Protokol iyirminci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün təhvil verildikdən sonra onu ratifikasiya edən, yaxud ona qoşulan hər bir dövlət üçün həmin dövlət öz ratifikasiya fərmanını, yaxud qoşulma haqqında sənədini saxlanılması üçün təhvil verdikdən sonra otuzuncu gün qüvvəyə minir.

*Maddə 29*

Hazırkı Protokolun müddəaları heç bir məhdudiyyət və istisna olmadan federativ dövlətlərin bütün hissələrinə şamil olunur.

*Maddə 30*

Hazırkı Protokola dair hər hansı qeyd-şərtlərə yol verilmir.

*Maddə 31*

Hazırkı Protokolun müddəaları saxlanma yerlərinə başçəkmə sisteminə əsaslanan istənilən regional konvensiyalar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə toxunmur. Təkrarlanmadan yayınmaq və hazırkı Protokolun məqsədlərinə səmərəli nail olunmasını təmin etmək üçün Qarşısını alma üzrə Altkomitəyə və belə regional konvensiyalara uyğun olaraq təsis edilmiş orqanlara məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək təklif olunur.

*Maddə 32*

Hazırkı Protokolun müddəaları 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara dair 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə, habelə beynəlxalq humanitar hüquqla əhatə olunmayan vəziyyətlərdə iştirakçı dövlətin Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən saxlanma yerlərinə baş çəkməyə icazə vermək hüququna toxunmur.

*Maddə 33*

1. Hər hansı iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər. Bundan sonra Baş katib hazırkı Protokolun və Konvensiyanın iştirakçı dövlətlərini bu barədə məlumatlandırır. Denonsasiya Baş katib belə bildiriş aldıqdan bir il sonra qüvvəyə minir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiya qüvvəyə mindiyi tarixə qədər baş verə bilən hər hansı hərəkətinə və ya vəziyyətinə görə və ya Qarşısını alma üzrə Altkomitə tərəfindən aidiyyəti iştirakçı dövlətə münasibətdə qət edilən və ya qət edilə bilən tədbirlərə görə hazırkı Protokol üzrə öhdəliklərindən azad etmir və denonsasiya qüvvəyə mindiyi tarixə qədər Altkomitədə baxılmış hər hansı məsələnin davam edən baxışına heç bir halda xələl gətirmir.

3. İştirakçı dövlət tərəfindən bəyan edilmiş denonsasiyanın qüvvəyə mindiyi tarixdən sonra Qarşısını alma üzrə Altkomitə həmin dövlətə aid yeni məsələnin baxılmasına başlaya bilməz.

***Maddə 34***

1. Hər hansı iştirakçı dövlət hazırkı Protokola dair düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif olunmuş düzəlişi hazırkı Protokolun iştirakçı dövlətlərinə göndərərək, bu təklifə baxmaq və onu səsə qoymaq məqsədilə iştirakçı dövlətlərin konfransının çağırılmasına razı olub-olmamalarını ona bildirməyi xahiş edir. Bu məktubun göndərildiyi tarixdən keçən dörd ay ərzində iştirakçı dövlətlərdən ən azı üçdə biri belə konfransın çağırılmasına razılıq verdiyi təqdirdə Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi ilə konfrans çağırır. Baş katib bu konfransda və səsvermədə iştirak edən iştirakçı dövlətlərin üçdə ikisinin çoxluğu ilə qəbul edilən hər hansı düzəlişi təsdiq üçün bütün iştirakçı dövlətlərə gön-dərir.

2. Bu Maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş hazırkı Protokolun iştirakçı dövlətlərinin üçdə ikisi həmin düzəlişi öz konstitusiya prosedurlarına uyğun qəbul etdiklərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirdikdən sonra qüvvəyə minir.

3. Düzəlişlər qüvvəyə mindikdən sonra, onları qəbul etmiş iştirakçı dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə qəbul etmiş olduqları hazırkı Protokolun müddəaları və əvvəlki düzəlişlər məcburi olaraq qalır.

***Maddə 35***

Qarşısını alma üzrə Altkomitənin üzvlərinə və milli preventiv mexanizmlərinin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetirilməsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. Altkomitənin üzvlərinə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və immunitetləri haqqında 13 fevral 1946-cı il tarixli Konvensiyasının 23-cü fəslinin müddəalarına əməl olunmaqla, həmin Konvensiyanın 22-ci fəslində sadalanan imtiyaz və immunitetlər verilir.

***Maddə 36***

İştirakçı dövlətə baş çəkərkən Qarşısını alma üzrə Altkomitənin üzvləri hazırkı Protokolun müddəa və məqsədlərinə və istifadə edə biləcəkləri imtiyaz və immunitetlərə xələl gətirmədən:

a) baş çəkilən dövlətin qanun və normalarına riayət edir;

b) vəzifələrinin qərəzsiz və beynəlxalq xarakteri ilə bir araya sığmayan hər hansı hərəkət və fəaliyyətdən çəkinir.

***Maddə 37***

1. İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnləri bərabər olaraq autentik olan hazırkı Protokol saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokolun təsdiq edilmiş nüsxələrini bütün dövlətlərə göndərir.